Xalqın qəzeti!

# Xalq qəzeti

№ 136 (30252) 4 iyul 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün xəbəri

Dünən gecə qəzetimiz çapa göndərilən dəqiqələrdə iş otaqlarımızda ani titrəyiş hiss olundu. Az sonra aldığımız məlumatda bildirildi ki, Xəzər dənizinin Azərbaycan sahillərində 5,2 bal gücündə zəlzələ baş verib.

Bu barədə Avropa-Aralıq dənizi Seysmoloji Mərkəzinin operativ məlumatında isə qeyd olunurdu ki, yeraltı təkanların episentri Xaçmaz rayonundan 80 kilometr şimal-şərqdə, ocağı isə 35 kilometr dərinlikdə yerləşib.

# Dövlət sahibkarlığın uğurlarının qarantıdır



**Azərbaycanda bazar münasibətləri prinsipləri əsasında iqtisadiyyatın, o cümlədən özəl sektorun formalaşması və inkişafında ulu öndər Heydər Əliyevin rolu, bu siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə biznes və investisiya mühiti davamlı olaraq yaxşılaşdırılıb, sahibkarlıq fəaliyyətini tənzimləyən qanunvericilik bazası və dəstək alətləri müasir çağırışlar əsasında təkmilləşdirilib, sahibkar-dövlət münasibətləri sürətlə inkişaf edib. Qarşıdakı dövrdə də sahibkarlığın inkişafı, biznesin stimullaşdırılması məqsədilə tədbirlərin davam etdirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.**

Ötən müddətdə respublikamızda kiçik və orta biznesin inkişafı, bu sahənin iqtisadiyyatda rolunun artırılması da prioritet istiqamətlər kimi diqqətdə saxlanılıb. Prezident İlham Əliyevin çıxışlarında hər zaman bir sıra iqtisadi məsələlərin həllinin, o cümlədən biznes mühitinin yaxşılaşdırılmasının gündəlikdə durduğu qeyd edilib.

(ardı 9-cu səhifədə)

# Vaşinqton raundunun səmərəsizliyi: Bakı gücə, İrəvan illüziyaya doğru



**Ötən həftə Cənubi Qafqaz regionunun ictimai-siyasi həyatındakı ən mühüm hadisə iyunun 27-29-da Vaşinqtonda Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramovla Ararat Mirzoyan arasında keçirilmiş görüş idi.**

Kollektiv Qərb formatının Vaşinqton raundu çərçivəsindəki sayca ikinci belə görüşün təşkili ABŞ-ın vasitəçilik missiyasının ardıcıllığının nəticəsi kimi qiymətləndirilə bilər. Əslində, qarşılıqlı təmasın ən pozitiv məqamı da elə budur. Amma, təəssüf ki, başqa hansısa müsbət meyildən söz açmaq mümkün deyil.

(ardı 3-cü səhifədə)

## Azadlıq uğrunda ən çox şəhid verən ölkə

Səhifə ⇨ 4

## Qarabağın dünyanı heyran edəcək nadir turizm potensialı var



Səhifə ⇨ 7

## TRASECA – tarixdən bugünə İpək Yolu




Səhifə ⇨ 7

## Makronsayağı demokratiya: etirazçılara qarşı zirehli maşınlar və helikopterlər



**Emmanuel Makron prezident seçilər-seçilməz özünü demokratiyanın beşiyi adlandıran Fransa kütləvi etiraz aksiyalarının girdabına düşüb. Bu kütləvi aksiyalar bəzən öləziyir, bəzən isə selin keçdiyi dağ çayı kimi güclənərək məcrasından çıxır, iğtişaşlara çevrilir. Makron ilk dəfə 2017-ci ilin yazında prezident kürsüsünə yiyələnib, 2022-ci il seçkilərində öz postunu qoruyub saxlamağa müvəffəq olub.**

2018-ci ilin sonunda ölkədə lideri olmayan "Sarı jiletlilər hərəkatı"nın kortəbii etirazları başlayıb. Qeyd edək ki, nümayiş iştirakçılarının bu hərəkata mənsub olanları müəyyən etmək üçün istifadə etdikləri sarı jiletlilərə görə belə adlandırılıb. İlkin olaraq, bu manifestlərə Prezident Makronun karbon yanacağına, əsasən dizelə tətbiq olunan vergini artırmaq niyyəti səbəb olub. Daha sonra iştirakçıların tələbləri geniş spektrli digər sosial və iqtisadi tələblərə çevrilib. Hərəkat tez bir zamanda kütləviləşib və bütün ölkəyə yayılıb. Bir sıra siyasi partiyaların liderləri (o cümlədən solçu Jan-Lük Melanşon, mərkəzçi Jan Lassal və sağçı Marin Le Pen) və siyasi hərəkatlar onu açıq şəkildə dəstəkləyirlər. "Sarı jiletlilər hərəkatı" hazırda da kütləvi aksiyalar yolu ilə tələblərinə nail olmağa çalışır.

(ardı 6-cı səhifədə)

## Təbii fəlakətdən zərər çəkən fermerlərə kompensasiya veriləcək



Səhifə ⇨ 9

## Baş separatçı: hamı "inteqrasiya" deyir

Səhifə ⇨ 6

## III Avropa Oyunları başa çatdı



Səhifə ⇨ 11

## Quranı yandırmaqla Tanrıya daş atmağın fərqi yoxdur

**Neçə dövlətə işlədiyi bəlli olmayan avantürist Üsamə Ben Ladenin 22 il bundan əvvəl Nyu-Yorkda əkiz göydələnlərə və Vaşinqtonda Pentaqonun binasına sərnişin təyyarələrinin çarpılmasını təşkil edəndən sonra gündəmə və siyasi leksikona "İslam terrorizmi" ifadəsi gətirildi.**

Məqsəd, ABŞ başda olmaqla, Qərbin Şərqə, müsəlman dünyasına hərbi, siyasi və iqtisadi müdaxilələrinə haqq qazandıracaq bəhanə əldə etmək idi. Neftin hesabına inkişaf yoluna qədəm qoymuş ərəb ölkələrinin müstəqil siyasət yürütməyə cürət edən bəzi liderlərinə qarşı hər cür təzyiq və təhdid göstərmək, Ağ evə boyun əyməyən hakimiyyətləri devirmək üçün "İslam terrorizmi"ndən tutarlı "sübut və dəstəvuz" tapmaq qeyri-mümkün idi. Onlara cızdıqları ssenariləri gerçəkləşdirməkdən ötrü korporativ maraqları naminə terroru dəstəkləyən bəzi üzdəniraq müsəlman ölkələri də əlavə "əsaslar" verirdi. Bəli, artıq sübut etməyə ehtiyac qalmayıb ki, öz laboratoriyalarında icad etdikləri "dini-ideoloji məhsullar" böyük güclərin əlində siyasi alətdir.

(ardı 3-cü səhifədə)

# Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İslam dininin əlamətdar mərasimlərindən olan Qurban bayramı özündə xeyirxahlığı, birlik və bərabərliyi, insanın ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq niyyətini əks etdirir.

Milli-mənəvi və dini dəyərlərinə həmişə sadiq olan Azərbaycan xalqı bütün dünya müsəlmanları ilə birlikdə Qurban bayramını qardaşlıq, humanizm və həmrəylik rəmzi kimi yüksək əhval-ruhiyyə ilə qeyd edir. Bu günlərdə həm Həcc ziyarətində, həm də ölkəmizin hər yerində dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, xeyriyyəçilik işləri görülür, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Ümidvaram ki, bu mübarək bayram günlərində dua və dilələriniz gerçəkləşəcək, Uca Yaradan mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

**Qurban bayramınız mübarək olsun!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 iyun 2023-cü il**

# Prezident İlham Əliyev Qurban bayramı münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurban bayramı münasibətilə sosial şəbəkə səhifələrində paylaşım edib.**

# Birinci vitse-prezident Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edib. Paylaşımda deyilir:**

**"Ölkəmizin bütün hərbi qulluqçularını və veteranlarını təbrik edirəm! Hər kəsə möhkəm cansağlığı, Vətənimizə - sülh və əmin-amanlıq arzulayıram!".**

# Mehriban Əliyeva Qurban bayramı münasibətilə paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Qurban bayramı münasibətilə paylaşım edib. Paylaşımda deyilir:**




**"Azərbaycan xalqını və dünya müsəlmanlarını müqəddəs Qurban bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Allah bütün qurbanları qəbul etsin!"**

# Azərbaycan İrpendə akademik Zərifə Əliyeva adına məktəbi himayə edir



**Azərbaycan dövləti İrpen şəhərində yerləşən və görkəmli elm xadimi, oftalmoloq-alim Zərifə Əliyeva adına 12 nömrəli tam orta məktəbə daha bir töhfə verib.**

AZƏRTAC xəbər verir ki, istilik probleminin həlli məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə "SOCAR Energy Ukraine" şirkəti orta məktəbin binasının xarici istilik izolyasiyası işlərinə başlayıb.

Məktəbin direktoru Valentina Antonenko AZƏRTAC-a açıqlamasında orta məktəbə daim dəstək göstərən Azərbaycan dövlətinə, xüsusilə Prezident İlham Əliyevə təşəkkürünü bildirib. Qeyd edilib ki, məktəbin xarici istilik izolyasiyası işləri yeni tədris ilinə qədər başa çatacaq.

Qeyd edək ki, bundan əvvəl Prezident İlham Əliyevin göstərişi ilə "SOCAR Energy Ukraine" şirkəti Rusiya–Ukrayna müharibəsi zamanı İrpen şəhərində ciddi ziyan dəyən orta məktəbin təmirini üzərinə götürərək, müvafiq işləri yeni tədris ilinə kimi başa çatdırıb.

Təmir işləri zamanı orta məktəbin dam örtüyü tamamilə yenilənib, sinif otaqları təmir edilib, pəncərə çərçivələri dəyişdirilib, yeni istilik radiatorları quraşdırılıb, kosmetik işlər həyata keçirilib. Partlayışdan ən çox zərər çəkmiş idman zalı və bomba sığınacağı təmir edilib.

Eyni zamanda, elektrik enerjisi probleminin həlli məqsədilə orta məktəb generatorla da təmin olunub.

# Azərbaycanla Türkiyənin dostluq və qardaşlıq münasibətləri əbədidir

**İyunun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon söhbəti olub.**

Dövlət başçıları bir-birini və xalqlarımızı müqəddəs Qurban bayramı münasibətilə təbrik etmiş və ən xoş arzularını çatdırmışlar.

Telefon söhbəti zamanı dostluq və qardaşlıq münasibətlərimizin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əminlik ifadə olunmuş, müttəfiqlik əlaqələrimizin gələcək inkişafı ilə bağlı fikir mübadiləsi aparılmışdır.

***Prezidentin Mətbuat Xidməti***

# Ölkəmizin Pakistanla əlaqələrinin möhkəmlənməsi məmnunluq doğurur

**İyunun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında telefon söhbəti olub.**

Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərif bir-birinə və xalqlarımıza müqəddəs Qurban bayramı münasibətilə təbriklərini və ən xoş arzularını çatdırıblar.

Məhəmməd Şahbaz Şərif bu yaxınlarda Azərbaycana rəsmi səfəri zamanı ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Prezident İlham Əliyevə bir daha minnətdarlığını bildirib.

Söhbət zamanı Azərbaycan və Pakistan arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsi məmnunluqla qeyd olunub, münasibətlərimizin gələcək inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Belarus Respublikasının Prezidenti Zati-aliləri cənab Aleksandr Lukaşenkoya

**Hörmətli Aleksandr Qriqoryeviç!**

Sizi və Sizin şəxsinizdə dost Belarusun bütün xalqını dövlət bayramı – Müstəqillik Günü münasibətilə Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Bizim ölkələrimizi ənənəvi sıx dostluq, əməkdaşlıq və qarşılıqlı dəstək münasibətləri bağlayır. Bu il biz Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Fərəhli haldır ki, tarixi baxımdan qısa zaman kəsiyi ərzində biz nəinki ortaq keçmişin müsbət nəticələrinin qorunub saxlanılmasına və artırılmasına, həm də qarşılıqlı fəaliyyətin keyfiyyətcə yeni səviyyəyə çıxarılmasına nail olmuşuq.

Biz Azərbaycan-Belarus əməkdaşlığının ölkələrimiz üçün qarşılıqlı maraq kəsb edən bütün sahələrdə inkişafına xüsusi əhəmiyyət veririk. Əminəm ki, bizim birgə səylərimiz xalqlarımızın və ölkələrimizin maraqları naminə bundan sonra da Azərbaycan və Belarus arasında ənənəvi dostluq əlaqələrinin və strateji tərəfdaşlığın möhkəmlənməsinə yönəldiləcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, səadət və uğurlar, Belarus Respublikasına isə firavanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyun 2023-cü il**

# Cibuti Respublikasının Prezidenti Zati-aliləri cənab İsmail Ömər Gelleha

**Hörmətli cənab Prezident!**

Cibuti Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Cibuti dövlətlərarası əlaqələrinin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla çoxtərəfli təsisatlarda səmərəli əməkdaşlığımızın uğurla davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Cibuti xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyun 2023-cü il**

## "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2554 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2554 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 259; 2022, № 5, maddə 534) birinci hissəsində "Elnur Əliyev – Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini" sözləri "Rəhman Hümmətov – Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 iyul 2023-cü il**

# Sel və daşqınların fəsadları aradan qaldırılır

**İyulun 3-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə son günlər ölkəmizdə baş verən sel və daşqın hadisələrinin fəsadlarının aradan qaldırılmasına həsr olunmuş müşavirə keçirilib.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, müşavirəni açan Baş nazir Ə.Əsədov ötən illərdən fərqli olaraq cari ilin may-iyun aylarında ölkəmizin bəzi rayonlarında hava şəraitinin qeyri-sabit keçdiyini, yağıntıların miqdarının artdığını, əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv və güclü olduğunu qeyd edib.

Diqqətə çatdırılıb ki, əsasən iyun ayında respublikanın əksər ərazilərində çaylara sel sularının daxil olması nəticəsində bir sıra çaylarda sululuq artıb, sel və daşqınlar baş verib.

Təbii fəlakət baş verən rayonlar üzrə aidiyyəti qurumlar tərəfindən zəruri və təxirəsalınmaz tədbirlər görülüb, ərazilərə xüsusi texnika və canlı qüvvə cəlb olunub. Görülmüş işlər nəticəsində operativ olaraq çayların məcrası dəyişdirilib, yuyularaq dağıdılan yol infrastrukturu bərpa olunub.

Bildirilib ki, təbii fəlakət nəticəsində fərdi yaşayış evlərinə, həyətyanı sahələrə, həmçinin əkin sahələrinə və fermer təsərrüfatlarına, eyni zamanda, digər infrastruktura dəymiş ziyanın qiymətləndirilməsi ilə bağlı tədbirlər davam etdirilir.

Müşavirədə sel və daşqınların fəsadlarının aradan qaldırılması üçün görülən işlər barədə məruzələr dinlənilib, müzakirələr aparılıb.

Baş nazir Ə.Əsədov bu istiqamətdə zəruri və operativ tədbirlərin davam etdirilməsi ilə bağlı müvafiq tapşırıqlarını verib.

Eyni zamanda, qeyri-sabit hava şəraiti ilə əlaqədar Milli Hidrometeorologiya Xidməti tərəfindən tətbiq edilən erkən xəbərdarlıq sisteminin təkmilləşdirilməsinin vacibliyi vurğulanıb. Təbii fəlakətin qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin görülməsi baxımından xidmətin fəaliyyətinin digər aidiyyəti qurumlarla əlaqələndirilmiş şəkildə həyata keçirilməsinin önəmi qeyd edilib.

***"Xalq qəzeti"***

# Vaşinqton raundunun səmərəsizliyi: Bakı gücə, İrəvan illüziyaya doğru

## Yaxud Azərbaycan və Ermənistan XİN rəhbərlərinin son danışıqları ilə bağlı qeydlər

(əvvəli 1-ci səhifədə)



Nəzərə alaq ki, tərəflər okeanın o tayında Birləşmiş Ştatların Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin vasitəçiliyi ilə bu il mayın 1-dən 4-dək olan müddətdə də bir araya gəlmişdilər. Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında mayın 14-də Brüsseldə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş və Bakı üçün nikbinlik doğurmuş görüş də məhz həmin Vaşinqton təmasının nəticəsi kimi qiymətləndirilmişdi. Bu fonda baş nazir N.Paşinyanın Qarabağ da daxil olmaqla 86,6 min kvadratkilometr ərazidə Azərbaycanın suveren hüquqlarını tanıdığını bildirməsi başlıca məqam kimi götürülmüşdü.

Ümumən, Nikol ötən müddətdə bir neçə dəfə eyni ifadəni gündəmə gətirmişdi. Elə təəssürat yaranmışdı ki, iki Cənubi Qafqaz ölkəsi arasında sülh müqaviləsinin bağlanması yolunda hər hansı maneə qalmayıb. Lakin hər şeyin heç də asan başa gəlmədiyi də məlum olmuşdu. Belə görünmüşdü ki, erməni liderin dildə söylədiyini imzası ilə təsdiqləməsi mümkünsüzdür. Ən azı hələlik belə qənaətə gəlməyə əsas var.

*

Söhbət rəsmi İrəvanın Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsini qabartmasından, bununla bağlı ayrıca beynəlxalq mexanizmin yaradılması iddiasını irəli sürməsindən gedir. O iddiadan ki, onun qəbulu Azərbaycan üçün yolverilməzdir. Çünki rəsmi Bakı bölgənin erməni əhalisini öz vətəndaşları sayır və hesab edir ki, vətəndaşlarının hüquq və təhlükəsizliyi müstəvisində hansısa fərqli siyasi metodologiyanın tətbiqi yolverilməzdir. Yeri gəlmişkən, qeyd edək ki, Ermənistana Qarabağ erməniləri ilə əlaqədar ayrıca mexanizmin mövcudluğu gələcəkdə bölgəyə dair yeni avantürist planlar hazırlamaq üçün, bir növ, tutacaq yaradır və ölkəmizin rəhbərliyi bunu dərk edir.

...İrəvanın müxtəlif bəhanələrlə sülh prosesindən yayındığı ortadadır. Əslində nazirlərin Vaşinqton görüşü ərəfəsində də belə bir hal baş verdi. Qarabağdakı qanunsuz erməni hərbi birləşmələri təxribat törətdilər. Məlum olduğu kimi, bölgənin separatçı rejimi özünü ayrıca dövlət kimi aparır və Azərbaycanla Ermənistan arasında əldə ediləcək razılaşmalara demarş mövqeyini ortaya qoyur. İyunun 26-dakı təxribat da bunun aşkar nümayişi idi. Əlbəttə, burada söhbət təkcə həmin rejimin Bakı-İrəvan mümkün razılaşmasına qarşı çıxmasından getmir. Nəzərə alaq ki, dünya erməniliyi də Qarabağ mövzusunda dirəniş göstərməkdədir və bu dirəniş İrəvanın mövqeyindəki destruktivliyi şərtləndirir. Baxmayaraq ki, iki tərəf arasında gərginliyin olduğuna dair görüntü var...

*

Bəli, XİN rəhbərlərinin Vaşinqton təması fonunda Qarabağ cəbhəsində gərginliyin yaşanması, qarşı tərəfin törətdiyi təxribatlar danışıqların pozitiv nəticələr verəcəyinə şübhə yeri qoyurdu və şübhələr özünü doğrultdu. Üç gün davam etmiş növbəti raund tərəflərin bir-biri ilə razılaşmadığı məqamları tam aşkar şəkildə ortaya çıxarması ilə yaddaqalan oldu.

Ümumən, Ermənistan və Azərbaycan XİN rəhbərlərinin ABŞ-da keçirilmiş görüşündə rəsmilərin Ermənistan-Azərbaycan sərhədinin dəqiqləşdirilməsi, qoşunların çıxarılması, Qarabağ erməniləri mövzularında razılığa gəlməmələrində xarakterik məqam budur ki, İrəvan Qarabağ erməniləri məsələsini bütövlükdə Qarabağ münaqişəsi kimi təqdim edir. Yəni, Ermənistan üçün, bu, 44 günlük müharibəyə qədərki Dağlıq Qarabağ münaqişəsinin həlli məntiqi ilə eynidir. Sadəcə olaraq həmin vaxt ərazi məsələsi öndə idi, indi əhali. Nəticədə Paşinyan administrasiyası "Qarabağ xalqı"nın təhlükəsizliyi və hüquqlarının təmin edilməsi üzrə beynəlxalq dialoq mexanizmi"ni irəli sürür.

Bakı isə "Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyi və hüquqlarının təminatları üzrə beynəlxalq dialoq mexanizminin yaradılması" qəti şəkildə rədd edir. Çünki bu, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin bir hissəsi üzərində suverenliyini məhdudlaşdırır. Azərbaycan Qarabağın ermənilər məskunlaşan hissəsinin reinteqrasiyasını, onun sakinlərinə Azərbaycan Konstitusiyası çərçivəsində hüquq və təhlükəsizliyin təminatını təklif edir.

Haşiyə çıxaq ki, Ermənistanın siyasi provakasiyasına rəvac verən bir məqam da var. Məlumdur ki, iyunun 22-də Avropa Şurasının Parlament Assambleyası Laçın yolu ilə bağlı ermənipərəst qətnaməsi çıxarmışdı. Həmin qərarlı sənəddə də Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinə dair beynəlxalq mexanizmin yaradılmasının vacibliyi vurğulanmış və mövcud istiqamətdə Azərbaycana çağırış ünvanlanmışdı. Göründüyü kimi, Ermənistan həmin müddəanı Vaşinqton raunduna daşımaq cəhdi göstərib və danışıqların uğursuzluğunu təsdiqləyən məqamlardan biri məhz budur.

*

İkinci məqama keçid alaq. Ermənistan 1990-cı illərin əvvəllərində ələ keçirdiyi yeddisi Qazax rayonunun və biri Naxçıvan Muxtar Respublikasının olmaqla, səkkiz azərbaycanlı kəndi öz əlində saxlamaqdadır. Məsələyə sərhədlərin delimitasiyası və demarkasiyası müstəvisində diqqət yetirilməkdədir. Bu baxımdan Ermənistan SSR-ə məxsus bir kəndin də Bakının nəzarətində qaldığı iddiası var. Ermənistan rəhbərliyi, həmçinin bildirir ki, Azərbaycan qoşunları 2021-ci ilin mayında və 2022-ci ilin sentyabrında sərhəddə baş verən toqquşmalar zamanı onun ərazisinə "daxil olub". Azərbaycan tərəfi bu iddiaların əsassız olduğunu irəli sürür, çünki sərhədin delimitasiyası aparılmayıb. Prosesi uzadan isə İrəvandır...

*

Əslində, qeyd etdiyimiz məqamlar, bütövlükdə, Azərbaycan-Ermənistan nizamlamasının vacib elementlərini təşkil etməkdədir. Bu baxımdan daha bir vacib məqam var ki, o da Zəngəzur dəhlizi məsələsidir. Ölkəmiz dəhliz məntiqinə söykənməklə, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatında Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yol kimi əksini tapmış bu məsələyə geopolitik obraz qazandırıb. İrəvan bunu qəbul etmir. Əvəzində biz onun eyni addımı Laçın yolu ilə bağlı atdığını görürük. Yəni, erməni rəsmilər tərəfindən Laçın yoluna dəhliz statusu qazandırmaq cəhdi ilə, onun Qarabağın erməni əhalisinin hüquq və təhlükəsizliyində başlıca yer tutduğu vurğulanır. Buna görə Ermənistan Azərbaycanın Həkəri çayı üzərində qurduğu sərhəd nəzarət-buraxılış məntəqəsinin guya qanunsuz olduğunu vurğulayır.

Qeyd edək ki, sonuncu məsələ nazirlərin ABŞ-dakı may danışıqlarından sonra daha çox qabardılmağa başlayıb. AŞPA-nın haqqında söz açdığımız qətnaməsi isə İrəvanın illüziyalarına yeni rəng qatmaqdadır. Vaşinqton danışıqlarının iyun raundunun səmərəsizlik səbəblərindən biri də Ermənistanın həmin illüziyanı danışıqlar masasına gətirmək istəməsi ilə bağlıdır.

*

Bəs, kollektiv Qərb vasitəçiliyi formatındakı Vaşinqton raundunun səmərəsizliyi hansı nəticələr doğura bilər? Bu kimi suallar ekspertləri düşündürməkdədir. Əlbəttə, Azərbaycan öz mövqeyində qətidir. Ölkəmizin ekspertləri də vurğunu buna yönəldirlər. Maraqlıdır ki, Bakının mövqeyindəki qətiyyətini erməni politoloqlar da önə çəkirlər. Onlar bu barədə danışarkən, daha çox Ermənistanı gözləyən yeni fəlakət ssenarisinin xəyali trayektoriyasını cızmaqla məşğuldurlar.

Amma bu sayaq deyimlər ölkənin taleyini düşünməyi yox, daha çox hazırkı iqtidarın hakimiyyətdən uzaqlaşmasını hədəf seçir. Təxminən belə: Paşinyan hakimiyyətdə olmasa, hər şey düzələcək. Halbuki, elə deyil və bu illüziyanın erməni siyasi dairələrinə hakim kəsilməsi təhlükəli tendensiya formalaşdırmaqdadır. Belə çıxır ki, Nikolun yerinə gələcək hansısa başqa şəxs itirilmişləri bərpa edəcək. Sual olunur: həmin xəyali qüvvə bunu hansı siyasi-diplomatik və hərbi potensialla edəcək?.. Erməni siyasi istebleşmenti özünün illüziyaya qapılma bacarığını ortaya qoyur, nəinki praqmatikliyi. Bütün bunlar Ermənistan hakimiyyətinin davranışlarına da təsirini göstərir. Vaşinqton raundunun səmərəsizliyi fonunda Bakının daha qətiyyətli addımlara, sülhə məcburetməyə getməkdən başqa yolu qalmır.

Vaşinqton raundunun hazırkı səmərəsizliyi təəssüratı fonunda Azərbaycan və Ermənistan liderlərinin Qərb formatı çərçivəsində planlaşdırılan növbəti görüşləri üçün müzakirə gündəliyinin konkretlik qazanmadığını da söyləmək mümkündür. Bu təəssürat isə Qərbin sülh təşəbbüslərinin faydasızlığına dair Rusiyada rəsmi qaydada səslənmiş fikirlərin doğruluğunu təsdiqləyən amil kimi nəzərdən keçirilə bilər. Müvafiq olaraq, onsuz da passiv mövqe tutan Moskvanın daha da passivləşməsi, üçtərəfli Bəyanat məntiqini ehkamlaşdıraraq, Cənubi Qafqazda mövcudluğunu daha da gücləndirmək istəməsi proqnozlaşdırılandır. Deməli, Qarabağ müstəvisində gələcəkdə təxribatlar arta bilər və deməli, Azərbaycanın güc nümayişi üçün durumun formalaşması da mümkündür.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

---

# Quranı yandırmaqla Tanrıya daş atmağın fərqi yoxdur

## İrqi ayrı-seçkilik, islamofobiya İsveçin, Fransanın timsalında Avropanın əksər ölkələrində dövlətin siyasi xəttinə çevrilib

(əvvəli 1-ci səhifədə)

### Stokholmun məntiqsizlik diplomatiyası

Şərqi müsəlman dövlətlərinin birindən qaçqın düşdüyü deyilən İraq əsilli Salvan Momika guya etiraz əlaməti olaraq Quranın vərəqlərini qoparıb, ayaqqabılarını silib, sonra da içinə bekon qoyaraq yandırıb. Bu vəhşilik İsveçin paytaxtı Stokholmda, məscidin yaxınlığında törədilib. Hadisədən bir müddət öncə bu ölkənin İnzibati Məhkəməsi "İsveç polisinin Quranın yandırılmasına icazə verməkdən imtina etməsinin heç bir hüquqi əsası olmadığı" barədə qərar çıxarıb. Bədnam yerli Femida polisin "təhlükəsizlik riski ilə bağlı narahatlıqlar"ın nümayiş hüququnu məhdudlaşdırmaq baxımından yetərli olmadığını "isbatlayıb". O, polisin qərarının ifadə azadlığına zidd olduğunu bildirib. İslam dünyasının Qurban bayramını qeyd etdiyi gün müsəlmanların müqəddəs kitabının yandırılması, hər şeydən əvvəl, islamofobiyaya söykənən təxribat aktı idi və indi onun fəlakətli nəticələrini izləməkdəyik. Maraqlıdır ki, İsveç iyulun 11-12-də Litvanın paytaxtı Vilnüsdə keçiriləcək NATO sammitinə "sürprizlə" gedir. Yəni, bu hərbi alyansa üzvlükdən ötrü Türkiyənin təsdiqinə ehtiyac duyan Stokholmun növbəti dəfə təxribata evsahibliyi etməsi sağlam məntiqlə də bir araya sığmır. Yaşayış səviyyəsinə görə dünyanın öncül ölkələrindən biri sayılan Skandinaviya "almazı"nın bu diplomatiya ilə nəyə və kimlərə xidmət göstərdiyini anlamaq o qədər də asan deyil.

### Fikir azadlığı adı altında alçaqlıq!

Stokholmda Qurana qarşı törədilən vandallıq aktına birinci və kəskin reaksiya Türkiyədən gəldi. Prezident Rəcəb Tayyib Ərdoğan lideri olduğu Ədalət və İnkişaf Partiyasının yerli təşkilatları ilə canlı videoəlaqə ilə bayram proqramında deyib: "Polisin gözü qarşısında İslam və insanlıq düşmənləri təxribatlar törədir. İsveçdə Qurban bayramının ilk günü müqəddəs kitabımız Qurana qarşı edilən iyrənc hücum da onlardan biridir. Bu cinayəti törədənlər kimi, söz azadlığı pərdəsi altında buna yol verən və bu alçaqlığa göz yumanlar da öz məqsədlərinə çata bilməyəcəklər. Bildirmək istəyirəm ki, biz Türkiyə olaraq nə təxribat, nə də təhdid siyasətinə boyun əyməyəcəyik. Terror təşkilatları və islamofobiya ilə qətiyyətlə mübarizə apararaq, reaksiyamızı ən sərt şəkildə göstərəcəyik. Biz, nəhayət, Qərbin "təkəbbür abidələri"nə öyrədəcəyik ki, müsəlmanların müqəddəslərini təhqir etmək fikir azadlığı deyil". R.T.Ərdoğanın bu bəyanatından sonra İsveçin NATO üzvlüyü məsələsinin çox böyük sual işarəsi altına düşəcəyi şübhəsizdir.



### Roma Papası: Belə hərəkətlərə nifrət edirəm

Dünya katoliklərinin dini rəhbəri – Roma Papası Fransisk Stokholmda Quranın yandırılmasından hiddətləndiyini, belə hərəkətlərə nifrət etdiyini bildirib. O, "Al İttihad" qəzetinə müsahibəsində bunları söyləyib: "Mən hiddətlənirəm, bu cür hərəkətlərə nifrət edirəm. Xalqların, millətlərin müqəddəs hesab etdiyi istənilən kitaba dindarlara hörmət baxımından ehtiramla yanaşmaq lazımdır. Söz azadlığından heç vaxt başqalarını təhqir etmək üçün bəhanə kimi istifadə olunmamalıdır".

Roma Papasının da hiddətləndirən hərəkətlərə qoca qitənin inkişaf etmiş bir dövlətində rəvac verilir. Bu cür davranışlar milyarddan çox insanın dini hissiyyatını təhqir etməklə yanaşı, birgə yaşayışa, Avropa dəyərlərinə arxadan vurulan zərbədir. Artıq sirr deyil ki, Avropada yaşayan müsəlmanlar son illər işdə, yolda, ictimai yerlərdə, nəqliyyatda mütəmadi olaraq dini, irqi ayrı-seçkiliklə, İslam əleyhinə təzyiqlərlə üzləşirlər. Müqəddəs kitabımız "Qurani-Kərim"ə qarşı sərgilənən belə təhqiramiz hərəkətlər buna nümunədir.

### Putin: Səmavi kitabın yandırılması cinayətdir

Rusiya Prezidenti Vladimir Putin Qurban bayramı günlərində Dərbəndə səfəri zamanı buradakı qədim məscidə baş çəkib. Dövlət başçısı vurğulayıb ki, bəzi ölkələrdə Rusiyadan fərqli olaraq dindarların hisslərinə hörmət edilmir və müqəddəs səmavi kitabın yandırılması cinayət sayılmır: "İsveçdə Quran yenidən yandırılıb. Böyük Pyotr onlar üçün kifayət deyil". Bu ismarıcdan sonra o xatırladıb ki, Rusiyada konfessiyalararası nifrətin qızışdırılması qanunla cinayət sayılır. Onun sözlərinə görə, xristianlar və müsəlmanlar arasında qarşılıqlı hörmət və qardaşlıq münasibətləri Rusiya xalqının birliyini möhkəmləndirir.

Daha sonra Rusiya XİN-in dini etiqad azadlığının təmin edilməsi sahəsində əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Gennadi Askaldoviç ölkəsinin Stokholm sindromuna rəsmi münasibətini açıqlayıb. G.Askaldoviç İsveç hakimiyyətinin bu vandalizmi "söz azadlığı və demokratiya" arqumentləri ilə ört-basdır etməyə çalışdığını, onun təxribatçı islamofobiya aktına icazə verməklə ekstremizmə yol açdığını bəyan edib. O, rəsmi Stokholmun dini radikallığa bu cür meyil göstərməsini qətiyyətlə pisləyib: "Dünya ictimaiyyəti dindarların hüquqlarının bu cür biabırçı şəkildə pozulmasına qarşı birgə fəaliyyət göstərməyə borcludur".

### Ciddi etiraz, kəskin notalar

Mərakeş hökuməti İsveçin paytaxtında baş vermiş Quranın yandırılmasına etiraz olaraq öz səfirini Stokholmdan geri çağırmaq qərarına gəlib. Mərakeşin Xarici İşlər Nazirliyi bu qərarını cümə axşamı elan edərək, bu addımın Kralın göstərişi ilə atıldığını bildirib. XİN-in saytında dərc olunan bəyanatda, həmçinin qeyd edilib ki, belə bir hərəkətin, xüsusilə Həcc mövsümü və Qurban bayramı ilə üst-üstə düşməsi bir milyarddan çox müsəlmanın hisslərinə məhəl qoyulmaması məsuliyyətsizlik və düşmənçilikdir. Bu hadisə rəsmi Rabatın ciddi qəzəbinə və hiddətinə səbəb olub. Əslində, səfirin geri çağırılmasını Mərakeşdən müsəlmanların dini hisslərini təhqir edən bu cür hərəkətləri dünya müsəlmanlarının pisləməsinə açıq çağırış və siqnal kimi qəbul etmək olar.

Küveyt də bu vandalizm aktına kəskin etirazını bildirib. Ölkənin Xarici işlər nazirinin müavini Cərrah Cabir əl-Əhməd əl-Sabah İsveçin BƏƏ-dəki səfiri, Stokholmun maraqlarının hər iki ölkədəki təmsilçisi Lisolette Andersona etiraz notasını təqdim edib. Rəsmi Əl-Küveyt İsveç hakimiyyətini mitinqə icazə verməkdə qınayıb və Stokholmu Quranın təhqir olunmasının qarşısını almaq, günahkarları məsuliyyətə cəlb etmək və belə hərəkətlərə haqq qazandırmaqdan çəkindirmək üçün təcili tədbirlər görməyə çağırıb.

### Vandalizmə qarşı bütün dinlər həmrəy olmalıdır

Quranın yandırılması təkcə İslam dininə qarşı həqarət sayılmamalıdır. Xristianlar, yəhudilər də bu həssas məsələyə laqeyd yanaşmamalı, vəhşiliyə biganə qalmamalıdır. Axı "Qurani-Kərim" özündən əvvəlki səmavi kitablarda adları keçən müqəddəsləri məhz müqəddəs şəxslər kimi təqdim edən Tanrı kəlamıdır. Azərbaycanda söz azadlığı, inanc sərbəstliyi qanunvericiliklə tənzimlənib. Konstitusiyanın 25-ci maddəsinin üçüncü bəndinə əsasən, dövlət irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Və bütün bu azadlıqların qorunmasına Azərbaycan hökuməti təminat verir. Radikallara, vandallara, terrorçulara qucaq açmış İsveçdən fərqli olaraq...

Dörd səmavi kitabın hər birində tək Tanrıdan bəhs edilir, elçiləri vasitəsilə insanlara Onun Sözü çatdırılır. Bu Sözə kibrit çaxanın əxlaqı Tanrıya daş atanın dərrakəsi ilə düz mütənasibdir. Hər ikisi mütləq günahlarının cəzasını çəkəcək...

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi



**Fikrət SADIXOV, politoloq**

Quranı yandıranların arxasında müəyyən qüvvələrin dayanmadığına inanmıram. Görünür, bu qüvvələr Avropa dövlətlərinin İslam ölkələri ilə münasibətlərinin gərginləşməsində maraqlıdırlar. Əslində, belə hərəkətlərə hökumət yol verməməlidir. Avropanın bəzi liderləri insan haqlarının qorunmasını belə başa düşürlər. Yəni, Quranı yandırmaq, guya, həmin adamın özəl hüququdur və hökumət orqanları buna lazımi şəraiti yaratmalıdır. Amma zaman göstərir ki, bu cür yanaşmalar onların özlərinə zərbə vurur. Yəqin onlar vaxtilə İsveçin Baş naziri Ulof Palmenin terrorçular tərəfindən öldürüldüyünü unudublar. Avropa ölkələri üçün buna bənzər faktlar az deyil. Müsəlman dövlətlərin rəsmiləri, eləcə də ictimai dairələr bu akta öz cavablarını verirlər.

Türkiyə yeganə dövlətdir ki, belə hallara dərhal və çox ciddi şəkildə reaksiya verir. Yadımızdadır ki, Finlandiya və İsveç NATO-ya üzvlük məsələsində Ankaranın etirazı ilə üzləşdilər. Helsinki bununla bağlı yalnız konkret addımlar atandan sonra Türkiyə buna etiraz etmədi. İsveç də bu mövqeyə yaxın idi. Fəqət, görünür, bu məqam kimlərisə qıcıqlandırır.

Reallıq ondan ibarətdir ki, belə halların təkrarlanması dünyada hansısa radikal təmayüllü qüvvələrin daha da azğınlaşmasına səbəb olacaq. Əgər Avropanın başbilənləri buna ciddi reaksiya verməsələr, eləcə də müsəlman dövlətlərin rəsmiləri konkret mövqe ortaya qoymasalar, bu ənənə genişlənə bilər. Avropa ölkələri ilə İslam dünyası arasında münasibətlər gərginləşə və həmin avropalılar üçün pis nəticələrə gətirib çıxara bilər. Onlar bunu yaddan çıxarmamalıdırlar.

# Makronun ermənifəşanlığı hayların özlərindən də betərdir

## Fransanın Azərbaycandakı səfirliyi məsələyə aydınlıq gətirəcəkmi?

**Ötən aya damğasını vuran hadisələrdən biri də Fransada yaşandı. Yox, bu ölkəni cənginə alan iğtişaşları, kütləvi itaətsizlik təsiri bağışlayan olayları və polisin nümayişçilərə, aksiyaları işıqlandıran jurnalistlərə qarşı qəddar rəftarını nəzərdə tutmuruq. Söhbət Fransanın erməni təəssübünün pik həddə çatmasından gedir.**



Bu barədə söz açmazdan öncə bildirək ki, məşhur ABŞ yazıçısı Teodor Drayzerin əsərlərinin, demək olar, hamısında süjet xətti eynidir. Təxminən belə: qəhrəman yüksəkliyə çıxır, oradan, necə deyərlər, kəlləmayallaq yumbalanır aşağı. Bu süjet xəttini Fransa ermənipərəstliyinə tətbiq etsək, Prezident Emmanuel Makron fikirləri ilə ölkəsindəki ermənipərəstliyin yüksəklikdən yıxılıb başını-gözünü əzdiyini təsdiqlədi. Bu barədə bir qədər sonra söz açacağıq. Hələlik isə...

***

Qeyd edək ki, iyunun 30-da Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb. Səfirə Prezident E.Makronun Marsel şəhərində erməni icması ilə görüşdə Azərbaycan əleyhinə səsləndirdiyi, Ermənistanı birtərəfli qaydada müdafiə edən, həqiqəti əks etdirməyən fikirləri ilə bağlı Fransa tərəfinə etiraz edilib və məsələyə dair izahat istənilib. Eyni zamanda, səfirə bildirilib ki, dəfələrlə anti-Azərbaycan bəyanatları ilə yadda qalan E.Makronun yenidən qərəzli fikirlər səsləndirməsi, Fransa Prezidentinin ölkədəki erməni lobbisinin əlində alət olduğunun, müharibə və müharibədən sonrakı dövrdə öz məqsədlərinə nail ola bilmədiyinin bariz nümunəsidir.

Ən əsası isə vurğulanıb ki, Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi və Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi kimi tanınması fonunda, Fransa dövlət başçısına istinadən yayılmış bu kimi qərəzli bəyanatlar bölgədə sülhün və əmin-amanlığın bərqərar olmasına əngəl yaratmaqla yanaşı, separatçılıq və terrorçuluğu təşviq edənlərin və dəstəkləyənlərin destruktiv fəaliyyətlərini daha da genişləndirməsinə rəvac verir.

***

İndi isə keçək əsl məsələyə, yəni, Fransanın Bakıdakı səfirinin nə üçün Azərbaycan XİN-ə çağrıldığının təfərrüatına. Mövcud xüsusda Fransa ermənipərəstliyinin iflasındakı məqamlara da aydınlıq gətirmiş olacağıq. Bəli, Makron Marseldə erməni icmasının nümayəndələri ilə görüşündə erməni maraqlarının qorunması ilə bağlı gücsüzlüyünü etiraf edib. Nəinki etiraf edib, eyni zamanda, həm beynəlxalq şəraitin Azərbaycana təsir göstərmək imkanında olmadığını bildirib, həm də Ermənistanın baş naziri Nikol Paşinyanı, belə demək mümkünsə, “günah keçisi” obrazında təqdim edib.

Makron elə fon yaradıb ki, sanki problemin tənzimlənməsində Ermənistanın tərəfini saxlayan yalnız özüdür. Məsələyə dair məlumatı yayan isə Daşnaksütyun partiyası mərkəzi komitəsinin nümayəndəsi Qraç Varjapetyandır. Açıqlamasında Fransa liderinin fikirlərini dəfələrlə təkrarlayan Varjapetyan deyib ki, görüş qeyri-rəsmi xarakter daşıdığından, orada qeydiyyat aparılmayıb. Belədə sual yaranır: Fransa Prezidentinin dilindən daşnakın diqqətə çatdırdıqları çıxıb, yoxsa ikinci fantaziyasını işə salıb? İndi Parisin Bakıdakı ali nümayəndəliyi bu suala cavab verməlidir. Cavabdan isə hələlik əsər-əlamət yoxdur.

Onu da bildirək ki, Yelisey sarayı hazırda çətin durumdadır. Rəsmi açıqlama verib daşnakın dediklərinin yalan olduğunu bildirsə, Fransadakı ermənilərin qəzəbinə tuş gələcək. Əlbəttə, demək olmaz ki, Varjapetyan cəfəngiyyat danışa bilməz. Digər tərəfdən, Makron da dövlət başçısı kimi o qədər korrekt adam deyil. İndiyədək lazım olmayan çox yerdə mətləbsiz fikirlər səsləndirməsi ilə gündəmə gəlib. Üstəlik, mövzu da spesifikdir. Yəni, Fransa Prezidentinin özünü ölkəsindəki ermənilərə, necə deyərlər, şirin satmaq istəməsi də mümkündür.

Bəli, rəsmi Paris Varjapetyanın dediklərini təkzib etmədiyindən, bildirə bilərik ki, onun gündəmə gətirdiyi fikirlərin müəllifi elə Makrondur. Makron isə Marseldə erməni icmasının nümayəndələri ilə görüşündə bildirib ki, Qarabağ məsələsində yeganə dəqiq mövqeyə malik şəxs özüdür. Hadisə isə belə olub: erməni icmasının nümayəndələri Fransa liderinin diqqətinə Parisin erməni məsələsində qətiyyətli mövqe tutmadığını çatdırıblar. Yeri gəlmişkən, bu fikir Ermənistanın siyasi dairələrində də geniş yayılıb. Mövcud xüsusda dəfələrlə bildirilib ki, Fransa yalnız sözdə dəstək göstərir, əməldə isə hansısa real kömək yoxdur.

O da məlumdur ki, Parisin sözdə dəstəyin ifadəsi sayılan ermənipərəst bəyanatları, çağırışları, ərsəyə gətirdiyi qətnamələr rəsmi İrəvanın illüziyalara qapılmasına səbəb olur. Bunun nəticəsində reallaşdırılan hər hansı davranış Ermənistan üçün baha başa gəlir, Azərbaycanın əks tədbirlərinin miqyası böyük olur. Deməli, Fransanın erməni maraqlarına zərər vurur.

Görünür, N.Paşinyan da Makronun “qətnamə dəstəyi” siyasi texnologiyasının səmərəsizliyindən duyuq düşdüyündən, indi “böyük bacısını” eşitmək istəmir. Ona görə ikincinin erməni icmasının nümayəndələrinin yuxarıdakı sualına cavabı kifayət qədər gözlənilməz alınıb. Beləliklə, Varjapetyana inansaq, Fransa Prezidenti konkret olaraq bunu deyib: “Mən Əliyevə (Azərbaycan Prezidenti İlham Əliyev – red.) Paşinyanın özündən daha çox təzyiq etdim. Sual Paşinyana olmalıdır. Qarabağ məsələsi ilə bağlı dəqiq mövqeyə malik olan yeganə şəxs mənəm”.

Daşnak Q.Varjapetyan da Makronun sözügedən görüşdə səsləndirdiyi və Qarabağ məsələsində daha çox işlər görəcəyinə, səylər göstərəcəyinə dair fikirlərinə şübhə ilə yanaşmaqda haqlıdır. Diqqətə çatdırdıq ki, Fransa lideri bu mövzuda beynəlxalq arenada, xüsusən də Avropa İttifaqı daxilində tək qaldığını vurğulayıb. Amma görünür, avantürist Makron özünü Fransa cəngavəri qismində görür. Çünki Varjapetyan deyir ki, Fransanın dövlət başçısı Qarabağ probleminə müdaxilədə qərarlı olduğunu da dilə gətirib. Bundan bir neçə nəticə çıxarmaq mümkündür. Makronun bəyanatları rəsmi şəkildə qeydə alınmayıbsa, deməli, o da faktiki olaraq daşnakların başının altına yastıq qoymaqla məşğuldur. İkincisi, Fransa özünü aşkar tərəf kimi göstərir. Deməli, ölkənin Azərbaycan-Ermənistan münasibətlərinin nizamlamasının Qərb formatına dürtülmək cəhdləri tam yolverilməzdir.

Bu yerdə Azərbaycan Prezidenti İlham Əliyevin fikirlərini xatırlayırıq. Dövlətimizin başçısı Ermənistan rəhbərliyinə və ermənipərəstlərə dəfələrlə bildirib ki, hansısa beynəlxalq dəstəyə ümid etməsinlər, heç nə alınmayacaq. İndi belə çıxır ki, cənab İlham Əliyevin mesajını, hətta Paşinyan da anlayıb, ancaq Makron yox. Ya anlamayıb, ya da bildirdiyimiz kimi, o da erməniləri aldatmaqla məşğuldur.

*Ə.RÜSTƏMOV, “Xalq qəzeti”*

# Ermənistan Azərbaycana qarşı ekoloji terroru davam etdirir

## Bu ölkə Araz çayını fəlakət qurbanına çevirib

**Ermənistan Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgədə və Türkiyə ilə sərhədə çox yaxın ərazidə– Arazdəyən kəndində ABŞ sərmayəsi ilə iri metallurgiya zavodu inşa etməyə hazırlaşır. Müəssisənin tikintisinin geniş coğrafiyada ətraf mühitin, ekosistemin pozulmasına, havanın zəhərli tullantılarla çirklənməsinə gətirib çıxaracağı gözlənilir. Bununla da Naxçıvan, o cümlədən Sədərək əhalisinin ciddi təhlükə ilə üzləşəcəyi bildirilir.**



Bu günlərdə Ermənistanın Hetq.am saytında yerləşdirilən “Ermənistan Arazdəyəndə iri metallurgiya zavodu tikəcək” sərlövhəli məqalədə deyilir: “Arazdəyən kəndində böyük bir Ermənistan–Amerika birgə metallurgiya zavodu tikilir. Bu müəssisəyə 70 milyon dollar sərmayə qoyulacaq. Hündürlüyü 30 metr, sahəsi 16 min 500 kvadratmetr olan binada yerləşəcək zavod ildə 180 min ton məhsul istehsal edəcək. Müəssisənin tikintisinə artıq 200 nəfər cəlb olunub və işə salındıqdan sonra işçilərin sayı min nəfərə çatacaq”.

Heq.am saytı daha sonra xatırladır ki, bu zavodun tikiləcəyi barədə hələ 2022-ci ilin noyabrında yazıb və müəssisəni inşa edəcək şirkətin həmin ilin iyulunda təsis olunduğunu bildirib. Sayt, həmçinin hüquqi şəxslərin dövlət reyestrinə əsaslanaraq şirkətin 50 faizinin hazırda ABŞ-da qeydiyyatdan keçmiş” CS Global Investments MMC”yə, qalan 50 faizinin isə yenidən ABŞ-da “Virtual Funding” MMC-yə məxsusluğunu vurğulayıb. Şirkətin səhmdarı ABŞ vətəndaşı Bobbi Kanqdır. İkinci səhmdar isə Ermənistanda yaşayan Qriqor Ter-Qazaryandır.

Məlumata görə, ərazi sərhəd zolağında–Naxçıvanla sərhəddən 800 metr aralıda yerləşir. Yaxınlıqda flora və fauna, münbit torpaq qatı, tarixi abidələr və mühafizə olunan təbiət əraziləri yoxdur.

“Biz faktiki olaraq xaricə metal qırıntılarını tonunu 40-45 min dram qiymətinə satır, hazır məhsulu isə 9-10 dəfə baha alırıq. Ona görə də ölkənin özünün təkrar xammaldan istifadəsini inkişaf etdirmək lazımdır ki, bu da əlavə iş yerlərinin açılmasına, büdcəyə birbaşa və dolayı yolla daxilolmaların artmasına, rəqabət səbəbindən yerli bazarda bu məhsulların qiymətlərinin aşağı düşməsinə səbəb olacaq”,–deyə Qriqor Ter-Qazaryanın fikirlərini diqqətə çatdırır. Eyni zamanda, “zavod üçün xammal əsasən, metal qırıntılarının qəbulu məntəqələrindən alınan qara metal qırıntıları olacaq”, -məqalədə deyilir.

Qeyd edək ki, Heq.am saytının tikiləsək müəssisənin ətraf mühitə heç bir zərər verməyəcəyi barədə qeydləri həqiqətdən uzaq fikirdir. Əslində isə mütəxəssislərin fikrincə, ərazidə zavodun inşası sərhəddə yerləşən Sədərəkdə mal-qaranın və əkinlərin məhvinə, insanların ciddi xəstəliklərlə üzləşməsinə gətirib çıxara bilər. Çünki təsərrüfatlarda Ermənistandan gələn “Şir arxı”nın suyundan istifadə edilir.

Mütəxəssislər həmçinin bildirirlər ki, Finlandiyanın Espo şəhərində imzalanmış “Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya”nın şərtlərinə görə, konvensiya tərəfi öz ölkə ərazisində planlaşdırdığı iri təsərrüfat fəaliyyətinin digər ölkələrin ərazisinə mənfi ekoloji təsiri ola bilərsə, bu fəaliyyət həmin ölkənin müvafiq qurumları ilə razılaşdırılmalı, ətraf mühitə təsirinin qiymətləndirilməsi ilə bağlı sənəd hazırlanmalıdır. Azərbaycan və Ermənistan həmin Konvensiyanın tərəfləridir. Hazırlanan qiymətləndirmə sənədinə yalnız Ermənistan deyil, eyni zamanda, Azərbaycanın müvafiq qurumları baxmalı, bölgəyə yaxın yaşayan azərbaycanlılarla da ictimai dinləmələr keçirilməlidir.

Xatırladaq ki, ermənilər Araz çayını ekoloji fəlakət qurbanına çeviriblər. Araz çayı, sözün əsl mənasında, Ermənistanın dağ-mədən sənayesi müəssisələrinin kollektoruna çevrilib. Araşdırmalar göstərir ki, hər il Ermənistan ərazisindən keçən 350 milyon kubmetr su kimyəvi maddələrlə çirkləndirilir.

Bundan əlavə faktlar göstərir ki, Ermənistan təkcə Azərbaycan üçün deyil, ümumilikdə region və dünya üçün təhlükəlidir. Söhbət artıq 40 ildən çoxdur ki, istifadə edilən və istismar müddətini çoxdan başa vuran Metsamor AES-dən gedir.

*“Xalq qəzeti”*

*“Amansız müstəmləkə əsarətindən qurtulmaq üçün başlanılan azadlıq və müstəqillik mübarizəsi Əlcəzair xalqının böyük şücaətinin, birliyinin, sarsılmaz iradəsinin və qətiyyətinin rəmzi kimi Əlcəzairin tarixinə əbədi olaraq həkk olunmuşdur”.*

**Prezident İlham Əliyevin Əlcəzairin paytaxtındakı Milli Mücahidlər Muzeyinin xatirə kitabına yazdığı ürək sözlərindən.
Əlcəzair şəhəri, 1 noyabr 2022-ci il.**

# Azadlıq uğrunda ən çox şəhid verən ölkə



**Son günlər Fransa dövlətinin öz ölkəsində vətəndaşlarına qarşı törətdiyi amansızlıqlar dünya ictimaiyyətinin diqqətindən yayınmır. Bəzi ekspertlər yazırlar ki, rəsmi Paris fransız xalqının əsrlərdən bəri qazandığı hörmət və nüfuzun üstündən xətt çəkir. Bəziləri isə deyirlər ki, Fransa öz əhalisinə bu zülmləri edirsə, onda görəsən 132 il müstəmləkədə saxladığı Əlcəzair xalqına nə divan tutub?**

Ancaq tarix həmişə zalımın tərəfində olmur. Fakt ondan ibarətdir ki, Emmanuel Makronun ölkə rəhbərliyinə gəlməsindən sonra “bəşər tarixinə bir çox yeniliklər gətirmiş” Fransa həm siyasi, iqtisadi, sosial cəhətdən, həm də beynəlxalq aləmdəki reytinqinə, nüfuzuna görə gündən-günə geriləyir. Onun 132 il işğalda saxlayaraq istismar etdiyi, qan uddurduğu, zülm və işgəncələr verdiyi Əlcəzair isə bu gün inkişaf edir, özünün tərəqqiyə doğru atdığı addımlarını daha da qətiləşdirir. Təsadüfi deyil ki, politoloq və konfliktoloqların fikrincə, Əlcəzair bu gün beynəlxalq və regional xarakterli bir sıra məsələlərin, hətta, layihələrin həllində vacib rol alır. Fransanın əli isə Cənubi Qafqazda durulmaqda olan suları yenidən bulandırmaqdan başqa heç nəyə çatmır.

Bu gün Azərbaycanın Qarabağ iqtisadi rayonunda məskunlaşmış separatçı, terrorçu, təxribatçı, quldur tör-töküntülərinin müdafiəsinə hətta Ermənistanın baş nazirindən də çox çalışan Makronun nəzərinə dəfələrlə çatdırılıb ki, sənin dövlətinin dünyanın müxtəlif ölkələrində törətdiyi vəhşiliklər Parisin hansı münaqişədəsə vasitəçilik etmək istəyini tamamilə mümkünsüz edir.

O qədər də uzaq tarix olmadığına görə hamı bilir ki, fransızlar 1830-1962-ci illəri əhatə edən işğal dövründə – azadlıq mücadiləsinə qalxmış 1,5 milyondan artıq insanı amansızcasına qətlə yetiriblər. Buna görə də Əlcəzair “1,5 milyon şəhid vermiş ölkə” adlandırılır. Ümumilikdə isə Fransa ordusu bu ölkədə mövcud olduğu illərdə 10 milyona yaxın əlcəzairlini öldürmüşdür.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 1-də Ərəb Dövlətləri Liqasının 31-ci Sammitinə ev sahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikasının Prezidentinin dəvəti ilə həmin toplantıda Fəxri qonaq statusunda iştirak etmək üçün bu ölkəyə səfərə getmişdi.

Dövlət başçımız səfər çərçivəsində ölkə paytaxtındakı Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət etmiş və muzeyin xatirə kitabına yazmışdı ki, Milli Mücahidlər Muzeyi Əlcəzair xalqının şanlı tarixinin ən faciəli və eyni zamanda, ən qürurverici səhifələrindən birini özündə əks etdirən mühüm kompleksdir: “Bu muzey Əlcəzair xalqına qarşı misli görünməmiş qəddarlıqla və şiddətlə həyata keçirilən müstəmləkə siyasətinin, müharibə və insanlıq əleyhinə cinayətlərin, müstəmləkəçi qüvvələrə qarşı ümumxalq mübarizəsinin və bir milyon yarım şəhidin canı bahasına qazanılmış müstəqillik qələbəsinin yaddaşlarda qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi baxımından müstəsna əhəmiyyət kəsb edir”.

Onu da əlavə edək ki, Ərəb Dövlətləri Liqası Sammitinin noyabrın 1-ə planlaşdırılması da təsadüfi deyildi. Çünki Əlcəzair xalqı Fransa müstəmləkəsindən qurtulmaq üçün məhz həmin gün Azadlıq müharibəsinə başlamışdı. O gün ölkədə başlayan inqilab 1962-ci il iyulun 3-də müstəqilliyin əldə edilməsi ilə başa çatmışdır.

Başqa bir fakt isə ondan ibarətdir ki, Azərbaycan Prezidenti İlham Əliyev həmin tarixi səfəri ərəfəsində Əlcəzair Prezidenti Abdelmacid Tebbuna göndərdiyi təbrik məktubunda yazırdı ki, 1 noyabr 1954-cü ildə Əlcəzair xalqı müstəmləkəçilik siyasətinə qarşı azadlıq mübarizəsinə başlamışdır: “Müstəmləkəçi qüvvələrin xalqınıza qarşı törətdiyi misli görünməmiş şiddətinə, zorakı əməllərinə və müharibə cinayətlərinə baxmayaraq, Əlcəzair xalqının müstəqillik əzmi sarsılmamış, əksinə, milli birlik və həmrəylik daha da güclənmişdir.”

Bizi “Əlcəzairin həmdərdi” adlandıran həmkarlarımız da olmuşdur. Bəlkə də bu ifadə tam yerinə düşmür. Ancaq Əlcəzairin də, Azərbaycanın da ərazisinin işğal edildiyi, hər ikisində fransız maraqlarının olması danılmaz faktdır. Mütəxəssislərin fikrincə, Fransanın Əlcəzairdə apardığı siyasətlə Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Qarabağ bölgəsində apardığı siyasət oxşardır. Ancaq kiçik də olsa, fərq var. Fransızlar uzun illər yerli əhalini qırmış, ermənilər isə yerli sakinləri öldürdükdən, qovduqdan sonra işğal edilmiş ərazilərdə bəşər tarixinin heç bir mərhələsində rast gəlinməyən barbarlıq, vandalizm, qarət və talan törətmişlər. İndi Fransa prezidenti məhz həmin qaniçən vəhşiləri dəstəkləyir.

Əlcəzairlə Azərbaycanı bir-birinə bağlayan çoxsaylı tellər ölkəmizin Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə daha da möhkəmlənmişdir. Dost ölkənin Prezidenti Abdelkader Bensalahın 2019-cu il oktyabrın 25-26-da Qoşulmama Hərəkatının 18-ci Zirvə görüşündə iştirak etmək məqsədilə Azərbaycana səfər etməsini də hər iki ölkədə hamı məmnunluqla xatırlayır.

Sonda qeyd edək ki, Azərbaycan – Əlcəzair dostluq və tərəfdaşlıq münasibətlərinin gündən-günə genişlənməsi də günümüzün reallığıdır, Fransanın öz tarixi nüfuzunu itirməsi də. Yəni hərə öz əkdiyini biçir.

*İttifaq MİRZƏBƏYLİ, “Xalq qəzeti”*

# Ordumuzun Ağdamdakı mövqeləri atəşə tutulub

**İyulun 3-ü saat 10:40-dan saat 11:40-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Ordumuzun Ağdam rayonu istiqamətindəki mövqelərini atıcı silahlardan bir neçə dəfə atəşə tutub.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

Bundan başqa, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Bölmələrimizin gördüyü təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

*“Xalq qəzeti”*



# Heydər Əliyev dərsləri

**(əvvəli "Xalq qəzeti"nin 2023-cü il 7, 13, 15, 17 may, 24 və 26 iyun nömrələrində)**

## "Bu işlərlə biz özümüz məşğul olacağıq"

**SSRİ dövründə ermənilər Kəlbəcərdəki qızıl mədənlərini oğurluq yolu ilə istismar etmək istəmişlər. Bundan xəbər tutan Heydər Əliyev mənfur qonşuların bu niyyətinin qarşısını almışdır. Bu barədə ulu öndər Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 4-cü ildönümü ilə əlaqədar Nərimanov rayonundakı yataqxanada məskunlaşmış Kəlbəcər məcburi köçkünləri ilə görüşdəki çıxışında ətraflı söhbət açmışdır:**

– Kəlbəcərdə zəngin qızıl yataqları var. Təəssüf ki, keçmiş illərdə, yəni 50-ci illərdə bu qızıl yataqlarının axtarılması, qızılın çıxarılması ilə məşğul olmamışdılar. Bu da həmin dövrdə Azərbaycan rəhbərlərinin fərasətsizliyinin, ağılsızlığının, o vaxtlar Azərbaycanda iş başında olan ermənilərin xəyanətinin nəticəsi idi. Kəlbəcər rayonundakı qızıl yataqları, guya, perspektivli deyildi və onların istismarı iqtisadi cəhətdən səmərəli hesab edilmirdi. Ancaq siz kəlbəcərlilər yaxşı bilirsiniz ki, Ermənistanın Cermuk rayonu ilə bizim Kəlbəcər rayonu arasındakı dağın o tərəfində ermənilər hələ 50-ci illərdən Zod yatağını istismar edir, oradan qızıl çıxarırlar. Sonra onlar tunel açaraq Azərbaycana aid yataqdan– bizim ərazidən qızıl çıxarmağa başlamışdılar. Bu, təxminən 70-ci illərin sonlarında idi. Həqiqət naminə deməliyəm ki, bu barədə ilk dəfə o vaxt Kəlbəcərdə Rayon Partiya Komitəsinin birinci katibi işləmiş İnqilab Nadirov mənə böyük həyəcanla məlumat verdi. Mən böyük bir komissiya təşkil edib oraya göndərdim, Moskvaya müraciət etdim. Bu sahəyə baxan nazir Lomakonu Azərbaycana dəvət etdim, ciddi danışıqlar apardım, Ermənistanın Zod qızıl mədəninin Azərbaycanda gördüyü işlərin qarşısını aldım. Bildirdim ki, bu işlərlə biz özümüz məşğul olacağıq. O vaxt mütəxəssislərimizi çağırdım. Onlardan soruşdum ki, nə üçün dağın o tərəfində Ermənistan 20 ildir qızıl çıxarmaqla məşğuldur, amma siz dağın bu tərəfindəki yatağı bağlamısınız ki, bu yatağın istismarının gələcəyi və böyük əhəmiyyəti yoxdur? Bax, həyatımızda belə günahlar və səhvlər də olmuşdur. O vaxt mən bunun qarşısını aldım. Kəlbəcərdə, Azərbaycanda qızıl mədənlərinin yaranması haqqında lazımi tədbirlər gördüm. Lakin sonra mən Moskvaya getdim. Daha sonra başıma gələn işləri siz bilirsiniz. Bu məsələ sonra öz həllini tapa bilmədi.

## "Bildirdim ki, respublikada rüşvətxorluq var"

**Sovetlər Birliyində rüşvətxorluq mövcud olsa da sovet ideologiyasına müvafiq olaraq bu barədə heç kim ucadan danışa bilməzdi. 1995-ci ildə Brüsseldə soydaşlarımızla görüşdə ümummilli lider bu sindromu ilk dəfə necə sındırdığı barədə geniş məlumat vermişdi.**

– Bəli, rüşvətxorluq var idi. Ancaq bunu adamlar yalnız bir-biri arasında deyirdilər. Heç bir rəhbər işçi demirdi ki, bizim cəmiyyətdə rüşvətxorluq var. Fikirləşirdilər ki, bunu desək, kapitalistlər bundan istifadə edəcək, ölkəmizi hörmətdən salacaq, imicini korlayacaqlar. Mən Azərbaycana rəhbər seçiləndən bir ay sonra böyük bir məruzə etdim. Həmin məruzəmdə Azərbaycandakı rüşvətxorluq haqqında açıqca danışdım. Bildirdim ki, respublikada rüşvətxorluq var və bununla mübarizə aparmaq lazımdır. Vəzifəli adamlar vəzifələrindən öz şəxsi məqsədləri üçün istifadə edirlər və sair. Bütün xarici radiostansiyalar – "Azadlıq", "Amerikanın səsi" və başqaları mənim fikirlərimi bir ay təkrar etdilər və dedilər ki, Azərbaycanda böyük bir inqilab əmələ gəlib, nə olub? Yeni bir rəhbər gəlib açıqca deyir ki, respublikada rüşvətxorluq var. Onlar da bundan istifadə etdilər. Sovetlər İttifaqının o vaxtkı başçısı Leonid Brejnev təxminən bir aydan sonra mənə telefonla zəng etdi, dedi ki, sən orada nə edirsən? Soruşdum ki, nə barədə? Dedi ki, xarici qəzetlər, radiostansiyalar Azərbaycandan çox şeylər yazırlar. Yazırlar ki, sən orada adamları həbs edirsən. Cavab verdim ki, bəli, bəzi adamları həbs etmişik. Soruşdu ki, nəyə görə? Dedim ki, onlar rüşvət alıblar, ona görə də həbs olunublar. Soruşdu ki, bəs belə şeylər danışmısan? Dedim ki, bəli, danışmışam. Mən ondan soruşdum ki, siz bunları haradan bilirsiniz? Dedi ki, həmin xarici qəzetlərin, radiostansiyaların materiallarının xülasəsini mənə veriblər, oradan bilirəm. Soruşdum ki, bəs öz işçiləriniz bu barədə Sizə məlumat verməyiblər? Axı mən belə addım atarkən onlar bunu bilirdilər. Dedi ki, yox, onlar mənə heç nə deməyiblər. Mən bu barədə ona telefonda təxminən 45 dəqiqə ətraflı danışdım. Axırda o dedi ki, düz etmisən. Bundan bir il sonra ilk dəfə Moskvada Kommunist Partiyasının qurultayında Brejnev öz məruzəsində dedi ki, bizim cəmiyyətdə rüşvətxorluq var və onunla mübarizə aparmaq lazımdır.

## "Mənim boğazımdan tutmuşdular"

**Ulu öndər ölkədə də mühüm tikintilərin təşəbbüskarı olmuşdur. O, bu sahədə öz ideyalarını hərtərəfli əsaslandıraraq layihələri gerçəkləşdirməyə nail olurdu. Ulu öndər Şəmkir su elektrik stansiyasının fəaliyyəti ilə tanışlıq zamanı çıxışında bu məsələyə toxunmuşdu:**

– Mən vaxtilə Şəmkir Su Elektrik Stansiyasını yaratdım, yaxud Yenikənd Su Elektrik Stansiyasının əsasını qoydum. Başqa tikintilər də var. Mən bayaq dedim, biz Mingəçevir Su Elektrik Stansiyasında 8 blok qurmuşuq. Həmin blokların hər biri 300 meqavat enerji verir. Biz o vaxt birinci bloku quranda mən oraya getdim. Bu, böyük bir hadisə idi. O dövrdə bizimlə nə qədər mübarizə aparırdılar ki, burada su elektrik stansiyaları yaratmaq olmaz.

Tarixdir, fürsət düşüb, bir məsələni də bildirmək istəyirəm. Özü də bura gözəl yerdir, mənim də kefim bir az açılıb. Hətta mənim doğma böyük qardaşım Həsən Əliyev akademik idi… O, Azərbaycan ekologiyasının birinci müdafiəçisi, Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin başçısı idi, həqiqətən də, respublikamızın təbiətini çox gözəl bilirdi, necə deyərlər, canını buna – həm meşələrə, həm sulara, həm torpağa – hamısına sərf etmişdi. Həsən Əliyev bunları eşidib mənim yanıma gəldi ki, sən nə edirsən, bunu belə etmək olmaz, bu stansiyalar havanı çirkləndirəcək, filan edəcək. Dedim ki, a kişi, bəs bizə elektrik enerjisi lazımdır. Dedi ki, qoy elektrik enerjisini ruslar versinlər. Bildirdim ki, ruslar elektrik enerjisi verirlər, amma mən istəyirəm bizim özümüzünkü olsun. Mən istəmirəm ki, həmişə onlara ümidli olaq. Bizim bir neçə dəfə belə söhbətimiz oldu. Hətta bir dəfə böyük bir iclasda mənim əleyhimə çıxış etdi. Hamı məəttəl qaldı ki, Azərbaycanın rəhbəri, Mərkəzi Komitənin birinci katibi iclas aparır, böyük qardaşı da durub onu tənqid edir. Hava məsələsindən sonra dedilər ki, Mingəçevir gölündən götürülən su elektrik stansiyasında dövr edib su kanalına veriləndə həmin suyun temperaturu iki dərəcə artacaq. Temperaturu iki dərəcə artan həmin su kanal vasitəsilə tarlalara gedəcək və pambığa zərər verəcəkdir. Bu yadınızdadır?

**Müslüm İmanov:** Bəli. O vaxt bizi Özbəkistana göndərdiniz. Gedib gördük ki, orada da belə bir stansiya var, oradan çıxan suyu tarlalara verirlər.

**Heydər Əliyev:** Bəli, gəlib bunu mənə dedilər. Mənim boğazımdan tutmuşdular ki, bunu etmə. Amma mən heç bir şeyə baxmadım. Yenə də deyirəm, hətta böyük qardaşımın da – mən ona çox böyük hörmət edirdim. O, çox böyük alim idi – sözünə baxmadım. Biz həmin stansiyaları tikməyə başladıq. İndi təsəvvür edin, orada 8 blok var, onlar 2400 meqavat enerji verir. Yəni, bütövlükdə, Azərbaycanda istehsal edilən 5000 meqavat elektrik enerjisinin yarısını onlar verir. Başa düşürsünüz, əgər bu olmasaydı, indi Azərbaycan nə gündə idi? Əgər Şəmkir Su Elektrik Stansiyası – bu, 380 meqavat enerji verir – olmasaydı, indi Azərbaycan nə gündə idi.

## "Bəlkə də Allahın işiydi"

**Stansiya ilə tanışlıqdan sonra Prezident vaxtilə Azərbaycanda atom elektrik stansiyasının bünövrəsinin qoyulduğunu, lakin tikintisinin baş tutmamasını belə izah etmişdi:**

– Biz burada belə stansiya tikməyi planlaşdırırdıq, hətta yerini də müəyyən etmişdik – Duvannının yanında. Orada bir az işlər də apardıq. Hətta o vaxt bunu bizə vermirdilər. Xatirinizdədir ki, Gürcüstan hətta gətirib Mingəçevirin yaxınlığında, yuxarıda, sərhəddə bir atom elektrik stansiyası tikmək istəyirdi. Biz buna etiraz etdik. Çünki belə çıxırdı ki, onlar bunu gətirib respublikamızın sərhədində tikmək istəyirdilər ki, tullantılar gəlib bizim əraziyə keçsin. Bizim Mingəçevir Su Anbarının zəhərlənməsi çox böyük təhlükə qarşısında idi. Yenə də deyirəm, biz buna etiraz etdik, çox çətinliklər çəkdik. Amma fikirləşdik ki, gərək biz də bir atom elektrik stansiyası tikək. Ona görə də bu barədə məsələ qaldırdıq. Bizə icazə vermirdilər. Mən sizə deyim ki, bu məsələdə bir az yarış oldu. Bir tərəfdən gürcülər, bir tərəfdən də biz məsələ qaldırdıq. Amma mən buna nail oldum ki, atom elektrik stansiyasının layihəsi hazırlandı. Duvannıdan aşağıda, Navahıda onun üçün yer ayrıldı. Mən Moskvada işləyəndə gürcülər gəlirdilər ki, kömək edin, bizim atom elektrik stansiyası tezliklə fəaliyyətə başlasın. Mən Energetika nazirinə bir-iki dəfə göstəriş də vermişdim. Amma sonra Çernobıl hadisəsi oldu. Gürcüstanın o vaxtkı birinci katibi Patiaşvili – o, prezident seçkilərində Eduard Şevardnadzeyə alternativ idi, prezident olmaq istəyirdi – mənim yanıma gəldi. Dedim ki, göstəriş verim, Gürcüstanda atom elektrik stansiyasının tikintisini gücləndirsinlər? Cavab verdi ki, yox, yox, lazım deyil. Həmin Çernobıl hadisəsindən sonra hamı atom elektrik stansiyası tikməkdən çəkindi. Bəlkə də Allahın işiydi, gərək belə olaydı ki, biz bu işə qarışmayaydıq. Çünki o vaxt hamını inandırırdılar ki, bu, çox təhlükəsizdir. Amma necə təhlükəli olduğunu, həm Ukraynanın, həm də Belarusun indiyədək bundan nə qədər əziyyət çəkdiyini, nə qədər insanın şikəst olduğunu görürsünüz.

## "Adıma heç nə vermək lazım deyil"

**Həmin tədbirdə ulu öndər jurnalistin "Şəmkir və Yenikənd Su Elektrik stansiyalarını Siz yaratmısınız. Amma bu silsiləyə Sizin adınızın verilməsinə nə üçün razı olmadınız?" –sualına belə cavab vermişdi:**

– Əzizim, bilirsən, bunu dəfələrlə demişəm – nə qədər ki, bu dünyada yaşayıram, mənim adıma heç nə vermək lazım deyil. Mən bunu istəmirəm. Məsələn, Milli Məclisdə o qədər məktublar var ki, Heydər Əliyevə Milli Qəhrəman adı verilsin. Mən demişəm ki, həmin məktubları arxivə qoyun. Birincisi, mən Azərbaycanın Prezidentiyəm, özüm-özümə mükafat verə bilmərəm. Çünki Milli Qəhrəman adı üçün gərək mən fərman verəm. Mən bunu edə bilmərəm. Ad vermək üçün də gərək mənim fərmanım olsun. Şəxsən mən fərman verməsəm də mənim idarəmdə olan adamlardan kimsə bunu etməlidir. İkincisi, bu mənim təbiətimə uyğun deyil. Bu dünyada heç kəs daimi deyil. Vaxt gələcək, mən də bu dünyanı tərk edəcəyəm. Əgər xeyirxah insanlar mən dünyadan gedəndən sonra da indiki kimi belə düşünsələr, onlar nə etsələr, mənim ondan xəbərim olmayacaq. Onlar bu barədə sərbəstdirlər.

**Jurnalist:** Amma xəbəriniz olsa yaxşıdır.

**Heydər Əliyev:** Bəlkə o dünyaya kimsə gəlib məlumat verdi.

**(ardı var)**

***Faiq SADIQOV,***
***Əməkdar jurnalist***

# Ulu öndərin fotoları haqqında sənədli film



**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş "Fotoları danışdı" adlı sənədli film "Xəzər" televiziyası vasitəsilə ictimaiyyətə təqdim edilib.**

Filmin ideya müəllifi və rejissoru beynəlxalq dərəcəli fotoqraf Fərqanə Qasımlıdır. "Xalq qəzeti"nə açıqlamasında Fərqanə xanım bildirdi ki, filmdə fotoqraf və və fotomüxbirlərin ulu öndər Heydər Əliyevlə bağlı xatirələri və çəkdikləri nadir fotolar aparıcı yer tutur. Rafael Qənbərov, Rafiq Bağırov, Şahvələd Eyvazov, Mirnaib Həsənoğlu, Dilavər Nəcəfov, Rasim Sadıqov və digər media mənsublarının təqdim etdikləri fotolar dahi rəhbərin xalq naminə misilsiz fəaliyyətinin ən müxtəlif məqamlarına işıq salır.

Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti olduğu 10 il ərzində onun rəsmi və qeyri-rəsmi fotolarını çəkən fotomüxbirin xatirələri tamaşaçını Heydər Əliyevin çoxşaxəli, qaynar fəaliyyəti ilə daha yaxından tanış edir. Film Ulu öndərin həm Naxçıvanda Ali Məclisin sədri, həm də Bakıda Ali Sovetin sədri və Prezident olduğu dövrlərdəki fəaliyyətini əks etdirən məşhur fotoları, onların tarixçəsini əhatə edir. Sənədli filmdə cəmiyyətə ilk dəfə təqdim edilən maraqlı arxiv fotoları da var. Çəkilişlərinin Azərbaycanda və Gürcüstanda aparıldığı "Fotoları danışdı" sənədli filmi Ümummilli liderin ölməz xatirəsinə layiqli töhfədir.

***Ə.ƏLİYEV,***
***"Xalq qəzeti"***

# Polşadakı səfirliyimizdə Ümummilli liderin büstü qoyulub

**Azərbaycanın Polşadakı səfirliyində Ulu öndərin büstünün açılışı mərasimi keçirilib.**



Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova qonaqlara Heydər Əliyevin həyat və fəaliyyəti haqqında məlumat verib, müstəqil Azərbaycanın yenidən qurulmasında Ümummilli liderin rolundan söhbət açıb.

Səfirin çıxışında Ümummilli liderin Polşa ilə əlaqələrin qurulmasındakı tarixi rolu qeyd olunub və Ulu öndərin 1997-ci ildə Polşaya, həmkarı Polşa Prezidenti Aleksandr Kvaşnevskinin 1999-cü ildə ölkəmizə səfərlərinin sonrakı strateji tərəfdaşlıq üçün yeni perspektivlər açdığı vurğulanıb.

Ağ mərmərdən hazırlanan büstün müəllifi tanınmış heykəltəraş Orxan Nəbizadədir.

Tədbir çərçivəsində Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Polşanın ən nüfuzlu mətbuat orqanı olan "Reçpospolita" qəzetinin xüsusi buraxılışı qonaqlara təqdim olunub.

***"Xalq qəzeti"***

# Bişkekdə yubiley nəşri



**Dünən Qırğızıstanın paytaxtı Bişkekdə Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə növbəti töhfə olaraq "44 günlük müqəddəs müharibənin xronologiyası" adlı 3 cildlik kitabın ikinci cildi işıq üzü görüb.**

Yüksək poliqrafik üslubda işıq üzü görən 504 səhifəlik bu kitab uzun illərdir Bişkekdə fəaliyyət göstərən Türkdilli Dövlətlərın Siyasətinə Dəstək Fondu tərəfindən hazırlanaraq çap edilib.

Qeyd edək ki, Orta Asiya regionunda Azərbaycan tarixinin, mədəniyyətinin və ədəbiyyatının tədqiqi və təbliği sahəsində səmərəli fəaliyyət göstərən bu fondun rəhbəri böyük vətənpərvər və xeyriyyəçi Nüsrət Məmmədovdur.

Kitabda 44 günlük müharibə ərzində müvafiq dövlət qurumları rəhbərlərinin keçirdikləri brifinqlər, görüşlər, müsahibələr xronoloji ardıcıllıqla cərəyan edir.

Kitabın rus dilində çap edilməsi ondan təkcə türkdilli dövlətlərində deyil, bütün postsovet məkanında istifadə imkanlarını genişləndirəcək. Onu da vurğulayaq ki, kitabın Bişkekdə nəşr edilməsi Ulu öndər Heydər Əliyevin təkcə Azərbaycanda deyil, həm də digər ölkələrdə sevilməsindən xəbər verir.

Fond öz ənənəsinə sadiq qalaraq geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş nəşr etdirdiyi bu kitabı da pulsuz yayacaq.

Xatırladaq ki, kitabın ilk təqdimatı fondun Ulu öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Bişkekdə nəşr etdirdiyi kitablarla birlikdə Şuşada Rusiyalı tanınmış kinorejissor Qriqori Naxapetovun müəllifi olduğu Ulu öndər Heydər Əliyevin anadan olmasının 100, dünyaşöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun anadan olmasının 95 illiyinə həsr edilən "Planetlə dialoq" adlı filmin premyerası zamanı nəzərdə tutulur.

***"Xalq qəzeti"***

# Makronsayağı demokratiya: etirazçılara qarşı zirehli maşınlar və helikopterlər



(əvvəli 1-ci səhifədə)

"Beşinci Respublika" bu ilin əvvəlindən – yanvarın 19-dan pensiya islahatı etirazları ilə də çalxalanır. Elizabet Börn hökumətinin pensiya yaşının 62-dən 64-ə qaldırılmasını təklif etməsi tətil və nümayiş dalğasının ölkəni bürüməsinə səbəb olub. Hətta nümayişlərdən əvvəl dövlət atom elektrik stansiyalarında tətil elan edilmişdi. Bu, Makronun pensiya yaşını artırmaq üçün ikinci cəhdidir. Birinci cəhd 2019-cu ildə edilib və "Sarı jiletlilər"in etirazları, həmçinin 1968-ci ildən bəri keçirilən ən uzun tətillər səbəbindən baş tutmayıb. Pandemiya dövründə isə islahatın həyata keçirilməsi ümumiyyətlə dayandırılıb. Pensiya islahatları ilə bağlı aylarla davam edən çoxminlik etiraz aksiyaları bitməyə macal tapmayıb, çünki ötən həftədən orada fərqli formatda iğtişaşlar başlayıb. Bunun 2005-ci ildən bəri ən böyük iğtişaşlar olduğu bildirilir. Etiraz hərəkatı Parisin 11 kilometrliyində yerləşən və təxminən 90 min nəfər əhalisi olan Nanter şəhərində başlayıb və digər şəhərlərə yayılıb. Səs-küy qumbaralarından, rezin güllələrdən və gözyaşardıcı qazdan istifadə edən polislə etirazçılar arasında toqquşma olub. İğtişaşlar zamanı avtomobillər və ictimai binalar yandırılıb. Daxili İşlər Nazirliyinin məlumatına görə, etirazçılar 4,5 mindən çox avtomobili yandırıb, minə yaxın binanı dağıdıblar. Ümumilikdə 3 minə yaxın adam saxlanılıb. İğtişaşlar getdikcə ölkənin daha çox şəhərini əhatə edir. Bəzi bölgələrdə komendant saatı tətbiq edilib. Axşam saat 9-dan sonra ölkədə ictimai nəqliyyatın hərəkəti qismən dayanır. Hakimiyyət pirotexniki vasitələrin və benzinin bankalarda satışına qadağa qoyub. Həftənin sonunda isə Makron nümayişçilərə qarşı təkcə polis xüsusi təyinatlılarından deyil, həm də zirehli texnikası olan helikopterlərdən istifadə edib.

## Nə baş verib?

İyunun 27-də səhər saatlarında motosikletdə patrul aparan polislər sənədləri yoxlamaq üçün "Mercedes" markalı avtomobili saxlayıblar. Sürücü və sərnişinlər yoxlamadan imtina ediblər. Adətən, sürücülər bu vəziyyətlərdə tez-tez qaçmağa çalışdığından, polislər silahlarla hazır vəziyyətdə maşının yanında dayanırlar. Sürücü tabe olmaq əvəzinə qaza basanda atəş səsi eşidilib. "Mercedes" bir neçə metr getdikdən sonra reklam dirəyinə çırpılıb. Sükan arxasında əyləşən Nanter sakini, 17 yaşlı pizza çatdıran, həvəskar reqbi oyunçusu, ananın tək oğlu, Şimali Afrika əsilli Nahel hadisə yerində həlak olub.

## Olayı pisləyənlər də var, ona haqq qazandıranlar da

Hadisəyə ilk münasibət bildirənlərdən biri futbol üzrə Fransa milli komandasının kapitanı və Parisin "Pari Sen-Jermen" klubunun hücumçusu Kamerun-Əlcəzair əsilli Kilian Mbappe olub. O, "Tvitter" hesabında yazıb: "Doğma Fransam üçün çox üzülürəm. Vəziyyət qəbuledilməzdir. İndi bütün duyğu və düşüncələrim çox tez uçan mələk Nahelin ailəsinə və yaxınlarına gedir".

Müxalif radikal solçuların lideri Manon Aubri parlamentdə bəyan edib ki, tabe olmaqdan imtina dərhal heç kim üçün ölüm hökmünə çevrilə bilməz.

Sağçı "Respublikaçılar" Partiyasının rəhbəri Erik Siotti isə bildirib ki, yoxlama hüquqa uyğun olub, polisə tabe olmaqdan imtina ilə bağlı oxşar hallar ölkədə, demək olar ki, hər yarım saatdan bir baş verir. Tez-tez yaralanan hüquq-mühafizə orqanları əməkdaşları var.

Amma sadə fransızlar partiya sədrini fakt qarşısında qoyublar. Yeniyetmənin ölümündən dərhal sonra sosial şəbəkədə hadisə şahidinin çəkdiyi video peyda olub. Videoya baxdıqda anlaşılır ki, nə Nahel, nə də sərnişinlər polis əməkdaşlarının həyatına təhlükə törətməyiblər. Onlar yolun kənarında, avtomobilin solunda olublar və polis onları çətinliklə vurub. Bu arada patrulun isti izlərlə tərtib etdiyi hesabatdan belə çıxır ki, sürücü polisləri avtomobillə vurmağa cəhd edib və onlar yalnız özlərini müdafiə ediblər. Nanterdə əhalinin qəzəblənməsinə və kütləvi iğtişaşların baş verməsinə əsasən hesabatdakı bu yalanlar səbəb olub.

## Silahdan sui-istifadə edilib

İyunun 29-da qəsdən adam öldürmə ittihamı ilə 38 yaşlı polisin həbs müddətini uzadan prokuror silahdan sui-istifadə edildiyini təsdiqləyib.

Onu da qeyd edək ki, 2017-ci ildə – Fransanın sosialist Prezidenti Fransua Ollandın dövründə polis əməkdaşlarının həyatlarının təhlükə altında olduğu hallarda atəş açmasına icazə verən qanun qəbul edilib. Ötən il ölkənin avtomobil yollarında aparılan yoxlamalar zamanı 13 sürücü belə şəraitdə həlak olub və polisin hərəkətləri əksər hallarda qanuni hesab edilib.

Nəhayət, Emmanuel Makron dilə gəlib. O, televiziya ilə çıxışında deyib: "Yeniyetmənin ölümünə heç nə ilə haqq qazandırmaq olmaz. Ümid edirəm ki, ədalət tezliklə öz yerini tapacaq". Bununla belə Makron qurumlara və respublikaya qarşı zorakılığa heç nə ilə haqq qazandırılmasının mümkün olmadığını vurğulayıb. O, iğtişaşlara son qoymağa çağırıb. Ancaq görünən odur ki, əhali onun çağırışına qulaq asmaqda maraqlı deyil.

Daxili işlər naziri Cerald Darmanen isə necə deyərlər, yanan alovun üstünə benzin töküb. O, polis həmkarlar ittifaqı – "Fransa Polis Sindikat"ı tvit atdığına görə tənqid edib: "17 yaşlı yeniyetmə cinayətkara atəş açan həmkarlarıma əhsən. Onun avtomobilini dayandırmaqla həm özlərinin, həm də digər hərəkət iştirakçılarının həyatını qoruyublar. Bu quldurun ölümündə yeganə günahkar övladını tərbiyə edə bilməyən valideynlərdir".

Göründüyü kimi, daim türkofob və islamofob əhval-ruhiyyənin hökm sürdüyü Makron Fransasının yürütdüyü təzadlı siyasət bu dəfə daxili qarşıdurmanı körükləyib. Ötən ilin sentyabrında Azərbaycanın Parisdəki səfirliyinə, bu yaxınlarda çəkiliş aparan Azərbaycan Televiziyasının (AzTV) əməkdaşlarına hücum, jurnalistlərin xəsarət alması, avadanlıqların ələ keçirilməsi və sındırılması, silahla təhdid edilməsi və sair hallar, indi isə silahı olmayan 17 yaşlı Şimali Afrika əsilli yeniyetmənin fransız polisi tərəfindən qətlə yetirilməsi Fransanın yeni müstəmləkəçilik siyasətinin növbəti nümunələridir. Baş verən hadisə həm də Makronun ölkə daxilində ciddi siyasi dayaqlara malik olmadığını və daha çox erməni azlığa arxalanan hökumət qurduğunu üzə çıxardı. Onun iğtişaşları yatırmaq üçün etdiyi müraciətlərin qulaqardına vurulması da bunun bariz nümunəsidir.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

*Günün açıqlaması*

# Qərbi Azərbaycan həqiqətləri beynəlxalq dəstək qazanır

**Qərbi Azərbaycan İcması öz varlığını beynəlxalq aləmə tanıtmaq və bu coğrafiyada son 2 əsrdə soydaşlarımızın məruz qaldığı davamlı deportasiya və soyqırımları, onların varislərinin əzəli yurd yerlərinə qayıtmaq hüququ, bu missiyanın ləyaqətli şəkildə gerçəkləşdirilməsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün son vaxtlar beynəlxalq fəaliyyətini gücləndirib. Qurumun müraciətlərinin Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının və digər nüfuzlu beynəlxalq qurumların rəsmi sənədi kimi yayılması Qərbi Azərbaycan İcmasının tarixi Vətənə qayıdışı prosesinə xarici aləmdə hüquqi-siyasi və diplomatik dəstək qazandırmaqda önəmli addımlar olub. İcmanın Azərbaycan – Ermənistan sülh danışıqlarının normallaşmasına, soydaşlarımızın Qərbi Azərbaycana qayıdış hüququnun tanınmasına qarşı qonşu ölkədə və beynəlxalq aləmdə pozucu hərəkətlərlə bağlı bəyanatları da onun fəaliyyətinə aydınlıq, konkretlik gətirir, mübarizənin kəsərliyini artırır.**



**Qərbi Azərbaycan İcmasının rəhbəri, Milli Məclisin deputatı Əziz Ələkbərli qəzetimizə bu mövzuda açıqlamasında bildirdi:**

– Son 2 əsrdə Qərbi Azərbaycandakı tarixi torpaqlarımızda soydaşlarımıza qarşı sayı-hesabı olmayan etnik təmizləmə, deportasiya, soyqırımı siyasəti həyata keçirilib. Bunların davamı olaraq, sonuncu deportasiya zamanı – Qarabağ münaqişəsinin ilk mərhələsində soydaşlarımız Qərbi Azərbaycan dediyimiz indiki Ermənistan ərazisindən son nəfərinə qədər görünməmiş bir vəhşiliklə qovulub çıxarıldı. Həmin deportasiyanı mən, ailəm, bütün həmyerlilərim öz taleyimizdə bütün dəhşətləri ilə yaşamışıq. İcmanın üzvləri sonuncu deportasiya zamanı – 1988-ci ilin payızında öz doğma yurdumuzu tərk etmək məcburiyyətində qalanlardır.

Təbii ki, ilk gündən varlığımıza hopmuş Vətən həsrəti, yurd ağrısı ötən dövrdə zərrə qədər də azalmayıb. Vətən itirmək ağır dərddir. Bu kütləvi qovulmadan az sonra – 1988-ci il dekabrın 28-də bir qrup Qərbi Azərbaycan əsilli ziyalı toplaşaraq qaçqınların məskunlaşma, məşğulluq kimi problemlərini həll etmək üçün Azərbaycan Qaçqınlar Cəmiyyəti adlı bir təşkilat yaratdı. Bu ictimai qurum ötən dövr ərzində sosial məsələlər çevrəsində bacardığını etdi.

Lakin münaqişənin davamında Qarabağ və Şərqi Zəngəzur torpaqları ermənilər tərəfindən işğal olundu, 1 milyona yaxın soydaşımız öz Vətənində məcburi köçkün vəziyyətinə düşdü, doğma yurdlarını tərk etmək məcburiyyətində qaldı. Artıq Qərbi Azərbaycan qaçqınları olaraq biz öz məsələmizi arxa plana keçirib erməni işğalına son qoyulmasını gözlədik. Biz o zaman Azərbaycan Qaçqınlar Cəmiyyəti olaraq bir şüar irəli sürmüşdük ki, Qərbi Azərbaycan uğrunda mübarizəmiz Qarabağ uğrunda mücadilənin tərkib hissəsidir. Çünki Qarabağ yoxdursa, Azərbaycan da yoxdur.

Azərbaycan Prezidenti İlham Əliyev də öz açıqlamalarında Qərbi Azərbaycan məsələsini gündəmə gətirməyin Qarabağsız mənasız olduğunu demişdi. Yəni, təkcə 10 milyonluq Azərbaycan xalqı olaraq yox, 50 milyonluq dünya azərbaycanlıları olaraq hamımızın bir nömrəli vəzifəmiz, mübarizəmiz Azərbaycanın suveren ərazilərinin, ərazi bütövlüyünün təmin olunması idi. Başlıca hədəf Qarabağ, Şərqi Zəngəzur torpaqlarının erməni işğalından azad olunması idi. 2020-ci il 27 sentyabrda başlanan əks-hücum əməliyyatı zamanı müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında son 2 əsrdə ilk dəfə olaraq işğal olunmuş torpaqlarımızı düşməndən azad edə bildik. Böyük bir Zəfər qazandıq.

Artıq bizim qarşımızda tarixi torpaqlarımıza, Qərbi Azərbaycana qayıtmaq uğrunda mübarizə aparmaq üçün gerçək perspektiv yarandı. 2022-ci il avqustun 3-də Azərbaycan Qaçqınlar Cəmiyyətinin yığıncağında qurumun adını dəyişərək Qərbi Azərbaycan İcması kimi fəaliyyətimizi yeni müstəviyə keçirdik. Bu da ondan irəli gəlirdi ki, adından göründüyü kimi, Azərbaycan Qaçqınlar Cəmiyyəti qaçqınların problemini həll edirdi. Amma bizim qarşımızda təkcə sonuncu deportasiya zamanı doğma yurdlarından qaçqın düşən insanların taleyi yox, son 200 ildə başımıza gətirilən faciələr, tarixi torpaqlarımızdan qovulan bütün insanların problemini gündəmə gətirmək vəzifəsi dayanırdı.

Qərbi Azərbaycan İcması kimi yenidən təşkilatlanaraq fəaliyyətimizi siyasi-diplomatik yöndə davam etdirməyə qərar verdik. Ötən il 24 dekabrda Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının yeni inzibati binasına gəldi. Dövlət başçısının burada proqram xarakterli çıxışında, qarşımızda yeni vəzifələr, tapşırıqlar qoyması artıq bizim fəaliyyətimizi tamam yeni bir mərhələyə yönəltdi. Cənab Prezidentin əsas tapşırığı Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını hazırlamaq oldu. Və biz bu konsepsiyanı hazırlayıb yanvar ayının sonunda qəbul etdik və onun icrasına başladıq. Ötən 6 ay ərzində müəyyən hazırlıq aparılmaqla xeyli iş görülüb. Ən azı, beynəlxalq müstəvidə biz öz səsimizi eşitdirə bilmişik.

**Beynəlxalq aləmə yönəlik fəaliyyətlə bağlı görülmüş işlərdən söhbət açan müsahibimiz söylədi:**

– Prezident İlham Əliyev 24 dekabr görüşündə vurğuladı ki, bu insanlar öz tarixi torpaqlarına qayıtmalıdırlar. Bu, beynəlxalq hüquqa əsaslanan bir missiyadır. Bütün beynəlxalq sənədlərdə insanların öz doğma ata-baba yurdunda yaşamaq, oraya sərbəst gedib-gəlmək onların təməl hüququ kimi təsbir olunub. Yəni heç bir beynəlxalq hüquq buna yox deyə bilməz. Cənab Prezident qəti şəkildə bildirdi ki, bu hüquqa söykənməklə mütləq öz tarixi torpaqlarımıza da qayıdacağıq.

İlk növbədə, soydaşlarımız dövlət başçısının söylədiyi bu tarixi ədalətin qələbə çalacağına inanmalıdırlar. Odur ki, ilk vəzifələrimizdən biri olaraq, Qərbi Azərbaycan həqiqətlərimizi dünya ictimaiyyətinə çatdırmağa başladıq. Son 30–35 ildə Qarabağ həqiqətlərini müəyyən qədər dünya ictimaiyyətinə çatdıra bildik. 44 günlük müharibənin nəticələrinin dünya tərəfindən qəbul edilməsində bu həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması çox böyük rol oynadı. İndi artıq qarşımızda Qərbi Azərbaycan həqiqətlərini xarici aləmə çıxarmaq qarşımızda zəruri vəzifə olaraq durur.

Yəni dünya bilməlidir ki, erməninin dərdi təkcə Qarabağ deyil. Onlar Qarabağ məsələsindən qabaq da 200 il bu coğrafiyada münaqişə ocaqları yaradıblar. Onlar yaşadıqları ərazinin yerli türk xalqlarına məxsusluğunu unutdurmaq, özgə torpaqlarında möhkəmlənmək, guya, bu yerlərin min illər boyu onların olması yalanına dünyanı inandırmaq üçün hər saxtakarlığa və böhtana əl atıblar. Sonra da zorakı yollarla soydaşlarımızı öz vətənindən didərgin salıblar. Sonda isə müharibə edərək Azərbaycan ərazilərini işğal ediblər.

Bu həqiqətləri dünyaya bəyan etməklə bağlı ilk addımlarımız uğurlu oldu. Qərbi Azərbaycan İcmasının 3 sənədini Təhlükəsizlik Şurasının və digər şuraların rəsmi sənədi kimi BMT-nin bütün rəsmi dillərində təşkilata üzv olan dövlətlərdə yaya bildik. Bu, Qərbi Azərbaycan ərazisində ermənilərin törətdiyi cinayətlərin beynəlxalq müstəvidə etirafı idi. İndiyə qədər bu gerçəyi BMT tribunası səviyyəsinə çıxarıb qəbul etdirə bilməmişdik. Amma artıq Qərbi Azərbaycan həqiqətləri və qayıdış missiyamız haqqında 190 dövlətə zəruri informasiya verə bilmişik.

**Əziz Ələkbərli dünyada hökm sürən "ikili standartlar"a qarşı mübarizədə əldə edilən irəliləyişdən də danışdı:**

– Ötən dövrdə biz gördük ki, dünya Azərbaycan həqiqətlərinə nə qədər kar, kor, lal olmuşdu. O da yadınızdadır ki, torpaqlarımız işğaldan azad olunandan sonra cənab Prezident dəfələrlə UNESCO-ya və başqa beynəlxalq təşkilatlara deyirdi: Gəlin, gözünüzlə görün, yəqin edin ki, onlar Azərbaycan mədəniyyətini, irsini amansızlıqla dağıdıblar, təhqir ediblər. Yaşayış məntəqələrimizi necə xarabalığa çeviriblər, yer üzündən siliblər. Hətta qəbirlərimizi necə söküblər, qarət ediblər.

Amma beynəlxalq qurumlar kimi, UNESCO da buna susqun qaldı, reaksiya vermədi. Amalı, məramı dünya mədəni irsini qorumaq olan bu qurumu nə qədər dəvət etsək də, Azərbaycana gəlmədi. Bizim BMT çərçivəsində qəbul etdirdiyimiz sənədlərdən biri də UNESCO-nun Qərbi Azərbaycan ərazisinə gəlib burada mədəni irsimizin ermənilər tərəfindən necə dağıdılmasının monitorinqinin keçirilməsilə bağlıdır. Biz bu sənədi də dünya ölkələrində yaya bildik. Bütün bunlar Azərbaycan diplomatiyasının Qərbi Azərbaycanla bağlı mübarizəsində əməli addımlar və hiss olunan irəliləyişdir.

Eyni zamanda, biz Qayıdış Konsepsiyamızı da BMT-nin rəsmi sənədi kimi dünya ölkələrində yaya bildik. Bu sənədin beynəlxalq aləmdə rəsmi olaraq yayılması o deməkdir ki, biz qayıdışımızın sülh yolu ilə, ləyaqətli şəkildə həyata keçirilməsi üçün zəruri addımları ardıcıl olaraq atırıq. Bütün bunlar öz məqsədimizə çatmaq uğrunda inamlı mübarizəmizi gücləndirir və icmamızı öz hədəfinə sürətlə yaxınlaşdırır. Qərbi Azərbaycan həqiqətləri artıq ciddi beynəlxalq dəstək qazanır. Bizi Qarabağa qaytaran, hər şeydən əvvəl, haqq işimizə güclü inamımız oldu. Belə bir inam Qərbi Azərbaycan icmasını da tarixi vətənə qovuşduracaq.

**Müsahibəni hazırladılar:**
**T.RÜSTƏMLİ, R. FİKRƏTOĞLU,**
**"Xalq qəzeti"**

# Baş separatçı: hamı "inteqrasiya" deyir

## Qarabağdan nəinki çıxmağa tələsməyən, hətta Bakı ilə mübarizə aparacaqlarını deyən separatçılarla dialoqun bir yolu qalıb – antiterror əməliyyatı



**Doğrudan da, haylarla danışmağın özgə yolu qalmayıb. Bunu Azərbaycanın Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş rus sülhməramlıların məsuliyyət zonasında ömürlərini uzatmağa çalışan separatçı-terrorçuların başçısı Arayik Arutyunyan deyir: "Bakı yalnız inteqrasiya prosesləri ilə bağlı danışıqlar aparmağa razıdır".**

Bəli, qondarma rejimin qondarma prezidenti etiraf edib ki, danışıqların başqa formada aparılması mümkünsüzdür: "İki il cəhd etdim, amma Bakı yalnız inteqrasiya prosesini müzakirə edəcəyini deyir. Onlar bunu təkcə bizə yox, BMT-də də deyirlər. Dünən də, bu gün də - Vaşinqtonda Blinken-Mirzoyan-Bayramov görüşündə də deyilib. Azərbaycan bizə deyir ki, birinci məsələ "müdafiə ordusunun" buraxılmasıdır. Ondan sonra "dövlət idarəetmə sistemi" ləğv edilməlidir. Başqa formada danışıqlar nəticə vermir".

Bəs sən nə gözləyirdin, ay məğlub ordunun "oyundankənar" separatçı-komandiri? Gözləyirdin ki, Bakı gəlib sənin qondarma qurumunun başçısı kimi tacqoyma mərasimində iştirak edəcək?

* * *

Arutyunlanın züy tutanlarından biri – erməni separatçı ünsürlərin "vahid vətən partiyasının" rəhbəri Samvel Babayan "Bakı ilə dialoqa" çağırış edib. Özünü, guya, danışıq tərəfdarı, "güzəştlərə hazır", yerli separatçılardan fərqli mövqedə duran hay kimi təqdim etməyə çalışan Babayanın "dialoq formatı"na diqqət yetirin: "Bakı ilə Xankəndi arasında dialoqun başlaması zəruridir. İnam yaratmağa, müxtəlif məsələlərdə razılığa gəlməyə çalışmaq lazımdır ki, insanlar dinc və normal yaşasınlar".

"Sülh carçısı" Babayan bundan sonra "ikinci məsələyə" – qalan problemlərin müzakirəsinə keçəcəklərindən danışıb: "Bu yolla getməsək, qarşılıqlı etimad olmasa, heç nəyə nail ola bilmərik. İkinci "siyasi qüvvə" kimi təcili danışıqların əleyhinə deyiləm. Amma ilk növbədə bir-birimizə qarşılıqlı etimadın aşılanması üçün dialoq aparacağımız məqamlarla bağlı konkret sənəd formalaşdırmalı, sonra başqa məsələlərə keçməliyik".

Keçmiş "hərbi diplomatın" təxəyyülünün üfüqləri çox geniş imiş. O, unudur ki, Azərbaycan, hətta, keçmiş DQMV və onun ətrafındakı 7 rayon işğal altında olanda belə özü kimi separatçıları heç vaxt "tərəf" kimi tanımayıb. Bakı öz sözünü birbaşa İrəvana deyib. Bu, hələ o vaxt idi. İndi isə Azərbaycan 44 günlük Vətən müharibəsində böyük hərbi zəfər qazanandan, üstəlik, rəsmi İrəvanın Azərbaycanın Qarabağ və anklavlar da daxil olmaqla, ərazi bütövlüyünü tanımasından sonra özünü "tərəf" sayan Xankəndi ilə hansı formatda danışıqlar aparmalıdır? Bunun elementar məntiqlə qeyri-mümkün olduğunu həmin separatçı tör-töküntüsü doğrudanmı anlamır? Yox, anlayır, amma özünü anlamaz yerinə qoyur.

Bəli, Xankəndi və ətrafında yaşayan erməni icması ilə müzakirə mövzusu yalnız Azərbaycana inteqrasiya ola bilər. Bakının tək tələbi budur və bunu separatçıbaşı Arayik Arutyunyan da yaxşı bilir və hətta etiraf edir.

* * *

"Qarabağda yaranmış hazırkı vəziyyətə görə yalnız bir şəxs məsuliyyət daşıyır. O, ölkəni idarə etmək və ya beynəlxalq diplomatiya sahəsində təcrübəsi olmayan, uğursuz danışıqlar aparan şəxsdir. Bu gün Qarabağı təhvil vermək qərarına gələn şəxs üzündən danışıqlar prosesi yanlış gedir". Hayastanın baş naziri Nikol Paşinyanın ünvanına bu aşağılayıcı sözlərin müəllifi kriminal biznesmen, Kremlin uğursuz emissarı statusunu qazanmış Ruben Vardanyandır.

Azərbaycanın sərvətlərini talan etməklə qazandığı haram milyardları hesabına "Arsaxa xoşbəxt gələcək" quracağını vəd edən bu saxtakar tacirin biznesinə son qoyulan kimi oturdulduğu "dovlət naziri" postundan da qovuldu. Qarabağdan Rusiya sülhməramlılarının yük maşınındakı çirkli mələfələrin altında gizlənərək çıxmağı bacaran "xalq qəhrəmanı" indi də silaha sarılıb "müharibə aparmaqdan" dəm vurur. Amma bir şeyi unudur ki, onun haqqında Bakıda cinayət işi qaldırılıb və "günəşli" Qobustan həbsxanası özünün "milyarder" məhkumunun yolunu intizarla gözləyir...

***İ.HƏSƏNQALA, "Xalq qəzeti"***

Müsahibə

**Qarabağda turizmin inkişaf etdirilməsi üçün geniş imkanlar var. Qarabağlıların qonaqpərvərlik mədəniyyətinin turizmdə xidmət mədəniyyətinə çevrilməsi bölgədə bu sahənin inkişafına böyük təkan verə bilər. Digər tərəfdən, Qarabağ mətbəxinin tarixi də elə xalqın keçmişi qədər qədimdir və turizm sektoru üçün geniş imkanlar yaradır. Bura yüksək kalorili ət yeməklərindən tutmuş vegeterian tələblərə uyğun göyərti və tərəvəzdən hazırlanan təamları əlavə edə bilərik. Qarabağ həm də maraqlı tarixi-mədəni irsə malikdir, təbiət imkanlarına görə də rəngarəngdir.**



# Qarabağın dünyanı heyran edəcək nadir turizm potensialı var

## *Erməni vandalizminin müdhiş izləri isə turistləri heyrətə salır*

**Müsahibim Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bu barədə deyir:**

– Qarabağın turizm mərkəzinə çevrilməsi üçün çox geniş imkanlar var. Bu imkanların reallığa çevrilməsi üçün əsas vəzifə düşmənin 30 ilə yaxın bir müddətdə viran qoyduğu əraziləri yenidən qurmaq, qayıdış üçün əlverişli zəmin formalaşdırmaqdır. Artıq rabitə-kommunikasiya xətləri çəkilib, kilometrlərlə yeni yollar salınıb, dağıdılan binaların, tarixi-mədəni abidələrin bir hissəsi bərpa olunub.

Bu gün bir tərəfdən Qarabağın tarixi görkəmi özünə qaytarılır, digər tərəfdən yaşayış üçün ən müasir infrastruktur qurulur, turizmin potensialı yaradılır. Məsələn, Füzuli şəhəri Qarabağın hava qapısı adlandırılır. Burada nəqliyyat və logistika müasir standartlar əsasında qurulub, beynəlxalq hava limanları istifadəyə verilib. Zəngəzur dəhlizinin Füzuli rayonunun ərazisindən keçməsi turizm potensialının gerçəkləşdirilməsi üçün mühüm zəmin yaradıb.

Füzuli həm təbiəti, həm də tarixi-arxeoloji abidələri ilə Azərbaycanın ən zəngin bölgələrindən biridir. Rayonda çoxsaylı arxeoloji abidələr– Günəştəpə, Qaraköpəktəpə və Qarabulaq kurqanları bu günümüzə qədər saxlanılıb. Kurqanlar Əhmədbəyli–Füzuli–Şuşa yolunun, təxminən, 700-800 metr yaxınlığında yerləşir. Bu böyük kurqan çölü dəfn mədəniyyətimizdə xüsusi yer tutur, tarixi bir neçə minillik əvvələ gedib çıxır. Burada 3 min yaşı olan hökmdar kurqanları da var. Arxeoloji qazıntılar zamanı qədim dövrə aid artefaktlar aşkar edilib. Araşdırmalar zamanı məlum olub ki, ərazidə hökmdar arabası ilə birlikdə dəfn edilib. Kurqanda araba təkərlərinin, atların, silah-sursatın qalıqları aşkarlanıb.

Hazırda kurqanda arxeoloji ekspedisiya fəaliyyət göstərir. Bəzi kurqanlarda ermənilərin səngər qazdıqları da aydın görünür. Gələcəkdə burada unikal arxeoparkın yaradılması nəzərdə tutulur ki, bu, həm tariximizin təbliğində, həm də turist axınının kütləviləşməsində böyük rol oynayacaq.

Məngələnata yüksəkliyində qədim alban məbədi var. Təəssüf ki, mənfur düşmən bu abidəni də erməniləşdirib. Amma bütün tarixi abidələr kimi o da bərpa olunacaq. Bu yüksəklikdə yaradılacaq Bayraq meydanı da turistlərin ən çox ziyarət etdiyi yerlərdən birinə çevriləcək. Oradan Füzuli şəhəri, habelə bir-birini tamamlayan, vəhdət təşkil edən düzən, dağətəyi və yüksək dağlıq ərazi seyr ediləcək.

Füzuli rayonunda turizm mərkəzinə çevriləcək yerlərdən biri də Azıx mağarasıdır. Bu mağaranın adı əhəmiyyətli arxeoloji abidələr sırasındadır və dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Arxeoloji abidədən tapılmış ibtidai insanın alt çənə sümüyünün qalığı göstərdi ki, Azərbaycanda təxminən 350-400 min il bundan əvvəl insan yaşayıb.

İşğal dövründə Azıx mağarası da düşmən talanına məruz qalıb. Aparılan tədqiqatlar nəticəsində oradan tapılmış çox qiymətli əşyalar, erməni işğalçıları tərəfindən xarici ölkələrə daşınıb. Hazırda belə eksponatların Azərbaycana qaytarılması üçün cox ciddi tədbirlər görülür.

Ümumiyyətlə, Azıx mağarasının köməyi ilə Azərbaycanın, o cümlədən Qarabağın daş dövrü haqqında geniş məlumat almaq olar. Yaxın gələcəkdə bu mağaraya turist marşrutunun açılması ölkəmizin turizm təsərrüfatı üçün çox vacib şərtlərdəndir. Artıq tarixi yerlərimizə səfərlər təşkil ediləcək günləri səbirsizliklə gözləyirik. Bu ərazidə böyük bir turizm infrastrukturunun yaradılmasını nəzərdə tuturuq.

**– Ətraf rayonların da böyük turizm potensialı var. Xocavənd rayonunun təbiəti gözəl, turizm potensialı geniş və çoxşaxəlidir. Hadrut və Tuğ daha çox turist cəlb edə bilər.**

– Turizm məkanı ilə bağlı xüsusilə onu qeyd etmək istəyirəm ki, nəinki Füzulinin, ətraf rayonların da böyük turizm potensialı var. Biz az bir vaxt Zəfər yolu ilə hərəkət etsək, Xocavənd rayonunun ərazisinə daxil olacağıq. Bu rayonun təbiəti çox gözəldir. Dağ, meşə və vadilərin füsunkarlığı insanı valeh edir. Ağdam və Füzuli ilə müqayisədə Xocavənd ciddi şəkildə dağıdılmayıb. Onun turizm potensialı geniş və çoxşaxəlidir. Xüsusilə Tuğ kəndi daha çox turist cəlb edə bilər.

Tuğun tarixi memarlıq üslubunu saxlamaqla burada mədəni turizmi, zəngin təbiətindən istifadə etməklə ekoturizmi inkişaf etdirmək mümkündür. Onun aqroturizm potensialı da böyükdür.

Tarixən şərabçılıq destinasiyası kimi tanınan Tuğ kəndi Xocavənd və Füzuli rayonlarının üzüm sahələrindən toplanan məhsuldan alınan şərabları ilə məşhur olub. Zavod üçün müasir turizm konsepti tətbiq ediləcək. Belə ki, bura yalnız şərab istehsal edilən yer deyil, həmçinin Tuğ bölgəsində tarixən mövcud olmuş şərabçılıq ənənəsinin təbliğ olunduğu məkana çevriləcək. Kompleksin tərkibində müxtəlif tədbir və festivalların keçirilməsi üçün çoxtəyinatlı məkanlar olacaq.

Tuğda da ənənəvi Azərbaycan memarlığına işğal dövründə çox müdaxilə edilib və bəzi tikililər vandalizmə məruz qalıb. Kəndin tarixi tikililəri, küçə, hasar və darvazaları ənənəvi memarlıq üslubunda təmir olunacaq.

Şuşaya gedən yolun buradan keçməsi nəzərə alınaraq gələcəkdə ətrafdakı tarix və mədəniyyət abidələrinə haykinq və piyada turizm marşrutlarının yaradılması, piyada gəzintisi üçün dağ cığırlarının keçdiyi yerlərdə kempinq zonaların, kiçik etnoqrafik festivalların, günlük turist səfərlərinin təşkili və digər layihələrin həyata keçirilməsi üçün böyük potensial var.

Hadrut qəsəbəsinin də turizm potensialı yüksəkdir: meşəli dağlar və onların içində yaşayış məntəqəsi. Bu yerlər bərpa olunduqdan sonra çoxsaylı turizm istirahət zonaları yaradılacaq, özəl sektor cəlb olunacaq.

**– Nəhayət, turizm haqqında danışarkən Suqovuşan və Talış kəndlərini də qeyd etməliyik. Bura özəl sektorun cəlb edilməsi nəzərdə tutulur. Xahiş edirik bu barədə məlumat verəsiniz.**

– Suqovuşanda turizm kompleksinin tikintisinə başlanılıb. Bu turizm mərkəzinin yaradılması Naftalanda turizmin inkişafı üçün də əhəmiyyət kəsb edir. Belə ki,



təməli Prezident İlham Əliyev tərəfindən qoyulan, hazırda icra mərhələsində olan Suqovuşan turizm kompleksinə məsafə baxımından yaxınlıq Gəncə ilə yanaşı, həm də Naftalandan oraya turist səfərlərinin təşkil olunacağını deməyə əsas verir.

Əlbəttə, bu, əlavə biznes sahələrinin yaradılmasına öz müsbət təsirini göstərəcək. Suqovuşanda turizm obyektlərinin tikintisində özəl sektor yaxından iştirak edir.

Talış kəndində ikinci faza yekunlaşandan sonra turizmin orada inkişaf etdirilməsi imkanları genişlənəcək. Elə xüsusi zonalar var ki, məhz ora özəl sektorun cəlb edilməsi nəzərdə tutulub.

**– Son zamanlar Qarabağda alternativ turizm növü olan "Qaranlıq (Dark) turizmi"nə maraq artır. Təbii fəlakətlər, dağıntılar və xarabalıqlarla bağlı olan bu turizmin Qarabağda inkişafı haqqında nə deyə bilərsiniz?**

– Çox vacib məsələ ondan ibarətdir ki, Qarabağda turizm çoxşaxəlidir. Burada həm istirahət, həm səhiyyə, həm dağ, həm də kulinariya turizmi var. Son illər turizm sektorunda baş verən dəyişikliklər alternativ turizm növlərinə də marağı artırır. Qaranlıq (Dark) turizm gün keçdikcə populyarlığı artan alternativ növlərdən biridir. Bu, təbii fəlakətlər, dağıntılar, xarabalıqlarla bağlı turizm növüdür.

Dünyada dağıntıları görmək istəyən turistlər də az deyil. Qarabağda onun inkişaf etdirilməsi üçün imkanlar var. İşğal dövründə bir çox yaşayış məntəqələrimiz düşmən tərəfindən dağıdılıb, viranə qoyulub. Bu bir çox turistlər belə yerlərə, yəni müharibənin törətdiyi fəsadlara baxmaq üçün səyahət edirlər. Onu Qarabağda da tətbiq edə bilərik.

İnfrastruktur layihələri bitdikdən sonra orada dağıdılmış binaların bir hissəsini bərpa etmədən saxlayıb, düşmənin törətdiyi barbarlığı gələn turistlərə göstərmək olar. Məsələn, Ağdamda açıq səma altında 18 hektarlıq Memorial bağ salınacaq. Biz bütün şəhəri müasir üslubda bərpa etsək də, Memorial bağda xarabalıqlar, dağıdılmış binalar saxlanılacaq. Onları olduğu kimi qoruyacağıq ki, gələcək nəsillər bu tariximizi unutmasın, mənfur düşmənin xalqımızın başına gətirdiyi faciələri bilsin.

Dağıntılar arasında müvafiq təmizlik, abadlıq işləri görüləcək, cığırlar çəkiləcək, binalar haqqında müəyyən məlumatları əks etdirən "augmented reality – gücləndirilmiş virtual reallıq" texnologiyasından istifadə etməklə mobil aplikasiyalar tətbiq olunacaq. Məqsəd odur ki, İşğal muzeyi, Memorial bağ və Zəfər muzeyi Azərbaycan xalqının Birinci və İkinci Qarabağ müharibəsində keçdiyi tarixi göstərə bilsin. Burada XX əsrin dəhşətli Xocalı soyqırımı, Ağdamın işğalı, bununla bağlı video-audio materiallar, eksponatlar əks olunacaq.

İşğal muzeyindən çıxan insan Memorial bağı gəzərkən 27 illik işğal dövrü haqqında ətraflı məlumat alacaq. İnsanlar o dağıntıların arasından keçərkən sanki həmin zamana səyahət edəcək və gözləri qarşısında o faciələr canlanacaq.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

# TRASECA – tarixdən bugünə İpək Yolu

**Tarixi araşdırmalara görə, qədim dövrlərdə və orta əsrlərdə Çindən Orta və Ön Asiyaya uzanan karvan yolu Yaponiya, Hindistan, Monqolustan, İran, Özbəkistan, Tacikistan, Azərbaycan və digər ölkələrdən keçib. Bu tarixi ticarət marşrutuna "Böyük İpək Yolu" adını isə ilk dəfə 1877-ci ildə alman coğrafiyaşünası Ferdinand fon Rixthofen verib.**

Belə bir adın işlədilməsi isə təsadüfi olmayıb. Çünki marşrutun əsas hissəsi öz başlanğıcını qədim Çinin paytaxtı Çanqandan (Xian) götürüb. Eramızdan əvvəl dördüncü əsrdə Makedoniyalı İsgəndər Mərkəzi Asiya istiqamətində Hind çayını keçəndə artıq Çin ipəyinin Aralıq dənizinə çıxışı olub. Eyni zamanda, yolun çoxsaylı şaxələrindən birinin Cənubi Azərbaycandan keçməsi bu ərazi ilə geniş əlaqəsi olan Dərbənd, Şirvan, Şəki, Beyləqan, Gəncə, Qəbələ və Naxçıvanda ipəkçiliyin inkişafına güclü təsir göstərib, həmin yaşayış sahələrinin hər birinin ipəkçilik üzrə ticarət mərkəzinə çevrilməsinə şərait yaradıb.

Bu marşrutla Şərqdən Mərkəzi Avropa ölkələrinə əvvəlcə ipək, daha sonra ədviyyat, qızıl, gümüş, brilliant, mirvari və s. daşınıb. Avropadan Şərq ölkələrinə isə tacirlər qalay, sink, civə, mahud parça və s. aparıblar. Bu baxımdan Bakı, Dərbənd, Şamaxı və Şirvan bölgələrində tacirlərin rahatlığının təmin edilməsi məqsədilə karvansaralar salınıb.

### Qədim İpək Yolu üzərində yeni marşrut

Azərbaycan bir çox dünya dövlətləri ilə, Avropa İttifaqı (Aİ) və digər beynəlxalq təşkilatlarla müştərək layihələr həyata keçirərək tarixi İpək Yolunun bərpa olunmasında – TRASECA Proqramının hazırlanması və icrasında yaxından iştirak edib. Müasir İpək Yolunun əsası isə Aİ tərəfindən 1991-ci ildə hazırlanan və keçmiş SSRİ-nin dağılmasından sonra yaranan müstəqil dövlətlər üçün nəzərdə tutulan TACIS proqramı çərçivəsində "TRASECA" layihəsi ilə qoyulub. "Yeni İpək Yolu" adı ilə tanınan bu layihə 1993-cü ilin mayında keçirilən Brüssel konfrasında Cənubi Qafqaz və Mərkəzi Asiyanın yeni müstəqil dövlətlərinin razılığı ilə qəbul olunub.

Konfransın işində nəqliyyat-ticarət regional sistemlərində mövcud problemlərin müzakirəsi aparılıb. TRASECA regionlararası proqramının icrasını şərtləndirən Brüssel Bəyannaməsi qəbul edilib. Layihənin reallaşdırılmasında ilk addım isə 1996-cı il mayın 13-də İranın Rəzəvi Xorasan ostanının Sərəxs şəhərində İran və Mərkəzi Asiyanın dəmir yolu magistrallarının birləşdirilməsi olub.

Ümumiyyətlə, "Yeni İpək Yolu" layihəsinin həyata keçirilməsi, əsasən, müstəqil dövlətlərin alternativ nəqliyyat dəhlizləri vasitəsilə Avropa və dünya bazarlarına çıxışını gerçəkləşdirmək, bu dövlətlərin siyasi və iqtisadi cəhətdən ətraf ölkələrdən asılılığını aradan qaldırmaq, regional əməkdaşlığın möhkəmlənməsinə şərait yaratmaq və beynəlxalq maliyyə mərkəzlərinin regiona sərmayə qoyuluşunu stimullaşdırmaq məqsədi daşıyırdı.

### Ulu öndərin gerçəkləşən arzusu

TRASECA layihəsi üzrə ən mühüm konfrans Azərbaycan Prezidenti Heydər Əliyevin diplomatik səyi ilə 1998-ci ilin sentyabrında Bakıda keçirilib. Həmin tədbirdə 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri tərəfindən layihənin reallaşdırılmasının texniki və iqtisadi tərəflərini özündə əks etdirən "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş" (Əsas Saziş) adlanan mühüm sənəd imzalanıb.

Belə bir sazişin qəbul edilməsində Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Dahi şəxsiyyətin nüfuzu sayəsində TRASECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin 2001-ci il fevralın 21-dən Bakı şəhərində fəaliyyətə başlayan mənzil-qərargahı da Böyük İpək Yolu boyunca hərəkət edən beynəlxalq yüklərin daşınmasını tənzimləyib. Bundan başqa, daimi katiblik Əsas Sazişə qoşulan ölkələrdə qanunvericilik və maliyyə-iqtisadi mühitlə bağlı məsələlərin həllində mühüm rol oynayıb.

Yeri gəlmişkən, bu barədə tanınmış gürcü siyasətçi Zviad Kvaçantiradze o dövrü xatırlayaraq yazıb ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransın yekununda TRASECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşməsi qərara alındı və 2001-ci il fevralın 21-də katibliyin binasının rəsmi açılışı oldu, özü isə hökumətlərarası komissiyanın birinci katibi seçildi: "Məhz həmin katibliyin açılışında mənim ilk dəfə olaraq Heydər Əliyevlə görüşüm gerçəkləşdi. Dahi şəxsiyyət çıxışında Avropa İttifaqı tərəfindən TRASECA proqramının həyata keçirilməsi ilə əlaqədar tədbirləri yüksək qiymətləndirdi. Heydər Əliyev çıxışında dedi: "Bizim qonaqlarımız bu binanın gözəlliyi haqqında və indiki vəziyyəti barədə yüksək fikirlər söylədilər. Bu binanın Avropa İttifaqının TRASECA proqramına və tarixi İpək Yolunun bərpası üçün görülən işlərə görə ayrılması təsadüfi deyildir. Bu bina Azərbaycanın, Bakının memarlıq abidələrindən biridir. Vaxtilə, XX əsrin əvvəllərində Azərbaycanın böyük şəxsiyyəti, böyük sahibkarı Hacı Zeynalabdin Tağıyev bu binanı yaradıb və burada da uzun müddət işləyib".

Respublikamızın əlverişli coğrafi mövqeyi, bu nəqliyyat dəhlizinin əsas ölkələrindən biri kimi çıxış etməsi və ulu öndər Heydər Əliyevin Şərq-Qərb nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsində tutduğu prinsipial mövqe, yürütdüyü uzaqgörən xarici iqtisadi siyasət, TRASECA layihəsinin reallaşmasına mühüm töhfə verib. Beləliklə, ötən illər ərzində Avropa-Qafqaz-Asiya ölkələri arasında yüklərin daşınmasını reallaşdıran bu layihə Azərbaycan iqtisadiyyatının inkişafında, nəqliyyat infrastrukturunun formalaşmasında ciddi rol oynayıb.

### BTQ dəmir yolu TRASECA-nın beynəlxalq yük daşımalarının səmərəliliyin təmin edir

TRASECA-nın inkişafında respublikamızın çoxşaxəli fəaliyyətinə toxunarkən bir məqamı xüsusilə xatırlatmaq istərdik. Belə ki, TRASECA-nın beynəlxalq yük daşımalarının səmərəliliyinin təmin edilməsində fəal iştirakçı olan Azərbaycan bu dəhlizə üzv 13 ölkə ilə birlikdə nəhəng infrastrukturun inkişafında mühüm rol oynayır, daşımaların həcminin artırılması məqsədilə xüsusi layihələrin həyata keçirilməsinə prioritet istiqamət kimi yanaşır. Bir sözlə, TRASECA boyunca multimodal nəqliyyatın inkişafı, dəhlizin rəqəmsallaşdırılması, sərhəd-keçid prosedurlarının asanlaşdırılması, beynəlxalq avtomobil nəqliyyatı üzrə icazə sistemləri, habelə infrastrukturun inkişafına yönəlmiş digər məsələlərin həllinə böyük önəm verir.

Tarixi İpək Yolunun bərpasında Avropa ilə Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizi mühüm əhəmiyyət daşıyır. Xatırladaq ki, 2017-ci il oktyabrın 30-da istifadəyə verilən bu dəmir yolu Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini reallaşdırmaqla sözügedən yolun polad magistrallar üzərində bərpasıdır.

Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi barədə bəhs edərkən, deyə bilərik ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2007-ci il fevralın 7-də Tbilisidə bu dəmir yolunun tikintisinə dair saziş imzalanıb. Elə həmin ilin noyabrında Gürcüstanın Marabda məntəqəsində dəmir yolu xəttinin təməli, 2008-ci ilin iyulunda isə Qars şəhərində Qars-Gürcüstan sərhədi hissəsinin tikintisinin təməlqoyma mərasimi reallaşıb.

Yeri gəlmişkən, ümumi uzunluğu, təxminən, 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür. Dəmir yolu xəttinin 263 kilometri Gürcüstan, 79 kilometri isə Türkiyə ərazisindən keçir. Ekspertlərin




fikrincə, Bakı-Tbilisi-Qars dəmir yolu Çindən Avropaya yüklərin çatdırılması müddətini dəniz daşımalarına nisbətən iki dəfədən çox azaldır. Sabitlik və təhlükəsizliyə xidmət edən bu dəmir yolu vasitəsilə birinci mərhələdə 5 milyon ton, ikinci mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur.

BTQ dəmir yolunun tarixi İpək Yolu üzərində qurulması region ölkələri üçün layihənin cəlbediciliyini artırmaqla bərabər, Mərkəzi Asiya ölkələrinin–Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, həmçinin Əfqanıstanın Avropaya, eləcə də dünya bazarlarına çıxışını asanlaşdırır, həmin dövlətlərin iqtisadi-ticari əməkdaşlığının möhkəmlənməsində mühüm əhəmiyyət daşıyır.

Sözügedən layihənin önəmli cəhətləri sırasında BTQ dəmir yolunun Gürcüstan ərazisindən keçməklə ölkəmizin Türkiyə ilə bu nəqliyyat vasitəsi ilə birbaşa əlaqəsini yaratması xüsusi yer tutur. Digər əhəmiyyətli cəhət dəmir yolunun Naxçıvan Muxtar Respublikasına qədər uzanması, yaxın gələcəkdə isə Qars şəhərindən Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsinin nəzərdə tutulmasıdır.

### TRASECA transregional ticarətdə önəmli dəhlizdir

Ölkəmizdə uzun illər ərzində nəqliyyat–logistika sisteminin inkişafı ilə bağlı qoyulan investisiya hesabına bu sahədə mühüm layihələr icra edilib, bölgələrdə yeni beynəlxalq aeroportlar, dəmir və magistral yollar istifadəyə verilib, yeni tankerlər, bərələr və yük gəmiləri potensialı gücləndirilib, müasir gəmiqayırma müəssisəsi işə salınıb. Yeni Bakı Dəniz Ticarət Limanının genişləndirilməsini, hava limanları layihələrinin tamamlanmasını gerçəkləşdirib. Bütün bunlar Azərbaycanın məqsədyönlü siyasətinin tərkib hissəsi kimi həm daxili nəqliyyat infrastrukturunun inkişafını sürətləndirib, həm də Azərbaycanı Avrasiyanın nəqliyyat qovşağına çevirib.

Onu da xatırladaq ki, Bakı limanının ərazisi də daxil olmaqla ətraf sahələrdə azad iqtisadi zonanın yaradılması nəzərdə tutulur ki, bu da mühüm nəqliyyat qovşağı kimi limanı daha geniş tranzit və daşıma imkanları ilə təmin edəcək. Məhz elə buna görə də Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin, inkişafının və idarə edilməsinin hüquqi rejimini müəyyən edən "Ələt Azad İqtisadi Zonası haqqında" 18 may 2018-ci il tarixli Qanun imzalayıb. Mütəxəssislərin fikrincə, sözügedən iqtisadi zona regional miqyasda Cənubi Qafqaz, Mərkəzi Asiya, İran, Rusiya və Türkiyənin bir hissəsinin daxil olduğu və 130 milyon insanı əhatə edən bir bazara xidmət göstərməklə yanaşı, Azərbaycanın beynəlxalq yükdaşımalarında, yerli istehsalın təşviqində, "Made in Azerbaijan" brendinin dünya üzrə tanınmasında müstəsna xidmət göstərəcək.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, TRASECA beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycan hissəsi ilə yük daşımaları 2022-ci ildə 51 milyard 420 milyon tondan artıq olub ki, bu da 2021-ci ildəkindən 29,76 faiz və ya 11 milyard 8 milyon ton çoxdur.

Azərbaycan Dövlət Statistika Komitəsindən verilən məlumata görə, qeyd olunan dövrdə TRASECA-nın Azərbaycan hissəsi ilə yük dövriyyəsi 12,649 milyard ton-kilometrdən artıq olub ki, bu da 2021-ci ilin göstəricisindən 31,9 faiz yüksəkdir.

Sonda onu da deyək ki, ikinci Qarabağ müharibəsinin Azərbaycanın qələbəsi ilə nəticələnməsi və münaqişənin başa çatması regionda yeni münasibətlərin yaranmasına zəmin yaradıb. 2020-ci ilin 10 noyabrında imzalanmış üçtərəfli Bəyanatda Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası ilə bağlı müddəa da yer alıb. Bu məqsədlə hazırda Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində fəal işlər aparılır. Bu dəhlizin işə düşməsi isə Azərbaycanın növbəti tarixi uğuru olacaqdır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

**Məqalə "Azərbaycan Dəmir Yolları" QSC və Azərbaycan Mətbuat Şurasının ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında keçirdiyi müsabiqəyə təqdim olunur.**

## Dostluq və qardaşlıq çevrəsində

**Xəbər verdiyimiz kimi, ötən günlərdə ölkəmizin qonağı olmuş tanınmış türkoloq, Türkiyənin İzmir şəhərindəki Egey Universiteti Türk Dünyası Araşdırmaları İnstitutunun yaradıcısı, professor Fikrət Türkmənlə redaksiyamızda görüşüb müsahib olmuşduq. Qardaş ölkədə həmişə "Can Azərbaycan!" deyənlərin ön sırasında olmuş böyük dostumuzla söhbətimizin bir önəmli mövzusu da tarixdən gələn Turan mənəvi ortaqlığından çağdaş Türk Dövlətləri Təşkilatına uzanan yolun gerçəkləri və hədəfləri olmuşdu. Uzman araşdırmaçı ilə II müsahibənin ardını oxucularımıza təqdim edirik.**

# Turan sevdasından Türk dövlətləri birliyinə

## Tarixi köklər üstündə ortaq hədəflər

**(Əvvəli qəzetimizin 25 iyun 2023-cü il tarixli sayında)**

**– Bir fikir də var ki, türk dövlətlərinin təşkilatlanması təkcə qardaş ölkələrlə məhdudlaşmamalıdır.**

– Türk Dövlətləri Təşkilatı yarandığı zaman onun 4 üzv ölkəsi – Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan var idi. Bu gün artıq təşkilatda 5 üzv ölkə birləşib. Özbəkistan 2019-cu ildə TDT-yə üzv olub. 6 türk dövlətindən 5-i bu təşkilatın üzvüdür, Türkmənistan isə müşahidəçi statusuna malikdir. Macarıstan və Şimali Kipr də müşahidəçi qismində təşkilata qoşulub. Macarıstanın bu təşkilata bağlılığı, eləcə də onlarla digər ölkənin müşahidəçi statusu almaq istəyi TDT-nin çəkisinin və perspektivinin yüksək olduğunu göstərir.

Bu birliyin möhkəmlənməsi və güclənməsi türk dünyasının dostu olan, geosiyasi və geostrateji kontekstdə dünya gücləri ilə rəqabət aparan Yaponiya, Cənubi Koreya, İndoneziya kimi güclü dövlətlərin də birliyə daxil olmasını gündəmə gətirir. Məsələn, İsrail Türkiyəyə, həm də Azərbaycana dost dövlətdir. Avropadan qovulan yəhudilər keçmişdə Osmanlı İmperiyasına sığınıblar. Bunu tarix də, onlar da unutmurlar. Bu gün də yəhudi lobbisi və diasporu Türkiyə və Azərbaycanla dostluq edir. Türkiyənin İsraillə münasibətləri "Mavi Mərmərə" hadisəsindən sonra iki ölkə arasında siyasi gərginlik yaratsa da, hazırda əlaqələrin normallaşması prosesində yeni bir tərəqqi dövrü yaşanmaqdadır. Türk dünyası yeni, amma çox ədalətli reallıqları ilə gündəmin fövqündədir.

**– Şükürlər olsun ki, bir zamanlar yuxumuza da girməyən istəklərimizi artıq həyatda görməkdəyik...**

– Bu yolda, həqiqətən, az bir zaman içərisində böyük işlər görüldü, ulu Tanrı nəsib edərsə daha böyük işlər görmək niyyətində olmalıyıq. Hər birimizin bu işdə az, ya çox olsun – rolu, payı olmalıdır. Türk Dövlətləri Təşkilatı dünyada yeni bir güc mərkəzinə çevrilməklə yanaşı, həm də regional iqtisadi-siyasi proseslərə ciddi təsir imkanları olan nüfuzlu bir qurumdur.

**– Açığı, sizin illər öncə gördüyünüz işlər, Egey Universiteti kimi məşhur bir ali məkdəbdə yaratdığınız Türk Dünyası Araşdırmaları İnstitutu türk birliyi yolunda atılan inamlı addımlardan olub. Gün gəlib ki, arzularınız gerçəkləşib.**

– Türk birliyinin kökü tarixdən gəlir. Bir atanın-ananın ayrı salınmış övladları gec-tez bir araya gəlməli idi. Biz buna inandıq və bu hədəfə yön aldıq. Əvvəl çətinliklərimiz oldu. Sonra rəhmətlik baş nazirimiz Eçevitin dəstəyi ilə türkoloji mərkəzi yarada bildik. Fədakar əməyi ilə bu böyük işə yol açanlar da oldu. İndi onların çoxu bu dünyada yoxdur. Qəbirləri nurla dolsun, ruhları şad olsun, qalanlara da can sağlığı arzu edirəm. Gündəmə gətirdiyimiz məramın səmərəsini indi artıqlaması ilə görməkdəyik.

İnanın ki, türk dünyasının müxtəlif məkanlarından gəlib bizdə təhsil alan və ölkəsinə dönüb orada fəaliyyət göstərən tələbələrimin uğuru məni övladlarım qədər məmnun edir. İndi Qazaxıstanın rabitə naziri, eyni ilə Türkmənistanın xarici işlər naziri bizim tələbəmiz olublar. Belə yüksək postlara sahiblənən azərbaycanlı tələbələrimizin də sayı az deyil – sıralarında millət vəkilləri, nazir, komitə sədrləri olanlar da var. Türk dünyasına verdiyimiz bu kadrlar Turan ideyalarının davamçıları və yeni birliyin yaradıcılarıdır. Qazaxıstanda, Qırğızıstanda, eləcə də Azərbaycanda çalışan məzunlarımızın uğur və fəaliyyətləri hər birimizi qürurlandırır.

Əslində, bunlar bizim böyük hazırlıq işlərimizin üzə çıxan bar-bəhrəsidir. Bir dəfə İzmir Ticarət Odasında çalışan bir məmur dostumuz mənə söylədi ki, "xocam, əski sovetlərdə haraya gediriksə sizləri soruşdular". Baxın, bundan da gözəl bir xəbər və dəyər olarmı?! Demək 30 ildən bir az çox ortada olan zəhmətimiz meyvələrini verməkdədir.

**– Azərbaycanla bağlı çalışmalarınız və istəkləriniz barədə bir az geniş danışın...**

– Can Azərbaycan barədə dilə gətirəcəyim fikirlər geniş və əhatəlidir. Birincisi, bu mənim Azərbaycanla şəxsi əlaqələrimə, oradakı dəyərli dostlarıma, fəaliyyətimə aiddir. İkinci, deyəcəklərim institutumuzun yetişdirdiyi kadrların Azərbaycandakı fəaliyyətinə, onların qazandıqları bilik və təcrübələri burada həyata keçirə bilmələri barədədir. Bir az irəlidə dediyim kimi, indi bizim məzunların sorağı türk dünyasının hər yerindən gəlir, daha çox isə Azərbaycandan. Türkiyədə, bizim universitetdə təhsilini başa vurduqdan sonra Azərbaycanda çalışan kardioloq-həkim Rəşad Mahmudov sonrakı illərdə vətənində məşhurluq qazanıb, indi millət vəkilidir. Başqa bir Rəşad adlı məzunumuz urologiya sahəsində tanınmış mütəxəssidir. Eləcə də qaraciyər köçürməsi ilə məşğul olan Mircəlal həkim və başqaları bizim də fəxrimizdir.

Bu siyahını uzatmaq da olar, qısaca söyləyim ki, cəmiyyətin elə bir sahəsi yoxdur ki, bizim Türkiyə məzunlarımız orada olmasın. Müstəqil Azərbaycanın çiçəklənməsi naminə böyük işlər həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin layiqli icraçıları sırasında bizim məzunlarımızın da olması Azərbaycan–Türkiyə qardaşlığının birgə töhfəsidir.

Bir az əvvəldə dediyim kimi, hələ sovetlər dövründə SSRİ Elmlər Akademiyasına ezam olunanda Azərbaycanla ilk tanışlığım başladı. Əslində, bu əyani bir tanışlıq idi, lakin o vaxta qədər Azərbaycan haqqında, onun tarixi və ədəbiyyatı haqqında kifayət qədər məlumatım var idi. Azərbaycan bütün parametrlərdə Türkiyənin Sovetlərə, eləcə də bu məkandakı türk dünyasına açılan önəmli qapısı sayılırdı. Birinci dünya savaşı zamanı yardımlaşma, Bakının Nuru paşa missiyası tərəfindən xilası, AXC dövrü əlaqələri, sovet hökumətinin ilk illərində Azərbaycanın türkçülüyün mərkəzinə çevrilməsi öyünclü keçmişdir.

Təbii ki, bu həqiqətlər bizim tale yolumuzu müəyyən edib, alimlərimizin tədqiqat yönlərinin hədəfidir. Azərbaycan müstəqilliyini qazanandan sonra isə bunlar dövlətlərarası münasibətlərin xarakterini təyin edən amillər oldu. Nə yaxşı ki, indi biz dünyada ən etibarlı, heç kəslə müqayisəsi olmayan müttəfiqlərik. Mənim Azərbaycana yolum haradan başlayır – rəhmətlik Əhməd Cəfəroğlunun Aşıq Qərib haqqında məqaləsindənmi, "Molla Nəsrəddin"dənmi, "Koroğlu"danmı, "Tahir və Zöhrə"dənmi, yaxud digər yüzlərcə ortaq dəyərdənmi? Azərbaycan böyük Türk dünyasının önəmli bir məkanı olmaqla, həmişə mənim qəlbimdə olmuşdur. Buraya gəlişim, insanlarla əlaqələrim və dostluğum bu bağlantıları daha da artırmış və zənginləşdirmişdir.

20 Yanvar hadisələrindən az sonra Bakıya gəldim, daha doğrusu, bu gəlişimlə sıxıntılarımı, üzüntülərimi dəfn etdim. Azadlıq qanla alınır, əbəs yerə deyilməyib: "bayraqları bayraq edən üstündəki qandır". 1990-cı ilin mayında qaldığım oteldən sübhə yaxın rus qoşun hissələrinin nizamsız bir axınla o dönəmki Lenin meydanını (indiki "Azadlıq") tərk etdiyini görəndə Xəzərin üstündən doğan günəş zərrin şəfəqləri ilə qaldığım otağı işıqlandırmaqda idi. Mən onda bu günəşin təkcə mənim otel otağıma yox, bütün Azərbaycanın üzərinə doğduğunu düşünmüşdüm, üstəlik, bir şeir də yazmışdım.

Bu gün isə nələrə nail olduğumuzun fərqindəyəm: Azərbaycan və Türkiyə daim bir-birinin yanındadır. Ən önəmlisi, Azərbaycan bu gün dünyada səsi eşidilən ölkələrdən biridir. Ən böyük problemimiz olan Qarabağ məsələsinin həlli isə dünyaya yeni mesajlar verd – bu zəfər türk dünyasının yeni dirçəlişi idi. Başqa problemlər də həllini tapacaq, Zəngəzur dəhlizi də açılacaq, sadəcə, məkirli və iküzlü dünyanın planlarını birliyimizlə, inamla, inadla dəf etməliyik. Ona görə də harada olsaq da türk mənəvi birliyi çevrəsində yaşamalı, çalışmalıyıq. Tez-tez görüşməli, yeni hədəflər tapmalıyıq.

**– Ölkəmizlə əlaqələriniz bu gün də qalmaqdadır və indiki görüşümüz də bunun canlı təsdiqidir.**

– Dəyərli dostum, Türk dünyasının da yaxşı tanıdığı Kamal Abdullanın dəvəti ilə bu dəfə yenidən doğma Bakıdayam. Amma o qədər görüşmək istəyənlər, qonaq dəvət edənlər var ki, çatdıra bilmirəm. Vaxt edib görüşə bilmədiyim və bunun üçün məni məzəmmət edən dostlarımın iradlarını qəbul etsəm də, onların vaxt darlığını başa düşmələrini arzu edərdim.



Yeri gəlmişkən, xatırladım ki, Azərbaycandan özümə həmişə hörmət və məhəbbət görmüşəm və bunu da xidmətlərimin bəhrəsi kimi qiymətləndirmək ağlımdan belə keçməyib. Bu qədirbilənlik Azərbaycanın timsalında türk dünyasına verilən dəyərləridir. 1992-ci ildə Bakı Dövlət Üniversitetində mənə "Fəxri doktor" adı verildi. Türkiyə Prezidenti Süleyman Dəmrəldən "Türk dünyasına xidmət" mükafatını alanda o anların sevinc və öyüncünü yenidən yaşadım. Bu mənim elmi fəaliyyətimə verilən dəyər olmaqla, həm də Azərbaycana bağlılığımın yadigar nişanəsidir.

Azərbaycanlı dostlarla bağlı o qədər zəngin xatirələr var ki, qardaş bildiyim bu insanlardan kənarda durmaq mümkün deyil. Onların böyük bir qismi – Rəsul Rza, Bəxtiyar Vababzadə çox əzizdir.



Anar, Elçin, İsa Həbibbəyli, Kamal Abdulla, Əsgər Rəsulov, Oqtay Səmədov, Muxtar İmanov, Adil Cəmil, Rüstəm Behrudi, İntiqam Qasımzadə və çoxsaylı digər dostlarıma cansağlığı, birgə işimizdə arzu edirəm. Budəfəki Bakı səfərimdə onların bir-ikisi ilə görüşə bildim, bəziləri ilə telofonda danışıb doğma səslərini eşitdim.

Bir də xatırlatmaq istəyirəm ki, bu günlərdə daha fəal olmalıyıq, Böyük Türk dünyasını vaxtı ilə xəyal olan bugünkü birliyini görmək ən böyük xoşbəxtliklərdəndir. Onun inkişafı üçün daha səfərbər olmalı, gənclərimizə bu yolda daha ciddi dəstək olmalıyıq.

**– Türk dünyasına olan böyük sevginiz, ulu Turan idealınız yeni nəsil araşdırmaçılara örnəkdir. Bu dəyərlərdən danışmaqdan heç vaxt yorulmadınız...**

– Yaratdığınız fürsət üçün çox minnətdaram. Belə görüş və söhbətlərin səmərəli olduğuna şübhəm yoxdur. Biz türkük deməklə, bir yerdə olmaqla kiminsə haqqını tapdalamırıq, başqalarının hüquqlarını pozmaq, kiməsə təcavüz niyyətimiz də yoxdur. Dilimizi, dinimizi, varlığımızı, milli kimliyimizi uca tutduğumuz kimi, onu qorumaq, ucaltmaq və dünyaya yaymaq niyyətindəyik. Dünyanın türkün ədalətinə və haqq işinə şübhəsi olmamalıdır. Ona görə də bu görüşlər və söhbətlər türk dünyasının hər bir insanı üçün gərəklidir.

Əminəm ki, danışdıqlarımızın əhəmiyyəti və faydası düşündüyümüzdən də çox olacaq, çünki türkə aid hər dəyəri sevdirmək niyyətindəyik. Mən bu gerçəyə inananlardanam. Bir olmağımız qüdrətli olmağımızdır, güclü olmağımızdır. Cümhuriyyəti belə qurduq. Əl-ələ tutduğumuz zaman uçuruma düşmərik, yadlara yem olmarıq.

Günümüz üçün olduqca vacib olan bir məsələni də mütləq qeyd etmək lazımdır: Qarabağda qazanılan son qələbə təkcə Azərbaycanın zəfəri deyil, bütün türk dünyasının öyünclü uğurudur. Sivil dünya bunu bu cür də qəbul edir.

**– O da var ki, Türkiyənin Azərbaycana dəstəyi bütün türk düşmənlərini qorxutdu, dayandırdı.**

– Bu Azərbaycana münasibətdə Türkiyənin qardaşlıq borcu, dünya miqyasında isə ədalətə sədaqəti idi. Qarabağın azadlığı uğrunda savaş çağdaş tarixdə böyük önəm daşıdı və xalqlarımıza güvən verdi. Biz türk birliyinə bax bu zəfər yolu ilə gedirik.

**– Fikrət bəy, maraqlı söhbət üçün çox sağ olun! Turan sevdası yolunda çalışmalarınızda sizə yeni uğurlar diləyirik.**

*Söhbəti apardılar:*
*Namiq QƏDİMOĞLU,*
*Tahir AYDINOĞLU,*
*"Xalq qəzeti"*

## Sudeyf İmamverdiyev – 85

# Təbabətdə öz məktəbini yaratmış uroloq-cərrah

**1997-ci il yanvarın 19-da ulu öndər Heydər Əliyev M.Qədirli adına Mərkəzi Hövzə Xəstəxanasında müalicə olunan Bəxtiyar Vahabzadə ilə görüşü zamanı şairin onu əməliyyat etmiş professordan razılıq etməsindən məmnunluğunu ifadə edib: "Təşəkkür edirəm ki, cərrahımız belə yaxşı əməliyyat aparıbdır. O, Yeni Azərbaycan Partiyasının üzvüdür və həmin partiyanın siyahısı ilə Milli Məclisə deputat seçilib. Biz fəxr etməliyik ki, Milli Məclisdə bu cür mütəxəssislər, ziyalı adamlar var".**

Söhbət Sudeyf İmamverdiyevdən gedirdi – O zaman Azərbaycan Tibb Universitetinin urologiya kafedrasının müdiri olmuş, Əməkdar elm xadimi, I və II çağırış Milli Məclisin deputat seçilmiş təbibdən.



Artıq həmin vaxtdan 26 il ötür. Bu günlərdə elm və peşə yollarında daim inamla irəliləmiş Sudeyf İmamverdiyevin 85 yaşı tamam olur. Onun haqqında düşünəndə əmin olursan ki, Tanrının verdiyi ömür payını mənalı, müdrikcəsinə yaşaya bilənlərdəndir. Alim, cərrah, pedaqoq, ictimai-siyasi xadim, ən başlıcası, yurdsevər vətəndaş olan akademik Sudeyf İmamverdiyev bütün bu fəaliyyət sahələrini bir ömrə sığışdıra bilmiş bənzərsiz şəxsiyyətdir. Təkcə Azərbaycanda deyil, dünya urologiyasında da bir çox ilklər məhz soydaşımıza məxsusdur.

O, 1977-ci ildə Azərbaycanda ilk dəfə olaraq, 68 yaşlı kişidə yaxın və uzaq nəticələri qənaətbəxş olan sidikliyin yayılmış şişinə görə "Sistektomiya, ureterosiqmostomiya" əməliyyatını həyata keçirib. 1979-cu ildə isə Sovet İttifaqında ilk və ağır əməliyyatlardan sayılan, vazorenal hipertoniyası olan xəstədə müvəffəqiyyətlə yeganə funksiyası olan böyrəyin autotransplantasiyası əməliyyatını aparıb.

Görkəmli uroloq-cərrah sidikliyin yayılmış şişlərinin və böyrəklərin mərcanvari və çoxlu daşlarının cərrahi müalicəsiylə geniş məşğul olmağa başladığı üçün 1983-cü ildə M.Qədirli adına xəstəxananın 30 çarpayılıq urologiya şöbəsinə rəhbərlik ona tapşırılıb. Alimin gərgin səyi nəticəsində bu şöbənin işi əsaslı dərəcədə canlandırılıb və çarpayıların sayı 45-ə çatdırılıb. Azərbaycanda herontologiya və heriatriya elminin inkişafında da böyük xidmətləri olan Sudeyf İmamverdiyev 1984-cü ildən Azərbaycan Herontologiya Cəmiyyətinin sədri, Ümumittifaq Herontoloqlar və Heriatrlar Cəmiyyətinin üzvü olub. 1986-cı ildə isə respublikanın baş herontoloq və heriatrı vəzifəsini daşıyıb.

Professor İmamverdiyev 1990-cı ildən Azərbaycan Tibb Universitetinin urologiya kafedrasına rəhbərlik edir. Elmi kadrların yetişdirilməsində, tədris işlərinin keyfiyyətinin yaxşılaşdırılmasında müstəsna xidmətləri olub. Onun rəhbərliyi altında 21 fəlsəfə doktorluğu, 10 elmlər doktorluğu dissertasiyası müdafiə edilib. Hazırladığı alimlər sırasında xarici ölkə vətəndaşları da var. Görkəmli alim urologiyanın müxtəlif problemlərinə həsr olunmuş 350-dan çox elmi məqalənin, 10 monoqrafiyanın, 6 dərs vəsaitinin, 5 metodik vəsaitin, 13 səmərələşdirici təklifin və ixtiranın müəllifidir.

O, tələbələrin böyük rəğbətini qazanmış müəllimdir. Keçirdiyi məşğələlər, oxuduğu mühazirələr nəinki tələbələr üçün, hətta formalaşmış həkimlər üçün də çox gərəklidir. Azərbaycan və rus dillərində yüksək səviyyədə tədris etməyi bacaran, ingilis dilində sərbəst oxuyub-danışa bilən Sudeyf İmamverdiyevin urologiya məktəbi artıq göz qabağındadır. Onun rəhbərlik etdiyi klinikada azərbaycanlılarla yanaşı, Fələstindən, İordaniyadan, İrandan, Türkiyədən gəlmiş həkimlər məktəb keçib və keçməkdədirlər. Alimin geniş fəaliyyəti respublikamızdan kənarda da yüksək qiymətləndirilmişdir. 1993-cü ildə Avropa Uroloqlar Assosiasiyasının həqiqi üzvü, 2001-ci ildə Gürcüstan Uroloqlar Assosiasiyasının fəxri üzvü, həmin ildə Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Bu gün Sudeyf müəllimin əhval-ruhiyyəsi xüsusilə yüksəkdir. Axı, son 30 ildə ilk dəfədir ki, yubileyini məhz Qarabağı azad etmiş Azərbaycanda qeyd edir. Bu yerdə onun gəncliyinin yaddaşında acı bir xatirəsi yada düşür: "1960-cı ildə 4-cü kursda idim, Xankəndidə təcrübə keçirdim. Palatada erməni millətindən olan baş terapevt xəstələrə baxırdı. Poliklinika müdiri həm də xəstəxananın həkimi idi. O, xəstə qadına baxanda dedi:

– Bura gələndə vəziyyəti yaxşı deyildi, indi sağalmışdır.

Təbriz ləhcəsində danışan xəstə qadın təşəkkür etdi və tam yaxşı olması üçün bir neçə gün artıq qalmaq istədiyini bildirdi. Həkimin üzü döndü, rus dilində deyinməyə başladı:

– Bunlar necə adamlardır? Neçə vaxtdır müalicə edirəm, çıxmaq istəmir. Qədirbilməz heyvan!

Baş terapevt buna reaksiya vermədi, mənsə dözə bilməyib dilləndim:

– Siz xəstə haqqında belə danışmaqdan utanmırsınız? Bununla bizə nə öyrədirsiniz?

Erməni həkim cavab vermədən acıqla qapını çırpıb getdi. Bir neçə dəqiqədən sonra məni baş həkimin otağına çağırdılar. Baş həkim mənə:

– Siz niyə xuliqanlıq edirsiniz? – dedi. – Nə haqla təcrübəli həkimə qarşı kobudluq edirsiniz? İnstituta və nazirliyə yazıb tələb edəcəyik ki, sizi xaric etsinlər.

Mən də dedim ki, görünür, institutda bizi düz öyrətməyiblər. Səhvən öyrədiblər ki, xəstə ilə nəvazişlə, qayğı ilə rəftar etmək lazımdır. Demə, xəstələrlə burada gördüyümüz kimi davranmaq lazımmış...

Etirazımdan və uzun mübahisələrdən sonra məni "bağışladılar".

Sudeyf İmamverdiyevin yubiley tədbirləri Azərbaycanın qədim tarixi şəhəri Qəbələdən başlayıb. Uroloq, androloq və ginekoloqların toplaşdığı bu konfrans akademikin 85 illiyinə həsr olunub. O, konfransın təşkilatçı və iştirakçılarına minnətdarlığını bildirsə də, bir həkim, alim, vətəndaş olaraq bugünkü səhiyyənin problemləri barədə də fikir və təkliflərini söyləyib.

Milli Qurtuluş Günündə Şuşa Bəyannaməsinin ikinci ildönümü münasibətilə bu şəhərdə təşkil olunmuş konfransda iştirakı yaddaşında xoş duyğular yaradıb. Türkiyənin Ədalət və İnkişaf Partiyası və Yeni Azərbaycan Partiyası ilə birgə keçirilən beynəlxalq konfransdan, xüsusilə partiya sədrinin l müavini, Türk Dövlətləri Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımla səmimi görüşlərdən zəngin təəssüratla ayrılıb.

Sudeyf müəllim həm də nümunəvi ailə başçısıdır. Sözün həqiqi mənasında, ömürgün dostu olan, kurortoloq alim, Əməkdar həkim Sevda xanım Nəsrullayeva ilə iki dəyərli övlad böyüdüblər. Onların oğlu Cavid İmamverdiyev tanınmış rejissordur, Akademik Musiqili Teatrının baş rejissorudur. Qızları Sevinc xanım tibb üzrə fəlsəfə doktorudur, Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda elmi katibdir. Estafeti nəvələr də uğurla davam etdirirlər. Murad dünyanın ən məşhur elm ocaqlarından olan Mançester Universitetini bitirib, PAŞA Sığorta Şirkətində departament rəhbəridir. Şeyda ADA Universitetini bitirdikdən sonra magistr təhsilini Londonda alıb. Amerika–Azərbaycan Ticarət Palatasında baş mütəxəssisdir. Bu günlərdə nişanlısı Hüseyn Mustafabəyli ilə babasına toy sevinci bəxş edəcək. Bulatın tələbə adı almasının isə sevinci babasını, az qala, bir ömür cavanlaşdırıb. Dünyanın bir çox ölkələrindən təhsillə bağlı təkliflər alan Bulat babasının razılığı ilə Belçikanı seçib.

…Sudeyf müəllim uşaq vaxtı doğma Astarada futbol komandasının kapitanı olub. O, bu gün də kapitandır. Azərbaycan uroloqlarının hər il Qəbələdə keçirilən konfransından sonra keçirilən futbol yarışında ən çox qol vuran Sudeyf müəllim olur. Futbolda kapitan olan Sudeyf İmamverdiyev dünya urologiyasının generalları sırasındadır.

Sevimli loğmanımıza sağlam və uzun ömür, yeni elmi-təcrübi uğurlar arzulayırıq.

*Sevda ƏLİBƏYLİ,*
*"Söz" jurnalının baş redaktoru*

# 17-ci Bakı Yay Enerji Məktəbinin açılış mərasimi

**İyulun 3-də ADA Universitetinin, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR), "BP Azerbaijan", "Kolin", TotalEnergies" və "Masdar" şirkətlərinin birgə təşkilatçılığı ilə 17-ci Bakı Yay Enerji Məktəbinin açılış mərasimi keçirilib.**

Açılış mərasimində ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev, energetika nazirinin müavini Elnur Soltanov, SOCAR-ın prezidenti Rövşən Nəcəf, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz iştirakçıları salamlayıblar.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən tədbirdə qeyd edilib ki, builki yay məktəbinin formatında dəyişiklik həyata keçirilib. Belə ki, proqram ilk dəfə həm Bakıda, həm də Bakıdan kənarda, Qazaxıstanın Aktau şəhərində keçiriləcək.

Çıxışçılar bildiriblər ki, sözügedən proqram neft və qaz ehtiyatları ilə zəngin Azərbaycanın, eyni zamanda, alternativ enerjiyə keçidlə bağlı təcrübəsini xarici ekspertlərlə paylaşmaq üçün əlverişli platformadır.

Rektor Hafiz Paşayev Bakı Yay Enerji Məktəbinin 2007-ci ildən etibarən hər il keçirildiyini xatırladıb. O bildirib ki, proqram yerli və xarici iştirakçılara Xəzər hövzəsi ölkələrinin enerji və ətraf mühit məsələlərinə dair daha dərin məlumat əldə etmələrinə fürsət verir.

Proqram çərçivəsində iştirakçılara enerji iqtisadiyyatı, enerji hüququ, təbii sərvət gəlirlərinin idarə edilməsi, bərpa olunan mənbələr, davamlılıq, iqlim dəyişikliyi və enerji geosiyasəti daxil olmaqla geniş mövzuları əhatə edən mühazirələr və interaktiv sessiyalar keçiriləcək. Həmin mövzular müxtəlif akademik qurumların, dövlət və özəl sektorun aparıcı yerli və beynəlxalq ekspertləri tərəfindən tədris ediləcək.

# Dövlət sahibkarlığın uğurlarının qarantıdır

## *1500-ə yaxın iş adamı Qarabağ və Şərqi Zəngəzurda çalışmaq istəyir*



(əvvəli 1-ci səhifədə)

Hazırda ölkədə inkişafın əsas qüvvəsi sahibkar olduğundan, dövlət bütün qüvvəsini və resurslarını rəqabətli və dayanıqlı iqtisadi fəaliyyət mühitinin dəstəklənməsinə, eyni zamanda, biznes şəraitinin daha da yaxşılaşmasına yönəldir. Bu model biznesin inkişafını, bu sahədə yalnız bacarıqların bütün sahələrdə uğurun fundamental şərti olacağını diqtə edir.

Ökədə biznesin inkişafını dəstəkləyən infrastrukturun yaradılması, kiçik və orta biznesin müxtəlif sənaye parkları və məhəllələrinin, turizm və rekreasiya zonalarının fəaliyyətinə cəlbinin sürətləndirilməsi, eyni zamanda, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracının stimullaşdırılacağı istiqamətlərində layihələr də uğurla gerçəkləşdirilir.

İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) Azərbaycanda mikro, kiçik və orta biznesin inkişafı istiqamətində müxtəlif dəstək mexanizmləri ilə məqsədyönlü fəaliyyət göstərir. İqtisadiyyat naziri Mikayıl Cabbarov bununla bağlı "Tvitter" səhifəsində verdiyi məlumatda biznesin qurulması və inkişafına, innovativ ideyaların reallaşdırılmasına dəstək istiqamətində agentliyin fəaliyyətini yüksək dəyərləndirir.

Qeyd edək ki, respublikamızda mikro, kiçik və orta sahibkarlıq sahəsində idarəçiliyin müasir tələblərə uyğunlaşdırılması, kiçik və orta biznes sektorunun inkişafının dəstəklənməsi və ölkə iqtisadiyyatında rolunun artırılması KOBİA-nın başlıca fəaliyyət istiqamətləridir. Agentliyin yaydığı məlumata əsasən, 2018-2021-ci illər üzrə kiçik və orta biznes subyektlərinin sayı 45 faiz artaraq 360 minə yaxın olub. Azərbaycanda bu cür qurumların 97,3 faizi mikro, 1,9 faizi kiçik və 0,8 faizi orta sahibkarlıq subyekti kimi qeydə alınıb.

Yeri gəlmişkən, hazırda dünyada mikro, kiçik və orta sahibkarlıq subyektlərinin yaradılması və inkişafına xüsusi diqqət yetirilir. Bu məsələ iqtisadiyyatın tərəqqisində, şaxələnməsində prioritet istiqamət hesab edilir. Dünya üzrə şirkətlərin təqribən 90 faizinin mikro, kiçik və orta biznes subyektləri olması da bunun bariz ifadəsidir. Ümumiyyətlə, həmin sahibkarlıq subyektlərinin təqribən 60-70 faizi dünyada məşğulluğun təmin edilməsində önəmli rol oynayır və ümumi daxili məhsulun (ÜDM) 50 faizi həmin qurumlar tərəfindən təmin olunur.

Kiçik və orta biznes subyektləri iqtisadi artımın və sosial inkişafın mühərrikləri hesab olunur. Onların dayanıqlı və davamlı inkişafa, məşğulluğun təmin edilməsinə, yoxsulluğun azaldılmasına, sahibkarlığın və innovasiyaların stimullaşdırılmasına və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına verdiyi töhfə yüksək dəyərləndirilir. Bax, elə buna görə də, BMT Baş Assambleyasının müvafiq qətnaməsinə əsasən, 2017-ci ildən etibarən hər il iyunun 27-si dünyada Mikro, Kiçik və Orta Müəssisələr Günü kimi qeyd edilir. Məqsəd kiçik və orta biznes subyektlərinin davamlı inkişafa və iqtisadiyyata verdiyi töhfələr barədə ictimaiyyəti daha geniş məlumatlandırmaqdır.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da kiçik və orta biznes subyektləri iqtisadiyyatın hərəkətverici qüvvəsi, dayanıqlı və davamlı inkişafın açarıdır.

KOBİA-nın məlumatında bildirilir ki, Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli qərarı ilə "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin yeni bölgüsü meyarları" təsdiq olunub. Bu meyarlara əsasən, mikro sahibkar işçilərinin sayı 10-dək, illik gəliri 200 min manatadək olan sahibkardır. İşçilərinin sayı 11-50 arasında, illik gəliri 3 milyon manatadək olan sahibkar kiçik sahibkar hesab olunur. Orta sahibkarın isə işçilərinin sayı 51-250 arasında, illik gəliri isə 3-30 milyon manat arasında dəyişir.

Azərbaycanda sahibkarların 99 faizdən çoxunu kiçik və orta sahibkarlıq subyektləri təşkil edir. Fəaliyyətdə olan həmin subyektlərinin 97,3 faizi mikro, 1,9 faizi kiçik və 0,8 faizi orta sahibkarlıq subyektləridir. Ölkəmizdə kiçik və orta sahibkarlıq subyektləri əsasən ticarət, kənd təsərrüfatı, tikinti, emal, logistika, sənaye, turizm, ictimai iaşə, nəqliyyat və digər sahələrdə fəaliyyət göstərirlər.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2018-2021-ci illər üzrə kiçik və orta sahibkarlıq subyektlərinin sayı 45 faiz artaraq 360 minə yaxın olub. Bu dövr ərzində onların qeyri-neft ÜDM-də payı 23,5 faizdən 26,6 faizə yüksəlib. 2021-ci illə müqayisədə 2022-ci ildə həmin subyektlər üzrə dövriyyə 19 faiz, daxilolmalar 61 faiz artıb, 4600-dən çox kişik və orta sahibkarlıq subyektinin meyarı böyüyüb.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində hazırlanan ortamüddətli sosial-iqtisadi inkişaf strategiyasında kiçik və orta sahibkarlığın ölkədə iqtisadi artımın və məşğulluğun əsas mənbəyinə çevrilməsi strateji hədəflərdən biri olaraq müəyyənləşdirilib. Ölkəmizdə sahibkarlar, o cümlədən kiçik və orta biznes subyektləri dövlətin geniş dəstək tədbirləri ilə əhatə olunublar. KOBİA KOB sektorunun tənzimlənməsi, biznesə dövlət xidmətlərinin göstərilməsinin yaxşılaşdırılması, KOB maraqlarının müdafiəsi, onların bilik və innovasiyalara, bazarlara və maliyyəyə çıxışının yaxşılaşdırılması istiqamətində fəaliyyət göstərir, KOB-lara bir sıra dəstək və xidmətlər təqdim edir.

İndiyədək KOBİA-nın KOB inkişaf mərkəzləri tərəfindən KOB-ların biznes biliklərinin artırılması üçün ödənişsiz olaraq təqribən 40 minə qədər KOB subyektinin faydalandığı 3 mindən çox təlim keçirilib, 5500-dək sahibkarın yararlandığı məsləhət xidməti göstərilib, 800-ə yaxın KOB subyekti üçün ödənişsiz biznes plan hazırlanıb. Biznesə başlamaq və mövcud fəaliyyətin genişləndirilməsində önəmi nəzərə alınaraq sahibkarların müraciəti əsasında 21, agentlyin təşəbbüsü ilə isə 26 daxili bazar araşdırması aparılıb.

KOB-ların rəqəmsallaşması və innovativ ideyalarının dəstəklənməsi üçün KOBİA tərəfindən 100-ə yaxın "Startap" şəhadətnaməsi verilib ki, bu sənəd onları 3 il müddətinə innovasiya fəaliyyətindən əldə etdiyi gəlirlər üzrə mənfəət və gəlir vergisindən azad edib.

*V.BAYRAMOV, "Xalq qəzeti"*

### Ekspert rəyi



**Vəkil HÜSEYNOV, iqtisadçı-ekspert**

Bu gün Azərbaycan hökuməti qeyri-neft sektorunu dinamik inkişaf etdirməyi, bu sahəyə investisiya qoyuluşunu artırmağı qarşıya prioritet vəzifə kimi qoyub. Məhz bunun nəticəsidir ki, 2016-2022-ci illər ərzində 470-dən çox sahibkarlıq subyektinə 570-dən artıq investisiya təşviqi sənədi verilib, sahibkarların həyata keçirdikləri layihələr nəticəsində 5,5 milyard manatdan çox investisiya yatırılıb, 38 minədək yeni iş yeri yaradılıb.

Kiçik və orta biznes strukturlarının maliyyə imkanlarının yaxşılaşdırılmasına dəstək məqsədilə onların təhsil, elm-tədqiqat və dəstək istiqamətlərində layihələrinin maliyyələşdirilməsi mexanizmi çərçivəsində indiyədək 39 bu cür subyektlərə 750 min manatdan çox qrant vəsaiti verilib. Bütün bunlarla bərabər, kiçik və orta biznes strukturlarının ticarət şəbəkələrinə çıxışına dəstək mexanizmi çərçivəsində 25 sahibkarın məhsullarının müxtəlif ticarət şəbəkələrində satışı təmin olunub.

Sahibkarlara vahid məkanda dövlət-biznes və biznes-biznes xidmətlərinin göstərildiyi "kiçik və orta biznes evləri"nin sayı üçə çatıb, bu mərkəzlərdə biznes subyektlərinə göstərilən xidmətlərin sayı isə 300 mini keçib. Bugünədək işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq və investisiya yatırmaq istəyən sahibkarlardan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə 1500-ə yaxın müraciət daxil olub ki, onlardan 70 faizə yaxını yerli biznes subyektlərinin müraciətləridir.

Azərbaycan Prezidenti tərəfindən 2 dekabr 2022-ci il tarixində təsdiq edilən "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Qanunda kiçik və orta biznes subyektlərinə göstərilən dövlət dəstəyinin təşviqi forma və metodları müəyyənləşdirilib.



# Təbii fəlakətdən zərər çəkən fermerlərə kompensasiya veriləcək

## *Aqrar sığorta sahənin 95 faizini əhatə edir*

**Aqrar Sığorta Fondu ötən günlər ölkəmizdə müşahidə olunan güclü yağışlar, dolu və daşqınlarla bağlı fermerlərə müraciət edərək baş verən sığorta hadisələri barədə fonda məlumat verməyə çağırıb.**

Xatırladaq ki, iyun ayının son günlərində Azərbaycanın müxtəlif bölgələrində hava şəraitinin kəskin dəyişməsi, intensiv yağışlar çaylarda suyun artmasına, sel və daşqınlara səbəb olub. Bununla yanaşı, müxtəlif bölgələrdə çoxsaylı dolu vurma halları da qeydə alınıb.

Rəsmi məlumatlara görə, iyunda ayrı-ayrı bölgələrdə ayın 11-24 günü yağış yağıb. Eyni zamanda, ölkə üzrə dolu yağması halları iki dəfədən çox artıb. Belə ki, ötən ilin iyun ayında 18 dolu hadisəsi qeydə alındığı halda, cari ilin eyni dövründə ölkənin ayrı-ayrı bölgələrində 38 belə hal müşahidə olunub. Bundan əlavə, ötən ay ölkə üzrə 55 sel hadisəsi qeydə alınıb ki, bu da rekord göstərici hesab olunur.

Fondun məlumatında bildirilir ki, iyunun son günlərində, xüsusilə İsmayıllı, Tərtər, Goranboy, Daşkəsən və Şamaxı rayonlarında, eləcə də Gəncə şəhərində vətəndaşların əmlakına, həyətyanı və əkin sahələrinə, təsərrüfatlara, xüsusilə də heyvandarlıq və arıçılıq təsərrüfatlarına ciddi zərər dəyib.

Aqrar Sığorta Fondu baş vermiş təbiət hadisələri ilə bağlı müraciət yayaraq bəyan edib ki, təbii fəlakətlər, dolu, leysan yağışları, sel-subasma kimi hadisələr aqrar sığorta tərəfindən qarşılanır. Bu hallar nəticəsində zərər görmüş sığortalı təsərrüfatlara kompensasiya ödəniləcək. Fond bu səbəbdən sığortası olan fermer və təsərrüfat rəhbərlərini əkin sahələrinə və təsərrüfatlara baxış keçirməyə, onlara dəymiş zərər barədə quruma məlumat verməklə bağlı çağırış edib.

Fonddan bildirilib ki, müraciət qeydə alındıqdan sonra aqrar sığorta ekspertləri ərazilərə ezam olunacaq, dəyən zərər qiymətləndiriləcək və qurum tərəfindən fermerlərə kompensasiya ödəniləcək. "Hazırda fondun mütəxəssisləri və aqrar sığorta ekspertləri ölkənin müxtəlif bölgələrinə ezam edilib və sığorta hadisələrini qeydə almaqla məşğuldurlar",– deyə fonddan bildirilib. Bununla yanaşı, Aqrar Sığorta Fondu bir daha fermer və təsərrüfat rəhbərlərini öz təsərrüfatlarını risklərdən qorumaq üçün aqrar sığorta vasitəsilə sığortalanmağa çağırıb.

Ümumilikdə, cari ilin ötən dövrü ölkəmiz üçün qeyri-sabit hava şəraiti ilə xarakterizə olunub. Bölgələrdə yağan leysan yağışları, sel-subasma, güclü külək, dolu hadisələri nəticəsində ayrı-ayrı fermerlərə məxsus buğda, arpa, pambıq və tərəvəz sahələrinə, eləcə də meyvə bağlarına ciddi ziyan dəyib. Təbiət hadisələrindən isə ən çox Gədəbəy, Daşkəsən, Tovuz, Göygöl, Naftalan, Yevlax, Qusar, Quba, İsmayıllı, Goranboy, Şabran, Şəki, Qax və Cəlilabad rayonlarının fermerləri ziyan görüblər. Bu səbəbdən ötən müddətdə Aqrar Sığorta Fonduna daxil olan müraciətlərin sayı xeyli artıb. Fonddan aldığımız məlumata görə, son aylar Şəki-Zaqatala, Dağlıq Şirvan və Qarabağ iqtisadi rayonlarından dəymiş ziyanla bağlı daha çox müraciət daxil olub. Müraciətlər, əsasən, fırtına və dolu kimi sığorta predmetləri ilə bağlıdır. Bütövlükdə isə, ilin əvvəlindən Aqrar Sığorta Fonduna 900-dən çox müraciət daxil olub ki, bunun da yarıdan çoxu may-iyun aylarında qeydə alınıb.

Aqrar Sığorta Fondundan verilən məlumata görə, 2023-cü ilin ötən dövründə qurum tərəfindən ölkə üzrə 400 min hektar əkin sahəsi sığortalanıb. Son zamanlar baş vermiş təbiət hadisələri ilə bağlı müstəqil aqrar sığorta ekspertləri müntəzəm olaraq bölgələrə ezam olunurlar. Onların iştirakı ilə dəymiş zərərin qiymətləndirilməsi aparılır. Hazırda payızlıq və yazlıq əkinlərin biçini davam etdiyi üçün öncədən zərər görmüş əkin sahələrində yekun qiymətləndirmə aparılır. Bu proses başa çatdıqdan sonra fermerlərə dəymiş zərərlər ödəniləcək.

Yeri gəlmişkən, ölkəmizdə Aqrar Sığorta Fondunun yaradılmasından sonra aqrar sığorta xidmətlərinin əlçatanlığı xeyli artıb. Müqayisə üçün deyək ki, 2020-ci ildə bitkiçilik sığortası üzrə toplanan vəsait cəmi 1700 manat təşkil etdiyi halda, 2021-ci ildə bu rəqəm 6 milyon manata, ötən il isə 9 milyon manata çatıb. Bu da fermerlərin və təsərrüfat sahiblərinin Aqrar Sığorta Fonduna olan inamından irəli gəlir. Fonddan verilən məlumata görə, ötən il 2 milyon 400 min manatdan çox sığorta ödənişi həyata keçirilib. Bununla yanaşı, il ərzində bağlanmış müqavilələr üçün 1 milyon manatlıq ehtiyat yaradılıb.

Fondun məlumatına görə, ölkəmizdə sığortalanan bitkilərin sayı 14-dən 41-ə çatdırılıb. 2021-ci ildə müxtəlif bitki növləri üzrə 27 min müqavilə bağlandığı halda, ötən il bu rəqəm 46 min təşkil edib. Bir məqamı da diqqətə çatdıraq ki, 2022-ci ildə bitkiçilik sığortası üzrə 2,6 milyon manat sığorta ödənişi edilib. Müqayisə üçün qeyd edək ki, 2021-ci ildə bu məbləğ cəmi 151 min manat olub. Bu da 55 dəfədən çox artım deməkdir.

Aqrar sığortanın bir istiqaməti də quraqlıqla bağlıdır. Qeyd edək ki, cari ilin ötən dövründə müşahidə olunan yağıntılı hava şəraitinə baxmayaraq, qarşıdan bizi isti və quraq yay günləri gözləyir. Azərbaycanda isə kənd təsərrüfatı sahəsində ortaya çıxan əsas risklərdən biri də quraqlıqla bağlıdır. Artıq yaxın gələcəkdə ölkəmizdə bu riskin də sığorta xidmətlərinə daxil edilməsi gözlənilir. Bununla bağlı Aqrar Sığorta Fondu 2023-2025-ci illərdə Azərbaycanda pilot lahiyə olaraq quraqlıq sığortasına başlamaq niyyətindədir. Bu məqsədlə hazırda İsveçrə və Türkiyə ilə təcrübə mübadiləsi aparılır. Eyni zamanda, ölkədə yağıntıların qeyri-bərabər paylanması ilə əlaqədar indeks əsaslı quraqlıq sığortasının tətbiqi istiqamətində araşdırmalar davam etdirilir.

Ümumiyyətlə, Aqrar Sığorta Fondunun fəaliyyət göstərdiyi qısa müddət ərzində aqrar sığorta sistemi ölkənin bütün bölgələrinə yayılaraq istehsal həcminin, təxminən, 95 faizini əhatə edib. Qeyd edək ki, dövlət dəstəkli aqrar sığorta ölkə Prezidenti İlham Əliyevin fermerlərə xüsusi diqqət və qayğısının bariz nümunəsidir. Aqrar sığorta sistemi fermerləri subsidiyalarla daim dəstəkləyən dövlətimizin bu sahədə növbəti qayğısı kimi dəyərləndirilir. Fermerlərin bu xidmətlərdən istifadə edə bilməsi üçün hesablanmış sığorta haqqının 50 faizi məhz dövlət büdcəsi hesabına ödənilir. Buna görə də fond fermerləri bu xidmətdən faydalanmağa və öz məhsullarını qorumağa səsləyir. Belə ki, fermerlərlə imzalanmış aqrar sığorta müqaviləsinə əsasən, təsərrüfatını sığortalatmış şəxs baş vermiş sığorta hadisələri barədə 10 gün ərzində 1651 çağrı mərkəzinə, eyni zamanda, məlumatlandırılmalı olan digər aidiyyəti dövlət qurumlarına müraciət etməlidir.

*Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"*



# Azad edilmiş ərazilərdə 39 avtomobil tuneli inşa edilir

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində yol infrastrukturu layihələrinin icrası uğurla davam etdirilir.**

Hazırda işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrində ümumi uzunluğu 66 kilometrə yaxın olan 39 avtomobil tunelinin inşası həyata keçirilir.

Həmin tunellərin 17-si Kəlbəcər-Laçın (12 min 964,61 metr), 7-si Əhmədbəyli-Füzuli-Şuşa, (12 min 690,6 metr), 7-si Xudafərin-Qubadlı-Laçın (2 min 358 metr), 3-ü Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd (12 min 32,79 metr), 5-i isə Toğanalı-Kəlbəcər-İstisu (25 min 926,97 metr) avtomobil yollarında inşa olunur.

*"Xalq qəzeti"*

# "Azərişıq" regionlarda elektrik şəbəkəsini təzələyir

**Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq, "Azərişıq" ASC regionlarda yenidənqurma işlərini davam etdirir.**



ASC-nin mətbuat xidmətindən aldığımız məlumata əsasən, "Azərişıq" hazırda Samux rayonunun Qədili, Seyidlər və Sarıqamış kəndlərində müvafiq layihələr icra edir, istismar müddətini başa vurmuş 10 və 0,4 kV-luq elektrik xətləri, dayaqlar və bütün güc mərkəzlərini yeniləyir.

İndiyədək üç kənddə ümumilikdə 10 KTM quraşdırılıb və abonentlərin bütün sayğacları yenilənib.

Bununla yanaşı, "Azərişıq" ASC Gədəbəy rayonunun ucqar Arısu və Əlinağılar kəndlərində də elektrik şəbəkələrini yenidən qurur. Ötən əsrin 50-60-cı illərində qurulmuş köhnə şəbəkə yenidənqurma layihəsi çərçivəsində tam yenilənir. Elektrik xətləri izolyasiyalı naqillərlə əvəzlənir, köhnə dayaqlar, sayğaclar və həmçinin bütün güc mərkəzləri tam yenilənir.

Bütün bunlardan əsas məqsəd adıçəkilən kəndlərdə işləri mümkün qədər tez zamanda yekunlaşdırmaq və bununla da itkilərin qarşısını almaq, həmçinin abonentlərin dayanıqlı, keyfiyyətli elektrik enerjisi ilə təminatını həyata keçirməkdir.

Xatırladaq ki, investisiya layihəsi bütün regionlarda 100-dən çox kəndi əhatə edir.

*"Xalq qəzeti"*

# Banklar 5 ayda 437,1 milyon manat mənfəət əldə edib

**Cari ilin yanvar-may aylarında banklar 437,1 milyon manat xalis mənfəət, 644,1 milyon manat məbləğində əməliyyat mənfəəti əldə edib.**




Mərkəzi Bankın məlumatına əsasən, ötən ilin müvafiq dövrü ilə müqayisədə bankların xalis və əməliyyat mənfəəti müvafiq olaraq 32 faiz və 28 faiz artıb.

2023-cü ilin 5 ayında banklar 106,1 milyon manat məbləğində mənfəət vergisi ödəyib.

*"Xalq qəzeti"*

# “Muğam aləmi” 6-cı Beynəlxalq Musiqi Festivalına sözardı

## Yaxud, “daş ürəklərdə yanıb, daşları sındıran” ecazkar sənətin çağdaş təntənəsi



**Beləcə, Azərbaycan daha bir beynəlxalq mədəniyyət tədbirini məsuliyyətlə təşkil etdi və uğurla başa çatdırdı. Builki “Muğam aləmi” festivalı Prezident İlham Əliyevin sərəncamı ilə elan olunmuş “Heydər Əliyev İli” çərçivəsində ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə təsadüf etdiyinə görə daha əlamətdar idi. Bəli, ölkəmizin mədəniyyət ocaqları altıncı dəfə muğam nuruyla işıqlandırıldı. Yeri gəlmişkən, mən məmnunam ki, bu möhtəşəm layihənin musiqi tədbiri silsiləsinin birincisinin həm açılış, həm də bağlanış mərasimlərində iştirak etmişdim.**

O zaman “Muğam dünyası” Beynəlxalq Musiqi Festivalı adlandıran tədbir Heydər Əliyev Fondunun təşəbbüsü ilə 18–25 mart 2009-cu il tarixində keçirilmişdi. Açılışı Beynəlxalq Muğam Mərkəzində, bağlanışı isə martın 25-də Heydər Əliyev Sarayında təşkil olunmuş tədbirlər silsiləsi haqqında danışan Mehriban xanım Əliyeva demişdi ki, biz bu layihənin Azərbaycan brendi kimi qəbul olunması üçün belə festivalları davamlı olaraq təşkil edəcəyik. Artıq zaman sübut edir ki, təkcə dövlət başçımız deyil, digər dövlət rəsmilərimiz də verdiyi vədlərin reallaşdırılmasına nail olur.

“Azərbaycan brendi” demişkən, xatırladım ki, mən Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə baş tutan növbəti festival çərçivəsində keçirilən tədbirlərin əksəriyyəti ilə maraqlandım və yadıma düşən ilk fikir bu oldu ki, Azərbaycan “Bakı prosesi” və “Mədəniyyətlərarası dialoqlar” silsiləsi kimi bu festivala da uzunömürlülük bəxş edə bildi.

Qeyd edək ki, “Bakı prosesi” də əvvəlcə mədəni əməkdaşlıq məzmunu daşıyırdı. Ancaq cənab Prezident İlham Əliyev həmin tədbirin tam siyasiləşdirilməsinə nail olmuş və nəticədə, Azərbaycanın dostları çoxalmış, beynəlxalq aləmdəki nüfuzumuz artmışdır. Söhbət ondan gedir ki, 2008-ci ilin 2–3 dekabr tarixlərində təşkil olunan Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransına Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq 10 islam ölkəsinin nazirləri də dəvət edilmişdi. İslam dövlətlərinin iştirakı ilə mədəniyyət nazirlərinin konfransı yeni bir formata transformasiya olunmuş, Avropa və ona qonşu regionlardan 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının yüksək səviyyəli nümayəndələrinin iştirak etdiyi bu konfransda “Mədəniyyətlərarası dialoqunun təşviqinə dair “Bakı Bəyannaməsi” qəbul edilmişdi.

“Bakı Bəyannaməsi” ilə sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan “Bakı prosesi”nin və bu prosesin inkişafına hədəflənmiş “Sənətçilər dialoq naminə” layihəsinin əsası qoyulmuşdu. Bundan başqa, “Bakı prosesi”nin davamlılığını təmin etmək məqsədilə 2009-cu il 13–15 oktyabr tarixində Bakıda keçirilmiş İslam ölkələrinin mədəniyyət nazirlərinin VI Konfransında Azərbaycanın təşəbbüsü ilə 10-dan çox Avropa dövləti də iştirak etmişdi. Həmin tədbirdə iştirak edən Avropa Şurasına üzv dövlətlər ilə İslam Konfransı Təşkilatına üzv ölkələr arasında mədəniyyətlərarası dialoqa dair birgə kommunike qəbul edilmişdi. 2010-cu il sentyabrın 23-də isə BMT-nin Baş Assambleyasının 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyi elan edilmişdi.

Yəni, Azərbaycanda keçirilən mədəniyyət tədbirləri də birbaşa olaraq ölkəmizin xarici siyasətinə və son nəticədə milli dövlətçiliyimizin maraqlarına xidmət edir. Builki festivalda Azərbaycan musiqiçiləri ilə yanaşı, Türkiyə, Özbəkistan, Tacikistan, İsrail, Əfqanıstan, İran, İraq, Yunanıstan, Böyük Britaniya, Mali, Hindistan, İordaniya və Misirdən gəlmiş musiqiçilər də iştirak edirdilər. Yəni əvvəlkilərə nisbətən bu festivalın coğrafiyası daha böyük idi. Çevrənin genişlənməsi isə təbii ki, tədbirin beynəlxalq əhəmiyyətini də artırır.

Onu da əlavə edək ki, builki festival çərçivəsində keçirilən müsabiqənin münsiflər heyəti də müxtəlif ölkələri təmsil edirdilər və beynəlxalq aləmdə böyük nüfuz sahibi olan görkəmli sənətkarlardan ibarət idi. Heydər Əliyev Mərkəzində keçirilən yekun konsertdən əvvəl jurnalistlərə müsahibə verən festival iştirakçısı Vasımatı Qabrinati demişdi ki, 2009-cu ildə keçirilən birinci Beynəlxalq Muğam Festivalından sonra iştirak etdiyim ən yaxşı festivaldır: “10-dan çox ölkədən musiqiçiləri bir arada görmək çox xoşdur. Biz bu festivaldan zövq aldıq”.

Yada salmaq istədiyimiz əsas məqamlardan biri də festival çərçivəsində keçirilmiş beynəlxalq muğam müsabiqəsinin xanəndə və instrumental ifaçılıq kateqoriyaları üzrə münsiflər heyətinin sədri, Milli Konservatoriyanın rektoru Xalq artisti Siyavuş Kəriminin dedikləridir. Professor xatırlatdı ki, “Muğam aləmi” Beynəlxalq Musiqi Festivalı ilk gündən etibarən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi və himayəsi altında keçirilir: “Bu festival regionların ənənəvi musiqi mədəniyyətlərinin bir çox görkəmli nümayəndələrini, eyni zamanda gənc musiqiçi, bəstəkar, tədqiqatçı, təbliğatçı və həvəskarlarını bir araya toplayıb bölgələrdəki mövcud vəziyyətin və orada formalaşmaqda olan ənənələrin nümayiş olunduğu beynəlxalq layihəyə çevrilib. Festival müxtəlif ənənəvi və yeni musiqi janr və üslublu əsərlərdən ibarət silsilə konsertlər, beynəlxalq elmi simpozium və ənənəvi musiqi ifaçılarının müsabiqəsindən ibarətdir”.

Xatırladaq ki, müsabiqədə Azərbaycanla yanaşı, İran, İsrail, Özbəkistan və Türkiyədən ümumilikdə 22 ifaçı iştirak edib. Birinci yer uğrunda instrumental ifaçılıq kateqoriyası üzrə 12, xanəndəlik kateqoriyası üzrə isə 10 ifaçı mübarizə aparıb. Müsabiqədə ölkəmizi instrumental ifaçılıq kateqoriyası üzrə 5, xanəndəlik kateqoriyası üzrə isə 4 ifaçı təmsil edib. Müsabiqənin qaliblərinin adına baxanda da göz önündə ilk olaraq türk coğrafiyası canlanır. Məsələn, Mohiçehra Şahmurotova (Özbəkistan), Mirəli Sarızadə (Azərbaycan), Dostmurod Negmurodov (Özbəkistan), Shoxijohan Yoriev (Özbəkistan, rübab) və s.

Yeri gəlmişkən, bu festival Azərbaycanın mədəniyyət mərkəzlərinin imkanlarının təbliği baxımından da əhəmiyyətli oldu. Məsələn, Beynəlxalq Muğam Mərkəzi, Milli Konservatoriya və Daş Salnamə Muzeyi, sözün həqiqi mənasında, beynəlxalq tədbirlərin keçirilməsi üçün ən yaxşı məkanlar idi. Festivalın sonuncu tədbirinin məkanı olan Heydər Əliyev Mərkəzi isə özünün maddi-texniki bazasına və digər imkanlarına görə əksər ölkələrin musiqiçiləri üçün əlçatmaz səviyyədədir. Burada müasir dünyanın ən mötəbər beynəlxalq tədbirləri keçirilir.

Sonda bir daha xatırladaq ki, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2009-cu ildən milli muğam müsabiqələri və beynəlxalq muğam festivalları təşkil olunur. Ekspertlərin fikrincə, bu layihələr milli sərvətimiz olan muğamı dünya mədəniyyəti müstəvisində bir daha nümayiş etdirmək və yaşatmaq məqsədi daşıyır.

*İttifaq MİRZƏBƏYLİ, “Xalq qəzeti”*

# Azərbaycan Xarici İşlər Nazirliyi Fransa prezidentinə cavab verib

**Fransa prezidenti Emmanuel Makronun Marsel şəhərində erməni icması ilə görüşdə növbəti dəfə Azərbaycan əleyhinə səsləndirdiyi, Ermənistanı birtərəfli qaydada müdafiə edən və həqiqəti əks etdirməyən fikirləri qəbuledilməzdir. Bu barədə Xarici İşlər Nazirliyindən bildirilib.**

Qeyd edilib ki, həm 44 günlük Vətən müharibəsində, həm də postmünaqişə dövründə dəfələrlə anti-Azərbaycan bəyanatları ilə yadda qalan E.Makron müharibə və müharibədən sonrakı dövrdə öz məqsədlərinə nail ola bilməyib.

“Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təzyiq göstərildiyi barədə iddiaları Fransa Prezidenti Makronun təxəyyülünün məhsuludur. Azərbaycan Respublikasının Prezidentinə təzyiq göstərmək cəhdləri heç zaman nəticə verməyib. Prezident İlham Əliyev öz fəaliyyətində Azərbaycan Respublikasının milli maraqlarını beynəlxalq hüququn norma və prinsipləri əsasında daim uğurla müdafiə edib.

Prezident Makronun açıqlaması bir daha onu göstərir ki, o, Fransanın erməni lobbisinin əlində bir alətdir. Qeyd edək ki, onun izahat verməyə çalışdığı erməni icmasının nümayəndəsi məhz o radikal şəxslərdəndir ki, ona qarşı Ermənistan tərəfindən ölkəyə giriş qadağası qoyulub.

Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi və Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi kimi tanınması fonunda Prezident Makronun bu kimi qərəzli bəyanatları bölgədə sülhün və əmin-amanlığın bərqərar olmasına mane olmaqla yanaşı, separatçılıq və terrorçuluğu təşviq edənlərin və dəstəkləyənlərin destruktiv fəaliyyətini daha da genişləndirməsinə rəvac verir”,- deyə XİN-dən bildirilib.

# Baş prokuror Naxçıvanda vətəndaşları qəbul edəcək

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev cari il iyulun 11-də, saat 10:00-da Naxçıvan Muxtar Respublikası prokurorluğunun inzibati binasında Naxçıvan şəhər, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayon sakinlərinin qəbulunu keçirəcək.**

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Naxçıvan şəhərinə gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon (şəhər) prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli, Naxçıvan Muxtar Respublikası prokurorluğunun Sənədlərlə və müraciətlərlə işin təşkili şöbəsinin (036)-550-14-96 nömrəli telefonu, contact@prosecutor.gov.az və nakhchivan.mr@prosecutor.gov.az elektron poçt ünvanları, həmçinin prokurorluğun sosial şəbəkələrdəki səhifələri (instagram, facebook, twitter) vasitəsilə də qəbula yazıla bilərlər.

# Şəkinin 13-cü qardaşı – Lianşan



**Dünən Şəki və Çin Xalq Respublikasının Lianşan vilayəti arasında dostluq və qardaşlıq haqqında protokol imzalanıb. Beləliklə, Şəki ilə qardaşlaşmış şəhərlərin sayı 13-ə çatıb.**

Mərasimdə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov qonaqlara Azərbaycanın bu qədim şəhərinin mədəniyyəti, iqtisadiyyatı, kənd təsərrüfatı, ipəkçilik ənənələri, turizm imkanları barədə geniş məlumat verib.

Lianşandan ölkəmizə gələn nümayəndə heyətinin rəhbəri Huang Yuchao diqqətə çatdırıb ki, Lianşanın əhalisi 5 milyon nəfərə yaxındır. Lianşan Çində təbii sərvətlərlə zəngin tanınmış ərazidir. Burada böyük həcmdə ekoloji təmiz enerji mənbələri var.

**Q.QASIMOV, “Xalq qəzeti”**

# Ukrayna ordusu ilə döyüşəcək erməni taboru

## *...Moskvadakı qriqoryan kilsəsində kimlərə “xeyir-dua” verilib*

**Rusiya rəsmiləri Ukraynaya erməni əsilli şəxslərdən təşkil olunmuş yeni tabor göndərir. Belə bir məlumatı ABŞ-ın Müharibəni Öyrənmə İnstitututu (ISW) Rusiya mənbələrinə istinadən yayıb. Məlumatda bildirilir ki, sözügedən taborun tərkibini Ermənistan vətəndaşlığını daşıyan ermənilər, həmçinin Abxaziyadakı etnik ermənilər təşkil etməkdədir.**



Bu xəbər bir neçə cəhətdən maraqlıdır. Əlbəttə, Abxaziyada yaşayan etnik ermənilərin Rusiyanın tərəfində döyüşmələrində, ilk baxışdan, təəccüblü nə isə yoxdur. Hərçənd, nəzərə alsaq ki, Abxaziya separatçı bölgədir, oradakı ermənilərin Ukrayna əleyhinə savaşmalarının arxasında hansı siyasi çalarların dayandığını söyləmək mümkündür. Ölkənin Donetsk və Luqansk bölgələri də separatizmin əsiridir. Deməli, separatçılar özləri kimilərin apardıqları avantürist oyunda iştirak edirlər.

Niyə abxazlar yox, ermənilər? Düşünürük ki, burada da vurğulanmalı məqam yox deyil. Tarixən erməni ambisionizmi bölücü və dağıdıcı xisləti ilə seçilib. Onları alətə çevirmək mümkündür. Necə ki, otuz ilə yaxın Azərbaycan torpaqlarında xəstə təfəkkürlərinin məhsulu olan yaramazlıqları gerçəkləşdirməklə yanaşı, həm də qlobal oyunlarda alətə çevrildilər. Görünür, indi də Ukrayna müharibəsində eyni “ampluada” çıxış etməkdədirlər.

Gələk, Ermənistan vətəndaşı olan ermənilərə. Əlbəttə, bu tiplər də birincilərdən o qədər fərqlənmirlər. Əksinə, əgər azğındırlarsa, bu baxımdan haradasa yaşayan soydaşlarından daha “üst səviyyədədirlər”. Diqqət yetirək, haqqında söz açdığımız məsələ ABŞ-dakı mötəbər qurum tərəfindən açıqlanırsa, deməli, Ukraynaya qarşı döyüşmək üçün yollanan Ermənistan vətəndaşlarının sayında çoxluq, ən əsası mütəşəkkillik və sistematiklik var. Belə bir miqyaslı işin isə ölkə hakimiyyətindən xəbərsiz gerçəkləşdirilməsi mümkünsüz görünür.

Növbəti sual: necə olur ki, Qərbpərəst Ermənistan iqtidarı anti-Qərb təmayüllü aksiyanın içərisində yer alır? Suala cavab vermək çətindir. Ancaq son vaxtlar Ukrayna müharibəsi ilə bağlı Ermənistanın adı çəkilməkdədir. Məsələn, bu yaxınlarda məlum olub ki, ABŞ-dan Ermənistana texnoloji alətlərin daşınmasında fantastik artım var. Söhbət, konkret olaraq, Rusiyanın raket sistemlərinin hərəkətə gətirilməsi üçün mikro çiplərin idxalından gedir. O çiplərin ki, Moskvanın onları əldə etməsinə sanksiya qoyulub. Mövcud durumdan yararlanan isə ermənilər olub. Onlar ölkələrini “tranzit” kimi istifadə ediblər. Yəni, Rusiyaya lazım olan alətlər Ermənistana gətirilib, oradan isə Şimala yola salınıb. Maraqlıdır ki, bu “ticarət konfiqurasiyasında” İranın da adı çəkilməkdədir. İranı hələlik bir kənara qoyub mətləbdən uzaqlaşmayaq və indi diqqətə çatdırdığımız hadisə ilə mövzumuzun ana xəttini təşkil edən məsələ arasında kiçik yaxınlıq axtarmağa çalışaq.

Ortaya bir sual da çıxır: Ermənistan və ermənilər bu işi özbaşlarına reallaşdıracaq durumdadırlarmı? Axı, vurğuladıq ki, onlar tarixən alət olublar. İndi, ilk baxışdan, Ermənistan ilə Rusiyanın arası yaxşı deyil. Amma ölkənin Fransa ilə əlaqələri var. O Fransa ilə ki, dünyanı, guya, Rusiyaya qarşı olması ilə aldatmaq niyyətindədir. Ancaq əmələ diqqət yetirəndə görürük ki, Paris, loru dildə desək, yalnız guruldamaqla məşğuldur, həssas məqamlarda anti-Moskva təmayülündən kənardır. Yəni, hazırkı durumda Fransa hakimiyyəti görüntü yaratmaqla məşğuldur. Özü də bu görüntünün qurulmuş oyun olduğunu Avropa ölkələrinin bir çoxunda yaxşı bilirlər. Təsadüfi deyil ki, Fransa Prezidenti Emmanuel Makronun Rusiya Prezidenti Vladimir Putinin “peşkası” olduğunu söyləyən siyasilər var. Onlar bu qənaətə vəziyyəti təhlil edərək gəlirlər, nəyisə havadan-sudan götürmürlər.

Nəzərə alsaq ki, hazırda Fransa-Ermənistan əlaqələrində birincinin ikinciyə münasibətdə yüksək təəssübkeşliyinə söykənmiş bağlantı var, belə nəticəyə gəlmək mümkündür ki, necə deyərlər, kiçik bacı olan Ermənistan böyük bacı sayılan Fransanın diktəsi ilə hərəkətə gəlir. Makronun Ukrayna müharibəsindəki qeyri-səmimiliyinə də diqqət yetirəndə, mənzərə tam aydınlaşır. Deməli, Ukraynaya qarşı Ermənistan vətəndaşlarının döyüşmələrində uyğunluq var. Beləliklə, bütün daşlar yerinə oturur.

Qalır, Abxaziya erməniləri ilə Ermənistan erməniləri arasındakı əlaqəni tapmaq. Burada da məntiqdən kənar nə isə istisnadır. Həm Ermənistan hakimiyyəti, həm də kənardakı ermənilər prinsip etibarilə dünya erməniliyi, başqa sözlə desək, xaricdəki erməni lobbi və diaspor təşkilatları ilə, separatçı ünsürlərlə əlaqədədirlər. Dünya erməniliyinin geniş vüsət tapdığı ölkələr isə Rusiya və Fransadır. Deməli, erməniləri Fransa öyrədir, Rusiya döyüşdürür. Dəqiq desək, Ukraynada döyüşməyə aparır.

Əlbəttə, ABŞ da dünya erməniliyinin məskən saldığı bölgələrdəndir. Ancaq vəziyyəti təhlil edərkən, belə qənaətə gəlmək mümkündür ki, hazırda Birləşmiş Ştatlardakı erməni lobbi və diaspor təşkilatlarının istəkləri ölkənin qlobal siyasətinə, xüsusən də Cənubi Qafqaz maraqlarına tərs mütənasibdir. Faktiki olaraq, Vaşinqton erməni mənafelərini kənara qoyub. ABŞ Konqresindəki ermənipərəstlər nə qədər hay-küy qaldırsalar da, bu, Ağ Evin siyasətinə təsir göstərmir.

Müşahidəçilər də bildirirlər ki, indi Birləşmiş Ştatlar Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsində obyektivlik nümayişindədir. Ancaq biz onu da görürük ki, ABŞ-ın yanaşması Ermənistanı qane etmir. Daha doğrusu, Ermənistanın Azərbaycanla sülh prosesinə münasibəti, Vaşinqtonu razı salmır. Ona görə də Birləşmiş Ştatlara məxsus Müharibəni Öyrənmə İnstitutunun, habelə bənzər qurumların hazırda açıqlanmış faktlara oxşar məsələləri gələcəkdə daha yüksək intensivlikdə və rəngarəng şəkildə gündəmə gətirmələri proqnozlaşdırılandır.

Rəngarənglikdən söz düşmüşkən, ISW iyulun 2-də Rusiya mənbələrinə istinadən yaydığı məlumatda Ukraynada döyüşəcək erməni könüllü taborunun “Arbat” adlandırıldığını da açıqlayıb. Hələ onu da bildirib ki, həmin tabora daxil olan şəxslərin Moskvadakı erməni kilsəsindən yola salınması mərasimi təşkil olunub. Mərasimdən fotoların yayıldığı da bildirilir.

**R.ƏVƏZ, “Xalq qəzeti”**

# Türk dövlətlərinin qadınları da təşkilatlanırlar



**Bugünlərdə Türkiyənin paytaxtı Ankarada Türk Dövlətləri Qadın Birliyi Təşkilatının təsis konfransı keçirilmişdir.**

Məclisdə ölkəmizi təmsil edən Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva ölkəmizdə qadın hərəkatının tarixi və çağdaş fəaliyyəti barədə iştirakçılara ətraflı məlumat vermişdir. Alim çıxışında tarixin müxtəlif dövrlərində türk qadınının ictimai-siyasi həyatda və dövlət quruculuğunda fəal iştirakından, elmin və mədəniyyətin inkişafına verdiyi töhfələrdən söz açmışdır.

Vətəninə və soykökünə sadiq nəslin yetişməsində qadının özünəməxsus roluna toxunan soydaşımız ümumtürk birliyinin yaradılmasında da onların qarşısında önəmli vəzifələr durduğunu vurğulamışdır.

**"Xalq qəzeti"**

# III Avropa Oyunları başa çatdı

## Yarışda 11 medal qazanan Azərbaycan yığmasının potensialı daha yüksəkdir

**Avropanın ən nüfuzlu idman yarışı olan III Avropa Oyunları başa çatdı. Azərbaycanda "doğulan" bu möhtəşəm multiidman tədbiri "Odlar yurdu"nun müəyyənləşdirdiyi müasir standartlarla yenidən "Qoca qitə"nin ən güclülərini bir araya gətirdi. Minlərcə avropalının öz idman məharətini, qüvvəsini nümayiş etdirməsi üçün geniş imkanlar yarandı. Qazanılan nəticələr Avropa ölkələrinin yarışlara hazırlığının səviyyəsini göstərməklə yanaşı, qarşıdakı Paris Olimpiadası ilə bağlı ilkin proqnozlar üçün də kifayət qədər əsas meydana çıxardı.**



Komandamızın nəticələrinə nəzər salmazdan qabaq turnir cədvəlini gözdən keçirək. İlk üç yerdə qərarlaşan İtaliya (358 nəfər, 35-26-39), İspaniya (346 nəfər, 21-17-19) və Ukrayna (263 nəfər, 21-12-8) yarışa böyük heyətlə qatılmışdılar. Təbii ki, geniş heyətlə mübarizə aparan komandanın medal şansları daha çox olur. Elə yığmamızın "Bakı-2015"də mübarizəsini xatırlayanda, ilk növbədə, ölkəmizin medal əyarına görə ikinci pillədə qərarlaşmasını yada salırıq. Həmin yarışda 291 idmançıdan ibarət komandamız 56 medala (təxminən 20 faiz nəticə) sahib olmuşdusa, "Minsk-2019"da 82 nəfərlik komandamız 28 medal (30 faizdən çox) qazanmışdı. İlk Avropa Oyunlarında keyfiyyətlə yanaşı, kəmiyyət də mühüm rol oynadı. Deməli, yüksək nəticə üçün komandanın geniş heyətlə təmsil olunması vacib idi.

Bəs komandamızın "Krakov-2023"dəki nəticələri bizi qane edə bilərmi? Oyunlar ərəfəsində Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə jurnalistlərə verdiyi müsahibəsində bildirmişdi ki, Azərbaycan millisi ölkələrin sıralamasında ilk onluğa düşməyə əsas namizədlərdəndir. Deməli, yığmamız öz potensialından tam istifadə edə bilməyib. Düzdür, MOK rəsmisi onu da qeyd etmişdi ki, III Avropa Oyunlarının proqramına salınan idman növləri bizim üçün o qədər də uğurlu deyil. Əslində, onu da xatırlamaq yerinə düşər ki, Minsk Oyunlarında 28 medalın 10-nunu güləşçilərimiz (5 qızıl medaldan 3-nə pəhləvanlarımız sahib olmuşdular) qazanmışdılar. Şübhəsiz, güləşin Oyunların proqramından çıxarılması komandamızın nəticələrinə xeyli təsir etdi.

Digər tərəfdən Avropa arenasında 3 qızıl medalın 3-nün də qeyri-olimpiya idman növləri üzrə qazanılması ölkəmizdə qeyri-olimpiya idman növlərinin inkişafına da böyük diqqət yetirilməsinin bariz nümunəsidir. Oyunlarda karateçilərin yarışı 2 qızıl və 1 bürünc medalla başa vurmaları əla nəticədir. Tural Ağalarzadə (67 kq) və İrina Zaretskanın (68 kq) qızıl, Asiman Qurbanlının (84 kq-dan yuxarı) bürünc medal qazandığı yarışı yığmamız ikinci yerdə başa vurdu.

Eləcə də, komandamızın aktivinə digər qızıl medalı əlavə edən kikbokçumuz Fərid Ağamoğlanovun (63,5 kq) nailiyyətini xüsusi vurğulamaq olar. İki kikboksçumuzdan birinin yüksək mükafat qazanması gözəl nəticədir. İdmançının məşqçisi Daxili İşlər Nazirliyi idman təlim şöbəsinin rəisi Eduard Məmmədov "Xalq qəzeti"nə açıqlamasında Fəridin Oyunlara lisenziyanı Avropa çempionatında qazandığını dedi. Qitə çempionatında finalda hakimlərin ədalətsizliyi ucbatından qələbə italiyalı rəqibə verilsə də, Avropa Oyunlarında F.Ağamoğlanov rəqibindən güclü olduğunu sübut etdi: "Əsas hədəf qızıl medal qazanmaq idi. Sevinirik ki, yüksək nəticə əldə edə bildik".



Ümumiyyətlə, döyüş idman növləri üzrə təmsilçilərimizin uğurları həmişə xalqımızı sevindirib. Daha bir qeyri-olimpiya növü olan muay-tay üzrə komandamızın 4 üzvündən 3-nün medal əldə etməsi xüsusi tərifə layiqdir. Millinin baş məşqçisi Azər Həsənsoy muay-tay döyüşçülərimizin III Avropa Oyunlarındakı iştirakından danışarkən qeyd edib ki, idmançının qələbə qazanmasında əsas amil taktikanın düzgün qurulmasıdır.

Avropa Oyunlarına ilboyu böyük səylə hazırlaşan (bu barədə mətbuatda geniş məlumat verilib) komandalarımızın nəticələri təhlil edilərkən hərtərəfli – fiziki, texniki, o cümlədən taktiki və psixoloji hazırlıq məsələlərinə tam diqqət yetirilməlidir.

Bu ilin əvvəlində 2022-ci ilin idman yekunlarına həsr olunan mərasimdə Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev bildirdi ki, 2024-cü ildə keçiriləcək Yay Olimpiya Oyunlarına hazırlığın son mərhələsindəyik. 2023-cü il bir çox parametrlər üzrə həlledici il olacaq. Ona görə bizim bütün idman ictimaiyyətimiz, nazirlik, Milli Olimpiya Komitəsi, federasiyalar, klublar, idman cəmiyyətləri, əlbəttə, əsas istiqaməti bunda görməlidirlər ki, Azərbaycan Yay Olimpiya Oyunlarında da öz gücünü təsdiqləsin.

Avropa Oyunlarında iki boksçumuzun – Məhəmməd Abdullayev (+92 kq) və Murad Allahverdiyevin (80 kq) Paris Olimpiadasına lisenziya qazanması da bu baxımdan təqdiredici hadisədir. Ümumiyyətlə, ölkəmizdə Olimpiya idman növlərinin inkişafı istiqamətində genişmiqyaslı tədbirlər keçirilir, Paris Olimpiadasına idmançılarımızın mükəmməl hazırlığı diqqət mərkəzindədir. Ötən ay gənclər və idman naziri Fərid Qayıbovun Olimpiya idman növləri üzrə federasiyaların nümayəndələri ilə doqquzuncu görüşü də keçirilib.

Döyüş idman növlərindən olan boks yığmamız Avropa Oyunlarını 1 gümüş və 1 bürünc medalla başa vurmaqla medal sıralamasına görə 7-ci pillədə qərarlaşıb. Taekvondoçularımız da eyni nəticəni göstəriblər. Səyyad Dadaşovun (54 kq) gümüş, Qaşım Maqomedovun (58 kq) bürünc mükafatı ilə komanda 7-ci nəticə göstərib. Şübhəsiz, hər iki növ üzrə təcrübəli idmançılar komandada yer almışdı və nəticələr daha yaxşı ola bilərdi.

Cüdo üzrə fərdi yarışların yox, qarışıq komanda turnirinin təşkili də medal şanslarımızı azaltdı. Azərbaycan millisinin böyük məşqçisi Mehman Əzizov Polşaya ehtiyat qüvvə ilə yollandıqlarını bildirib. O qeyd edib ki, əsas ümid oğlanlara idi. Əsasən oğlanlara üstünlük verilmişdi, qızlar isə gənclərdən ibarət idi. Məşqçi onu da bildirib ki, Çinin Çendu şəhərində keçiriləcək XXXI Ümumdünya Yay Universiadasına tam heyətlə yollanacaqlar. Orada komanda yox, fərdi yarışlar olacaq. Qılıncoynatma, atıcılıq, çimərlik futbolu, triatlon və digər Olimpiya idman növlərində medalsız qaldıq, bəzilərində isə təmsil olunmadıq.

Beləliklə, 48 ölkədən 7 minə yaxın idmançının çıxış etdiyi yarışlarda 86 idmançı ilə iştirak edən millimiz 11 medal (3-2-6) qazandı. Bu medallardan 7-si qeyri-olimpiya idman növləri üzrə əldə edilib. Komandamız ümumi hesabda isə 24-cü pillədə qərarlaşıb.

Təbii ki, yığmamız qarşıda dördilliyin ən nüfuzlu idman yarışı olan Paris Olimpiadasına daha çox lisenziya əldə etmək üçün böyük səy göstərir. Eləcə də, ölkəmiz üçün yeni olan Olimpiya idman növlərinin inkişafı üçün müvafiq qurumlar əlaqəli şəkildə işləyirlər. Avropa Oyunları bir daha göstərdi ki, həm Olimpiya, həm də qeyri-olimpiya idman növləri üzrə potensial var, ondan tam istifadə etmək üçün isə yığmalarımız səylərini artırmalıdırlar.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

# Yanğın təhlükəsizliyinə dair maarifləndirmə

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti Samux rayonunun Ziyadlı, Şəmkir rayonunun Xuluflu, Salyan rayonunun Ərəbqardaşbəyli, Sabirabad rayonunun Surra, Saatlı rayonunun Potubəyli kəndlərinin ərazilərində yerləşən taxıl sahələrində, Qəbələ rayonunda yerləşən Bum meşəbəyliyində, Şahdağ Milli parkının İsmayıllı bölməsində, Göygöl rayonu Aşıqlı kəndi ərazisindəki meşə sahəsində, Ağcabədi və Bərdə rayonlarının Meşə Təsərrüfatı mərkəzlərində dənli və texniki bitkilərin, meşələrin yanğın təhlükəsizliyinə dair maarifləndirmə tədbirləri keçirib.**

Tədbirlərdə dənli və texniki bitkilərin yığılması, daşınması, saxlanması və emalı dövründə yanğın hadisələrinin qarşısının alınması, eləcə də meşə və meşəətrafı ərazilərdə yanğın təhlükəsizliyinin təmin edilməsi, yüksək gərginlikli elektrik hava xətlərinin mühafizə zonalarında və ətraf sahələrdə yanğına qarşı qabaqlayıcı tədbirlər barədə iştirakçılara ətraflı məlumat verilib.



Toplantılarda yerli idarəetmə orqanları tərəfindən də əhali arasında sözügedən sahəyə dair maarifləndirmə işinin aparılmasının vacibliyi diqqətə çatdırılıb.

Tədbirlərdə mövzu ilə bağlı geniş müzakirələr aparılıb, zəruri tövsiyələr verilib, suallar cavablandırılıb.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***


# "Conco" QSC-nin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

*(manatla)*

| Göstəricilər | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **Uzunmüddətli aktivlər** | | |
| Torpaq, tikili və avadanlıqlar | 523940,26 | 496969,98 |
| **Cəmi uzunmüddətli aktivlər** | **523940,26** | **496969,98** |
| Ehtiyatlar | 506966,73 | 293867,12 |
| Qısamüddətli debitor borcları | 299586,34 | 998958,71 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 162150,84 | 247514.00 |
| Sair qısamüddətli aktivlər | 8852923,58 | 6400041,45 |
| **Cəmi qısamüddətli aktivlər** | **9821627.49** | **7940381.28** |
| **Cəmi aktivlər** | **10345567.75** | **8437351.26** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **Kapital** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 2000.00 | 2000.00 |
| **Cəmi kapital** | **2000.00** | **2000.00** |
| Qısanmüddətli kreditor borcları | 10237881,56 | 8394146,62 |
| Sair qısamüddətli öhdəliklər | 105686,19 | 41204,64 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **10343567.75** | **8435351.26** |
| **Cəmi öhdəliklər** | **10343567.75** | **8435351.26** |
| **Cəmi kapital və öhdəliklər** | **10345567.75** | **8437351.26** |

**Mənfəət, zərər və digər məcmu gəlirlər haqqında hesabat**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 21084977,31 | 18113583,12 |
| Satışın maya dəyəri | (21042961.90) | (19226769.96) |
| **Ümumi mənfəət (zərər)** | **42015.41** | **-1113186.84** |
| İnzibati xərclər | (1976556.83) | (1502512.51) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **-1934541.42** | **-2615699.35** |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | **-1934541.42** | **-2615699.35** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **-1934541.42** | **-2615699.35** |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| Göstəricilər | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | CƏMİ |
|---|---|---|---|
| **2021-ci il yanvarın 1-nə qalıq** | **2000.00** | **0,00** | **2000.00** |
| **2021-ci il yanvarın 1-nə düzəlişlərdən sonra qalıq** | 2000.00 | 0,00 | 2000.00 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 0,00 | -2615699.35 | -2615699.35 |
| **Kapitalın maddələr arasında köçürülmələrindən əvvəl 2021-ci il dekabrın 31-nə qalıq** | 2000.00 | -2615699.35 | -2613699.35 |
| **2021-ci il dekabrın 31-nə qalıq** | 2000.00 | -2615699.35 | -2613699.35 |
| **2021-ci il üzrə kapitalda dəyişikliklərin cəmi** | 0,00 | -2615699.35 | -2615699.35 |
| **2022-ci il yanvarın 1-nə qalıq** | 2000.00 | -2615699.35 | -2613699.35 |
| **2022-ci il yanvarın 1-nə düzəlişlərdən sonra qalıq** | 2000.00 | -2615699.35 | -2613699.35 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | -1934541.42 | -1934541.42 |
| **Kapitalın maddələr arasında köçürülmələrindən əvvəl 2022-ci il dekabrın 31-nə qalıq** | 2000.00 | -4550240.77 | -4548240.77 |
| **2022-ci il dekabrın 31-nə qalıq** | 2000.00 | -4550240.77 | -4548240.77 |
| **2022-ci il üzrə kapitalda dəyişikliklərin cəmi** | **0.00** | -1934541.42 | -1934541.42 |

**Maliyyə hesabatlarının mötəbərliyi Azərbaycan Respublikası Auditorlar palatası tərəfindən verilmiş lisenziyaya əsasən fəaliyyət göstərən auditor "XƏZƏR-AUDİT 2020" MMC tərəfindən təsdiqlənmişdir.**



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

öz gəmiləri üçün qayıq mühərriklərinin satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il iyulun 11-i saat 17:00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1132.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun Dəniz Nəqliyyat Donanmasının inzibati binasında təmir (3-cü və 4-cü mərtəbələrin təmiri) xidmətlərinin (mal-material və işçi qüvvəsi daxil olmaqla) satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il iyulun 18-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1176.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.



"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

*"Microsoft 365 Business Basic" və "Microsoft 365 Business Standard" lisenziyalarının satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 31 iyul 2023-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- +994 12 599 00 03 (daxili 3704).

Ünvan- AZ1010.Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

SON SƏHİFƏ

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 136 (30252) 4 iyul 2023-cü il, çərşənbə axşamı

veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Avropa çempionatında güləşçilərimizin böyük uğuru

**İspaniyanın Santyaqo de Kompostela şəhərində U-20 Avropa çempionatında yunan-Roma güləşi və sərbəst güləş üzrə millilərimiz tarixi uğura imza atıblar.**




Yunan-Roma güləşi üzrə yığmamız 2 qızıl, 2 gümüş və 2 bürünc medal qazanaraq 144 xalla komanda hesabında Avropa çempionu olub. Güləşçilərimizdən Elmir Əliyevlə (55 kq) Ruslan Nurullayev (72 kq) qızıl, Davud Məmmədov (77 kq) və Məzaim Mərdanov (130 kq) gümüş, Fəraim Muatafayevlə (63 kq) Kənan Abdullazadə (67 kq) isə bürünc medal qazanıblar.

Sərbəst güləş üzrə yığmamız isə 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanaraq yekunda 143 xalla komanda hesabında birinci yeri tutub. Belə ki, Ruslan Abdullayev (57 kq) və Ceyhun Allahverdiyev (61 kq) Avropa çempionu olub. Yusif Dursunov (125 kq) ikinci, Cavidan Əhmədov (70 kq), Sadiq Mustafazadə (79 kq) və Zəfər Əliyev (97 kq) isə üçüncü yeri tutublar.

Bu göstəricilər həm sərbəst, həm də yunan-Roma yığmalarımızın U-20 Avropa çempionatlarında topladıqları ən yüksək xaldır.

## Atletimizin yeni rekordu

**Azərbaycan atletika komandasının üzvü Yekaterina Sarıyeva Qazaxıstanın Almatı şəhərində keçirilən XXXII Qosanov Memorialında üç təkanla tullanma üzrə yarışda uğurla çıxış edib.**



13.89 metr göstərici ilə bütün rəqiblərini qabaqlayaraq birinci yeri tutan təmsilçimiz bu nəticə ilə, həm də üç təkanla tullanma növü üzrə özünə məxsus olan Azərbaycan rekordunu da təzələyib. Y.Sarıyeva göstəricisini 1 santimetr yaxşılaşdırıb.

Komandamızın digər üzvü Anna Skidan Estoniyanın Pyarnu şəhərində keçirilən yarışda qalib adını qazanıb. İdmançımız çəkicatma üzrə 71.86 metr nəticə göstərərək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

## "Henli Kral Reqatası"nda qızıl medal

**Azərbaycan yığma komandasının üzvü Diana Dımçenko akademik avarçəkmə üzrə nüfuzlu "Henli Kral Reqatası"nın qızıl medalını qazanıb.**



Böyük Britaniyada təşkil edilən və Olimpiya sistemi üzrə keçirilən yarışda idmançımız öz qrupunda 20 qadın avarçəkən arasında ən yüksək nəticə əldə edib.

Finalda Polşa idmançısı Maqdalena Vieliçkoya rəqib olan idmançımız yürüş məsafəsini 8 dəqiqə 58 saniyəyə qət edən təmsilçimiz yarışın qalibi olmaqla fəxri mükafata layiq görülüb.

***Leyla SABİRQIZI, "Xalq qəzeti"***

Texnologiya yenilikləri




## "Google"da Kanada xəbərləri yayımlanmayacaq

**Dünyanın ən böyük axtarış sistemlərindən biri olan "Google" öz platformasında Kanada media orqanlarının xəbər bağlantılarını dərc etməmək qərarına gəlib. Buna səbəb Kanada hökumətinin C-18 saylı qanunu (şirkətlərin platformalarında paylaşdıqları xəbərlərə görə media orqanlarına pul ödəmək) qəbul etməsi olub. Xəbəri "cnn.com" saytı verib.**

"Google"un qlobal məsələlər üzrə rəhbəri Kent Volker qanunun qüvvəyə minməsindən sonra Kanadada xəbər məzmunu axtarışı, araşdırma və kəşflə bağlı xəbərləri siləcəyini açıqlayıb. "Platforma, sadəcə olaraq, kanadalıların media xəbərlərinə çıxışını asanlaşdırır. Bu vergi isə məhsullarımız üçün qeyri-müəyyənlik yaradır. Həmçinin şirkətimizi maliyyə məsuliyyətinə cəlb edir"– deyə Volker bildirib.

Qeyd edək ki, Kanada Federal Parlamentində qəbul edilən qanun 22 iyun 2023-cü ildə Kanada Senatında da təsdiqlənib.

***Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"***

## Audio və media xidmətlərində yenilik

**"YouTube" platformasında paylaşılan kliplərin "Spotify" adlı audio və media xidmətləri proqramında yayımlanması planlaşdırılır. Sürətlə inkişaf edən rəqəmsal əyləncə dünyasında bu mövzu barədə strateji addımlar atılacaq.**

Mənbələrdən alınan məlumata görə, bu mövzuda digər musiqi platformaları və nəşriyyat şirkətləri arasında danışıqlara başlanılıb. Razılıq olarsa, "YouTube" da olduğu kimi, musiqi kliplərinin tam versiyasını "Spotify"da da izləmək mümkün olacaq. Hazırda "Spotify" müğənnilərin musiqilərinə 10 saniyədən az video yükləməyə icazə verir.



"Spotify" - 23 aprel 2006-ci ildə Daniel Ek və Martin Lorentzon tərəfindən yaradılıb. İsveç audio axını və media xidmətləri təminatçısı olan bu proqram səsyazma və media şirkətlərindən 82 milyondan çox mahnı daxil olmaqla, dinləyicilərə müəllif hüquqları ilə məhdudlaşdırılmış rəqəmsal musiqi və podkastlar da təklif edir.

***F. SALMANOVA, "Xalq qəzeti"***

# MƏDƏNİYYƏT XƏBƏRLƏRİ

***Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi və "Rabitəbank"ın yaranmasının 30 illiyi münasibətilə 30 ucqar kənd məktəbində "Kitab Gəzər" təşkilatının dəstəyi ilə kitabxana yaradılıb.***



Uşaqların yaş kateqoriyasına uyğun seçilmiş kitablardan ibarət yeni kitabxanalar qurmaqda əsas məqsəd məktəblilərdə mütaliəyə sevgi və vərdişi artırmaq, onları gələcəkdə böyük nailiyyətlər əldə etməyə sövq etməkdir.

*

***Sənətini Türkiyədə davam etdirən Azərbaycan əsilli aktrisa Natavan Gümet Türkiyənin nüfuzlu "Beyaz Yakamoz Ödülləri"ndə mükafat qazanıb.***



Aktrisa bu mükafatı "Təhminə və Zaur" serialındakı "Təhminə" obrazına görə alıb. Qeyd edək ki, kino, televiziya, musiqi, idman və iş dünyasının nəbzini tutan "Community Media" ailəsinin mükafat təşkilatlarından biri olan "Beyaz Yakamoz Ödülləri" mərasimi Anıl Budak, Eray Aksoy və Hakan Elkılıçın başçılığı ilə MBA Məktəblərinin Ataşehir Kampusunda təşkil edilib. Natavan Gümet isə "Ən Yaxşı Serial Performansı Mükafatı"na layiq görülüb.

*

***Abşeron rayonunda "Qəhrəman Muxtar Qasımlı" sənədli filminin təqdimatı keçirilib.***



Azərbaycan çempionu, Silahlı Qüvvələrin baş leytenantı, şəhid Muxtar Qasımlının məktəb illəri, idmanda qazandığı uğurlar, iş həyatı, 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq filmin süjet xəttini təşkil edir. Rejissoru və ssenari müəllifi Ruslan Mollayev olan "Qəhrəman Muxtar Qasımlı" sənədli filminin təqdimatında şəhidin valideynləri Əli Qasımov və Almaz Qasımova, şəhid ailələri, qazilər iştirak ediblər. İgid zabit Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərdiyinə görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və medallarla təltif edilib.

***Ə.DOSTƏLİ, "Xalq qəzeti"***

Sağlamlıq guşəsi

## Ballı su zəhərləri əridir



**Bəzən halsız olur, gəzməyə, bir iş görməyə ərinirik. Bunun müxtəlif səbəbləri olsa da, əhval-ruhiyyəmizi orqanizmdə toplaşan toksinlərin pozduğunu başa düşmürük. Düşünmürük ki, bədənimizi toksinlərdən təmizləməklə, əvvəlki gümrahlığımıza qovuşa bilərik. Bəs bunu necə etmək olar?**

Sən demə, parazitləri toz halına gətirən bir içki ilə bədəndəki toksinlər yox olur. Mütəxəssislərin fikrincə, mədə-bağırsağın işini və həzmi normallaşdırmağa, hüceyrə səviyyəsində toksinlərdən azad olmağa kömək edən bal şərbətidir. Orqanizmin təmizlənməsi üçün dietoloqlar ballı su içməyi məsləhət görürlər. Onu hazırlamaq üçün bir çay qaşığı bal bir stəkan çiy, amma isti suda həll edilir. Çiy suda bal klaster bağları əmələ gətirir və müalicəvi xüsusiyyətləri artırır.

Orqanizmi təmizləyən bu içki təkcə həzmi və mədə-bağırsaq traktının işini yaxşılaşdırmır, immuniteti də yüksəldir.

## "Mortal Kombat 2" filminin çəkilişləri başlayıb

**Məşhur döyüş oyunu seriyası əsasında olan ekran əsərinin çəkilişləri Avstraliyada aparılır.**




Bu məlumatı filmin prodüseri Ceyms Van təsdiqləyib. Onun sözlərinə görə, filmin növbəti bölümü 2021-ci ildə təqdim olunan birinci hissənin hadisələrinin davamı olacaq. Ekran əsərində Sab-Ziro, Skorpion, Sonya Bleyd, Caks və Rayden daxil olmaqla izləyicilərin bir çox sevimli personajları yer alıb. Filmin diqqət mərkəzində isə "Mortal Kombat" filmi üçün xüsusi olaraq yaradılmış yeni personaj Koul Yanqdır. Koul tez bir zamanda Yer krallığını qoruyan Rayden döyüşçülərindən birinə çevrilir və filmin sonunda onun birbaşa Skorpion nəslindən olduğu məlum olur.

***S.RZAYEVA, "Xalq qəzeti"***

Proqnoz

## Dağlıq ərazilərə dolu düşəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **iyulun 4-də Bakıda və Abşeron yarımadasında** yağmursuz keçəcək. Şimal küləyi əsəcək. Gecə 19-24°, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunundan 755 mm civə sütununa enəcək, nisbi rütubət gecə 65-75, gündüz 35-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 22-23° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 31-36°, dağlarda gecə 10-15°, gündüz 17-22° isti olacaq.

***Q.QASIMOV, "Xalq qəzeti"***

## Körpələrə – şirə, amma nə cürə?

**Uşaqlar meyvə şirələrini çox sevirlər, amma valideynlər onlara gün ərzində nə qədər şirə verəcəyini bilmir. Bəziləri, hətta zərərli olacağını düşünüb şirəni qadağan edir.**



Pediatrların fikrincə, uşaqlara şirə qəbulu normasını gözləməsək, onlarda bağırsaq pozulması baş verə bilər.

Şirələrdə kalori az deyil. Çox şirə içən uşaqlarda aşırı piylənmə də yaranır. Ona görə hazır şirə alarkən tərkibində konservant, yüksək şəkər olanları seçməyin.

Körpələrə 6 ayından şirə vermək olar. Şirənin miqdarını hesablamaq çox sadədir. Uşağın yaşındakı ayların sayını 10-a vurmaq lazımdır. Yəni, 6 aylıq uşağa 60 ml, 7 aylığa 70 ml, 1 yaşlı uşağa 100 ml sutkalıq şirə normasıdır. 1–3 yaş arası uşaqlar 100–120 ml, 3–5 yaş arası 150–200 ml arası şirə ilə bilər.

Amma 6 yaşdan 10 yaşa qədər uşaqlara da gündə 200 ml miqdarı aşmaq olmaz.

***Z.HÜSEYNLİ, "Xalq qəzeti"***

## ALLAH RƏHMƏT ELƏSİN

Süleyman İsmayılov və şöbənin əməkdaşları iş yoldaşları Fikrət Əzizova qardaşı

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Xalq qəzeti"nin kollektivi iş yoldaşları Tahir Aydınoğluya əmisi oğlu

**RÜSTƏM RÜSTƏMOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3903
SİFARİŞ 1561
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00